# Hədəfsiz

# Deizm




**Müəllif: Sahib Əsədov**

## Mərhəmətli və Rəhmli Allahın adı ilə

## Müqəddimə

Hörmətli oxucular! İnsanlar həyatı anlamaq üçün çoxsaylı düşüncələrə dalır, əsaslı-əsassız fikir axtarışlarına çıxırlar. Hər biri meyl etdiyi hər hansı bir fərziyyəni, hipotezi müdafiə edir və kainatın yaranması barədə "mülahizələr" irəli sürürlər.

Möhtəşəm kainat, qalaktikalar, ulduzlar, planetlər, kiçik bir planet olan yer kürəsində nizamlı bir həyat, təbiət, heyvanlar aləmi, dənizlər, dağlar, çaylar, göllər, növbənöv, zəngin çeşiddə heyvanlar aləmi və s. kimi çoxsayları məsələlər insanları düşündürür və dərin fikirlərə qərq edir. Bəziləri dini-fəlsəfəyə, bəziləri maddi elmə, bəziləri isə mütləq mənada dinə və s. üz tutur. Dinə üz tutmayanlar kainat, həyat, Allah, qeyb aləmi, din barədə mövzularda bir çox məsələləri qarışdırırlar. Onlar "elmlə dinin uyğun gəlmədiyini" iddia etdikdə, elmlə dinin sərhədlərini qarışdırdıqları kimi (elm “necə?” sualına cavab verir, din isə “nə üçün?” sualına), Yaradan və dinlər barədə məsələləri də qarışdırırlar. Dindən uzaq bir çox insanla praktiki şəkildə söhbət apardıqda, dialoq qurduqda, onların Yaradan və dinlər barədə mövqelərindən ateist və ya deist olduqları aydın olur. Sözün əsas məğzi isə budur ki, Allahın varlığının isbatı barədə dəlillər, bu barədə şübhələr ayrı mövzu olduğu kimi, dinlərin çoxluğu, dinlərin batilliyi və hansının doğru olması, yaxud da hamısının inkar edilməsi də tamamilə

ayrı bir mövzudur. Xülasə, dinlərin batil olması qənaətinə gəlmək, kainatın yaradıcısının olmaması mənasına gəlmir. Bir çox dinlərin mövcud olması isə onlardan yalnız birinin doğru ola biləcəyinə zidd deyil.

Hörmətli oxucular! Əlinizdəki bu kitabın əsas məqsədlərindən biri də deizm haqqında olan bəhsimizin mövzularını imkan daxilində həm deist, həm müsəlman, həm də digər inanclara sahib oxucuların daha aydın başa düşəcəyi tərzdə təqdim etməkdir. Təbii ki, yazıların əsas özəyi "deizmlə əlaqəli mövzulardır". Bu mövzuları bir araya cəm etməklə oxucuları deizmin fəlsəfi nəzəriyyəsi və deizm şüuruyla tanış etməklə yanaşı, İslam dininin deizmə olan tənqidi yanaşmasını və deizm əleyhinə bir sıra dəlillərini Allahın elmləndirdiyi qədər oxuculara çatdırmaqdır. Əslində isə bu mövzunun elmi cəhətdən haqqını verməyin böyük məsuliyyətini dərindən başa düşür, dəyərli ilahiyyatçılarımızın bu sahədə olan səylərini də yüksək qiymətləndirirəm. Lakin, bu kitabın əsas yazılma səbəblərindən biri də odur ki, bu mövzuda dinsizlik cərəyanlarının "mənəvi ruhunu" araşdıran, bu sahədə az-çox səyləri olan ilahiyyatçılarımızın mövzu ətrafında geniş etiqadi yanaşmalara söykənən, bütün müsəlmanların ortaq fikirlərini təmsil etməyə yaxın olan İslami yanaşma tərzi ilə deizmin tənqid edən və bu nəzəriyyənin hədəfsiz bir yol olduğunu göstərən konkret bir əsərlə rastlaşmamışam. Hətta ərəb ölkələrində deizmlə əlaqəli yazılmış kitabların yox səviyyəsində olduğunu gördükdə çox təəccübləndim. Ərəb ölkələrində ateizmlə əlaqədar çoxsaylı kitabların mövcudluğunun şahidi olsam da,

deizmlə əlaqədar adətən sadəcə məqalələr qarşıma çıxırdı. Nəhayət bu mövzuda bir kitab əldə etdim. Lakin müəllifin deizm haqqında cəmi bir neçə səhifəlik məlumat verməsi, daha sonra ümumi şəkildə şübhələrdən bəhs etməsi məni bu mövzuda daha geniş araşdırmalar aparmağa, xüsusən də ölkəmizdəki deistlərin fikirlərilə maraqlanmağa sövq etdi. Bir neçə dəfə deistlərlə elektron söhbətlərim və yazışmalarım oldu. Düşünürəm ki, deistlərin fikirləri ilə tanış olmadan bu kitabı yazmaq elmi əmanətə də zidd olardı. Lakin, kitabın əsas yazılma səbəbini etiraf edərək deyim ki, bu barədə mənə müsəlman qardaşlar tərəfindən azı üç müraciət edilmişdi. Daha sonra müraciətlərin çoxaldığını görüb bu sahədə müsəlmanlara köməkçi bir material hazırlamağa qərar verdim. Lakin, bu kitabın ərsəyə gəlməsi üçün meydana gələcək çətinliklər də gözümün önünə gəlirdi. Çünki söhbət təkcə deizmin tərifini, mənasını izah edib üç-beş deizm fikrini saf-çürük etməkdən getmirdi. Məqsəd həm müsəlmanları lazımlı material ilə təmin etmək, həm də bu kitabı gələcəkdə fərqli niyyətlərlə oxuyacaq deist vətəndaşlarımıza yardımçı olmaq, onların deizm fəlsəfəsinə düşmələrinə gətirib çıxaran ümumi şübhələrə aydınlıq gətirmək idi. Ümid edirəm ki, deistlər daha sadə dildə qələmə alınmış bu kitabı rahat şəkildə oxuyacaq və bu yazımızı "düşmən yazısı" kimi deyil, ümumbəşəri insani dəyərlərə hörmətlə yanaşan sadə bir müsəlmanın tövsiyələri kimi qəbul edəcəklər. Çünki, kənardan məsələlər fərqli görünə bilər, lakin əsas məsələ daxili müşahidələrin və davamlı obyektiv araşdırmaların elmə və elm iddiasında olanlara daha çox yaraşdığını bilməkdir. Həqiqət

axtarışında olan insanlar daha həm də geniş ürəyə, dinləmə qabiliyyətinə və tənqid mədəniyyətinə malik olmalıdır. Odur ki, bu kitabı oxuyacaq deistlərə materialı axıradək diqqətlə oxumalarını və tələsməmələrini tövsiyə edərdim. Çünki, həqiqətən onları narahat edən çoxsaylı mövzuları əhatə etməyə cəhd göstərmişik.

Onu da qeyd edim ki, bu kitabda deistlərin ateistlərlə həmfikir olduqları, İslam dininin tənqidinə yönəlmiş məşhur şübhələrinə deyil, əsasən deistlərə xas ümumi şübhələrə yer verilmişdir. Bu mövzulardan bəziləri ateistlərin şübhələrinə bənzəsə də, mahiyyət etibarilə deizm təfəkkürünə daha yaxındır. Ola bilsin ki, kitabın əhatə etdiyi mövzulardan bəziləri ateistlərin irəli sürdüyü şübhələr kimi görünsün, lakin həmin mövzular "deistlərin daha çox qabartdığı mövzular" olduğu üçün, biz bu kitabda təkidlə həmin mövzuları qeyd etmişik.

Həmçinin bu kitabı oxuyub İslam dini haqda digər şübhələri olan deistlərə elə deistlər tərəfindən ünvanımıza göndərilmiş "Səkkiz təsbitlə İslamı tərk" adlı şübhələr toplusuna yazdığımız 80 səhifəlik "Səkkiz təsbitlə İslamı tərk - yazısına cavab" adlı kitabı oxumalarını tövsiyə edirəm. Kitabı www.sunna.az saytının elektron kitablar kataloqundan yükləmək mümkündür. Həmçinin Muhəmməd Peyğəmbəri sadəcə olaraq zamanının dahi və ideoloq şəxsi adlandıran, Quranın bəşər sözü olduğunu iddia edən deistlərə “Quranı Muhəmməd yazıb” deyənlərə cavab” adlı 45 səhifəlik kitabçamızı oxumağı tövsiyyə edirik. Adı çəkilən kitabı da az öncə qeyd etdiyimiz saytdan

yükləmək mümkündür. Peyğəmbərin həyat yoldaşları ilə bağlı şübhələrə və digər şübhələrə cavablarımızla isə internetdə “ateizm barədə bütün məqalələr bir keçiddə” başlığı ilə axtarış edərək tanış ola bilərsiniz.

**Yazdı**: **Sahib Əsədov** **Mədinə şəhəri**

**Tarix: 27.07.2020**

## Deizm nədir?

**"Deizm" sözünün lüğəvi mənası:** latın sözü olub "Tanrı" (Allah) anlamını verən "deus" kəlməsindən törəmiş və azadfikirlilərin Tanrı (Allah) inancını ifadə edərkən istifadə edilmişdir[1]. "Deist məfhumu" yazılı olaraq ilk dəfə 1564-cü ildə Pyer Viretin "İnanc və İncili öyrənmək metodu" ("Instruction Chrétienne en la doctrine de la foi et de l'Évangile") adlı əsərində işlədilmişdir.

**Deizmin istilahi mənasını ifadə edən müxtəlif təriflər deyilmişdir. Bu təriflərdən:** "Kainatı yaradan, lakin, orada baş verənlərə müdaxilə etməyən uca, xeyirxah, hikmətli bir yaradıcı ilahi qüvvənin varlığına inanmaq"[2], həmçinin: "Aləmin - deistlərin qəsd etdiyi aləm - var olmasında ilk səbəb olan, yaratdıqdan sonra xüsusi qanunlarına əməl olunsun deyə tərk olunan ilahi bir qüvvənin varlığına inanmaq"[3] .

"Oxford" universitetinin "elmi məcmuəsində" deyilir: "İncil və Quranda olan xüsusi məlumatları vəhy etməsinə inanılmayan bir yaradıcını ağıl və hislərlə - xüsusən də məqsəd dəlili ilə - təsdiqləyən fəlsəfi etiqaddır. Beləliklə

---

[1] Milliyyet elektron qəzeti. "Deizm nedir?" adlı məqalə. 4-cü abzas. Məqalənin linki: https://www.milliyet.com.tr/gundem/deizm-nedir-2645594 Daxil olma tarixi: 2020.07.25.

[2] əl-Movsuatul-Fəlsəfə əl-Muxtasarah, səh 423.

[3] əl-Movsuatul-Fəlsəfiyyə, ləcnətun minəl-Uləməis-Sofyət, səh, 227.

deizm inancı, kainatı və onun işlərini təsis edən bir yaradıcıya inanmağı ehtiva edir. Lakin o, insanların ibadətinə və ehtiyaclarına cavab vermir”[4].

Həmçinin, deizmin tərifi haqda deyilmişdir: “Yazılı dinlərdəki Allah kimi olmayan, ilk yaradılış səbəbi olan, qeyri-şəxsi ilahın olduğunu iddia edən fikir sistemidir. Deist etiqad edir ki, Allah kainatı yaradıb, sonra Onun təbiətdə bərqərar etdiyi qanunlara əməl edilməsi üçün kainata müdaxilə etmədən onu tərk edib”[5].
Deizmə "dinsiz Yaradan inancı" da deyilir. Bəziləri deizmi "təbiəti ilahiləşdirmə yolu", "ilahiləşdirmə", "Təbiət dini" deyə adlandırıblar[6]. Bəzi tədqiqatçılar isə deizmi "Ağıl dini", yaxud da "Ağılı ilahiləşdirmə" adlandırıblar. Bu da onların həqiqət meyarı kimi yalnız ağıla əsaslandıqlarına görə deyilmişdir[7]. Deizmin kökü fəlsəfəyə söykənir. Onun bir fikir olaraq irəli sürülməsi ingilis filosofu **Eduard Herbertin**[8] (Herbert Çerberi,

---

[4] "Oxford" universitetinin fəlsəfə üzrə elmi məcmuəsi, 2/1404.
[5] “əl-Mucəm əl-Fəlsəfi”, Abdul-Mun'im əl-Hənəfi, 313.
[6] “Müasir Qərb düşüncəsində dinin tənqidi məsələsi”, doktorantura mərhələsi elmi işi, Sultan əl-Umeyri (ərəbcə), 1-ci cild, səh. 226. ظاهرة نقد الدين في الفكر الغربي الحديث -
[7] Bax: “Fəlsəfənin əsasları”, Rabobert, 200; “Müasir ağılın formalaşması”, Con Horman Randel, 1/433.
[8] Herbert Çerberi deizmin yaranmasında ən çox rol oynamış şəxslərdən biridir. Hətta o, deizmin formalaşdığını elan edən ilk şəxs olmuş və öz nöqteyi-nəzərindən deizmin əsaslarını qoymuşdur. Maraqlısı budur ki, bugünkü deistlər Herbert Çerberinin bəzi fikirləri ilə razı deyillər. Çünki o, Allahın mövcud olduğunu, insanların günahlarına görə tövbə etmələri, Allahdan qorxub şərəfli həyat yaşamaları lazım olduğunu, Allahın Axirət günü insanları hesaba çəkəcəyini və əməllərinin

1583-1648) adı ilə əlaqələndirilir. Bir sözlə o, deizmin banisi hesab edilir. Deizmin inkişafı və dinə qarşı bir vasitə kimi sürətlə yayılması isə XVIII əsrdə mövcud olmuş "**İlluminati**" adlı gizli təşkilatla əlaqələndirilir. Təşkilatın kilsəyə qarşı mübarizəsində həm Yaradanın varlığını təsdiqləyən, həm də bu Yaradanın dünyada qanunlar qoyduğunu, lakin ona təsir etmədiyini iddia edən bir inanc illüminatlar üçün əlverişli bir fəlsəfi Görüş idi. Deizm daha sonralar ateizmin növləri arasına daxil edilir, dinlərə qarşı mübarizədə ateizmlə çiyin-çiyinə dayanır. Çünki, deizmin qəbul etdiyi "Yaradıcı" obrazı ateistlərin inkar etdiyi, müsəlmanların isə təsdiqlədiyi Qüdrətli Allahı təsdiqləmir, əksinə, Allahı hədəfsiz bir yaradıcı kimi vəsf edirdi. Deistlərin inancına görə Yaradıcı qüvvə varlığı (məxluqatı) yaradıb, sonra isə ona nəzarəti tərk edib. Bəziləri bunu ilkin olaraq təbii qanunların qoyulmasının tərki kimi yox, sonradan insanların həyatını nizamlayan şəriət qanunlarının qoyulmasının, şəriətin göndərilməsinin tərk edilməsi kimi başa düşə bilər. Növbəti səhifələrdə deistlərin böləndüyü 4 qrupdan bəhs edərkən, onların ilahi müdaxilənin hədləri barədə ixtilaflı fikirləri oxuyucuya daha da aydın olacaq.

---

əvəzini verəcəyini deyib. Lakin Herbert Çerberi bir məsələdə dindarlara müxalif idi: o, qeyd olunan bu əsaslara vəhy olmadan da, ağıl yolu ilə dəlil gətirməyin mümkün olduğunu deyirdi. Beləcə o, iddia edirdi ki, guya özünü insanların əsrlər boyu qəbul etdiyi "təbii dinə" nisbət edir. ("Müasir Fəlsəfənin tarixi", Vilyam Kley Rayt, səh. 228; "Fəlsəfəyə Giriş", Azofland Koli, səh. 247).

Deistlər Yaradıcı qüvvəni şəriəti olmayan, insanları nizama salan dini və dünyəvi qanunlar qoymayan bir qüvvə kimi qəbul edirlər [9]. Loru dildə desək, onlar deyir ki: Yaradan var, lakin o, nə insanın həyatına, nə də təbiətə müdaxilə etmir.

**Deizmə verilmiş təriflərdən biri də budur:**
**"**Deistlər Yaradana inansalar da, dinlərə, ölümdən sonrakı həyata və insanların öz əməllərinə görə haqq-hesaba çəkiləcəyinə inanmırlar [10]".

Bununla yanaşı, onların demək olar ki, əksəriyyəti möcüzələri, Səmavi Kitabları, peyğəmbərləri, cənnət və cəhənnəmlə əlaqəli hər şeyi inkar edirlər.

Gəlin deistlərin ümumi növləri və bölündükləri qruplar haqqında qısa bilgilərlə tanış olaq, daha sonra isə digər mövzulara keçək:

Semyuel Klark [11] əsasən dörd qrup deistdən söhbət açır:

"**1 -** Dünyanı mükəmməl şəkildə yaradan, əzəli, sonsuz, azad, ağıllı bir varlıq olaraq yaradıcının mövcudluğunu qəbul edib, dünyanı saat kimi dəqiq quran və idarəsini təmin edən, ancaq dünya ilə heç bir bağı olmayan,

---

[9] Deizmin sonrakı qurucularından Metyu Tindal (vəf.1733), Con Toland (vəf. 1722), Tomas Peyn (vəf. 1809), Jan Jak Russo (vəf. 1778), Volter (vəf. 1778) və s. göstərmək olar. (bax: "Müasir qərb fikrində dinin tənqidi məsələsi", doktorluq dissertasiyası (ərəbcə) dr. Sultan əl-Umeyri, 1/229-236).

[10] "Hivarul-Mulhidin və Şubuhətur-Rububiyyin", Dr. Raşid əl-Qalib, səh. 67 (ərəbcə).

[11] Semyuel Klark (1675-1729): Nyutonun tələbəsi, daha sonralar isə dostu və müdafiəçisi olmuş ingilis filosofu və ilahiyyatçısı. Yaşadığı dövrdə deist olaraq tanınmışdır.

içində baş verənlərlə maraqlanmayan bir tanrıya inanan deistlər;

**2 -** Tanrının (Allahın) dünya ilə maraqlandığını, ancaq bu marağın əxlaqi dəyərlər ehtiva etmədiyini deyənlər; onlara fikrinə əsasən, dua edən, ancaq duası qəbul olunmayan bir insan başa düşməlidir ki, Tanrının (Allahın) iradəsi aşağıdan yuxarıya göndərilən tələbə uyğun şəkildə dəyişəcək bir iradə və ayrı-ayrı insanların arzu və istəklərinin obyekti deyil. O öz iradəsi ilə birbaşa kosmik hadisələrə müdaxilə edir;

**3 -** Digər bir qrup Tanrının (Allahın) əxlaqi sifətlərini qəbul etsə də, ruhun ölümsüzlüyünə, bir sözlə ölümdən sonrakı həyata inanmır;

**4 -** Bu qrupun düşüncələri isə çox fərqlidir. Onların fikrinə əsasən, doğru olan bütün dini və əxlaqi doktrinalar qəbul edilə bilər və bu dəyərlər vəhy vasitəsilə göndərilə bilər. Lakin bu vəhyin tək mərkəzinin Xristianlıq olması şərt deyil.

Digər bir qrup deistlər isə inanırlar ki, ağlın kəşf etdiyi həqiqətlərlə yanaşı, ilahi vəhyin də dəstəkləyici bir ünsür olaraq qəbul edilməsinə ehtiyac var. Məsələn, deistlərin öndərlərindən biri hesab edilən Benjamin Uiçkot yazır: “Ağıl təbii olanı kəşf edir, fövqəltəbii olanı isə qəbul edir. Ancaq burada əsas şərt, fövqəltəbii şəkildə baş verənlərin bizim ağıl testimizdən keçməsidir. Əks təqdirdə, bunlar bir kənara atılmalıdır. Bu səbəbdən də bizə ötürülən məlumatların analiz (təhlil) edilməsində ən üstün hakim ağıldır".

Göründüyü kimi bəzi deistlər dinlərin varlığını inkar etsələr də, bəziləri ağlın süzgəcindən keçən dinləri qəbul edirlər. Lakin bu məsələdə də “hansı ağıl?” və

“kimin ağlı?” məsələsi şübhə doğuran əsas suallardan biridir [12].

## Deist olmaqda bir məna varmı?

Yuxarıda da qeyd etdiyimiz kimi, deistlər yaradılışın hədəfsiz olduğunu düşünürlər. Hədəfsizlik nöqtəsində həyatın mənasız, qayəsiz olmasında ateistlərlə bir nöqtədə fikirləri eynilәşir. Bu isə onların qəbul etdiyi Yaradanın kainatı yaratdıqdan sonra yaratdıqlarını tərk etməsi, onlarla maraqlanmaması, onlara nəzarət etməməsi və s. kimi fikirləri ilə əlaqədardır. Deizm boş bir tezisdir. Üstəlik, o dərəcədə boş bir tezisdir ki, onu nəinki dindarlar, hətta ateistlər də şiddətlə tənqid edir. Çünki, deizm deyildikdə insanın ağlına çox vaxt hədəfsizlik və mənasızlıq gəlir. Lakin kainatın dəqiq, nizamlı və ecazkar fəaliyyəti bu hədəfsizliyə qətiyyən dəlalət etmir.

Deizmin tarixinin kilsəyə qarşı mübarizə ilə əlaqəli olması "iddialı elm və tərəqqi" şüarlarının qabardılmasında özünü büruzə verir. Yəni onlar da eynilə_ateistlər kimi elm tərəfdarı olduqlarını nümayiş etdirirlər[13]. Lakin biz cəmiyyətimizdəki deistlərin dindən,

---

[12] Məqalə: “Deizm xilas yolu ola bilərmi?” Dilavər Məmmədov, 7-ci abzas (www.azlogos.eu saytı). Daxil olma tarixi: 16.07.2020.

[13] Deistlərin "elmi hüdudları" özünü daha çox ağılı həqiqət meyarı kimi qəbul etmək və ağıla həddən artıq yer verməkdə büruzə verir. Çünki, onlar təcrübi (praktiki) elmi mühüm hesab etsələr də, həqiqi elmi meyar və həqiqət meyarı kimi ağılı önə çəkirlər. Belə olmasaydı, deistlər fəlsəfəni qəbul etməz, fəlsəfi

dini məsuliyyətlərdən yaxa qurtarmaq istəyən elmi insanlar deyil, kefini (nəfsi istəklərini) önə çəkən insanlar olduğunu müşahidə edirik. Haramları və günahları sərbəst şəkildə işləmək üçün deizmi seçənlərin sayı isə daha çoxdur. Belə insanlar Allahı tam inkar etməkdən ehtiyat edirlər. Lakin bu cür ehtiyatın dini cəhətdən heç bir faydası yoxdur. Çünki, Allahın şəriətini, qanunlarını inkar edib onu xürafat hesab etmək həqiqi dində küfr və dinsizlik hesab edilir.

## Deistlərin şübhələri hansılardır?

Deistlərin bir çox şübhələri məhz ateistlərin şübhələri qəbilindəndir. Qəsd edilən şübhələr dinlərə dair olan şübhələrdir. Doğrudur, bu şübhələri xüsusiləşdirən bəzi tədqiqatçılar var. Lakin zahirən görünən odur ki, dini və dinləri qəbul etməyənlərin fikir istiqaməti və meylləri ilə əlaqəli şübhələr istisna olmaqla, adətən onların dini və dinləri inkar barədə şübhələri digər din inkarçılarının şübhələri ilə üst-üstə düşür. Deistlərin dini və dinləri inkar etməsinə baxmayaraq, ateistlərlə müqayisədə onların halları bir az fərqli ola bilir. Onların haqqa qayırması, dönməsi barədə ümidlər böyük olmasa da, az da deyildir. Çünki, onları şəriətin və dinin inkarına aparan faktorlar analiz edildiyi zaman bunların bir deyil,

---

əsaslara söykənərək ruhu qəbul etməz, onlardan bəziləri isə reinkarnasiyaya inanmazdılar. Bu da onların "təcrübi elmi" mütləq mənada həqiqət meyarı kimi qəbul etmədiklərinin göstəricisidir. Zahirən bütün məsələlərdə müasir elmə əsaslandıqlarını iddia etsələr də, belə görünür ki, onlar da bəzi məsələlərdə müasir elmin aciz olduğunu qəbul ediblər.

bir çox "şübhələr toplusundan" ibarət olduğunu müşahidə edə bilərik. Buna görə də deistlərdən dinə qayıdanların özləri və ya yaxınları tərəfindən onları narahat edən şübhələr aydınlaşdırılmalı və bu sahədə elmi olan şəxslər tərəfindən cavablandırılmalıdır. Bilən deyildikdə isə məlumatlı şəxslər deyil, işin içində olan və ya ixtisaslaşmış ilahiyyatçılar qəsd olunur. Hətta hər ilahiyyatçı da deistlərə bu məsələləri qaneedici şəkildə izah etməyə qadir olmaya bilər. Məhz buna görə seçim doğru edilməlidir.

**Konkret mövzuya gəldikdə isə,** *gəlin deistlərin ən çox irəli sürdükləri şübhələrdən bəzilərini sadalayaq; bəzi dinlərin şumerlərdən gəlməsi, peyğəmbərlərin sadəcə öz dövrlərinin ideoloqları olması, Muhəmməd peyğəmbərin* ﷺ *şəxsiyyəti və çoxevliliyi barədə şübhələr, Aişə (Allah ondan razı olsun) ilə evliliyi, İslamda qadın mövzusu, miras, çoxevlilik, kişinin evdə liderliyi, dinin qılınc gücünə yayılması şübhəsi, quldarlıq mövzusu və s. Qeyd edək ki, bu şübhələrin hər birinə ayrı-ayrılıqda cavab verilmişdir. Bu mövzulardan dəfələrlə bəhs_edilmişdir. Sadalanan şübhələr demək olar ki, şablon şübhələrdən ibarətdir* [14].

## Deist-ateist yaxınlığı və uzaqlığı

Deistlər ateistlərlə fərqli cəhətlərinin olduğunu iddia etsələr də, bu cəhətlər elə də çox deyil. Dindar bir kəs

[14] Deistlər şərqşünasların irəli sürdüyü şübhələrdən də geniş şəkildə istifadə edirlər.

üçün isə bu fərqlərin çoxluğu elə də əhəmiyyət kəsb etmir. Çünki, nəticə etibarilə bu qrupların hər ikisi İslama qarşıdır.
Hər iki tərəf də İslama qarşı mübarizə aparmaqda və küfr bataqlığında batmaqdadır. Labüd olan da elə budur. Ateistlərdən fərqli olaraq deizmin kökü fəlsəfəyə bağlı olduğu üçün, deistlər daha çox fəlsəfəyə müraciət edirlər.

Ateistlə deistin dinə və dindarlara qarşı fəaliyyətində də bəzi fərqlər ola bilər. Lakin bu nisbidir. Ölkəmizdə deistlər özlərini daha çox ateist kimi aparırlar. O baxımdan ki, dinləri inkar edən, dinə qarşı xüsusilə ateistlərin istifadə etdiyi şübhələrdən istifadə edən deist bir müsəlman üçün dinsiz hökmündədir. Hər iki tayfa dinə qarşı təxminən eyni nifrət dolu hissləri bəsləyir və hər ikisinin davranışları din düşməni olmaqdan başqa bir şey deyildir. Buna görə də deistlər və ateistlər arasındakı fərqlər barədə məlum olanlardan savayı digər fərqlərdən danışıb mövzunu uzatmaq istəmirik. Mövzunun bu qismində deistlərin içində formalaşmış xüsusi fikir sahiblərini qabartmaq məqsədəuyğun olardı. Sosial şəbəkələrdə, xüsusən də ateist və deistlərdən ibarət qrup və səhifələrdə tez-tez rastlaşdığımız fikir sahiblərindən danışacağıq.

Araşdırmalar zamanı azərbaycanlılarda və türkəsilli digər xalqlarda **"tenqriçilik"**[15] və ya **"Göy tanrı"** dininə

---

[15] Çox təəssüflər olsun ki, ateist və deistlər tərəfindən türklərin "Tenqriçilik" inancının yanlış bir şəkildə və mütləq mənada

inancla bağlı deizm fəlsəfəsinin təbliğatının şahidi oluruq. Onlar deistlər arasında özlərinə müəyyən qədər tərəfdar da toplaya biliblər.

Bu fəlsəfi cərəyan hazırda türk irqçiliyini önə çəksə də, əslində dinsizliyi və deizmi təbliğ edir. "Türkün tanrısı" dedikdə isə, "Ərəbin dini" adlandırdıqları İslam dinini inkar edir və bir növ irqçiliyə bağlanırlar. Ümid edirik ki, türk millətlərinin birliyinə və vahid "Turan" dövlətinin qurulmasına çağırış edənlərin hamısı bu cür düşünmür. Türk ola-ola Allahı qəbul etməyi özünə sığışdırmayan bəzi radikal irqçilər məsələyə bir növ bütpərəstlik şüuruyla yanaşır, qədim türklərin inandığı “səma tanrısını” “Allah” adlandırmağı da doğru hesab etmirlər. Bəziləri isə hətta danışıq zamanı Allah sözünü “tenqri” sözü ilə əvəz edir, Quranda adı keçən bütün peyğəmbərləri inkar edərək onları "İbrani peyğəmbərləri" adlandırır və istehza edirlər. Allaha bu cür inanmaq da eynilə deistlərin hədəfsizlik inancına bənzəyir. Öz dinsizliklərini "millətçilik və vətən sevgisi" adı altında pərdələyən bu tip insanlar müsəlmanların səmimi vətən sevgisinə çata bilmir və əslində tenqriçiliyi dinsizlik üçün bir vasitə kimi istifadə edirlər. Sadəcə olaraq məsələdən

---

deizmə xidmət etdiyi bir çox insanlara təbliğ edilmiş və edilməkdədir. Ümid edirəm ki, bu barədə daha geniş araşdırmalar ediləcək və bu fikirlərin doğru olmadığı daha geniş kütlələrə çatdırılacaqdır. Bu barədə faydalı araşdırmalardan biri də Bəxtiyar Tuncayın «Zərdüştlük, Tenqriçilik, (Tanrıçılıq) Şamanizm» adlı araşdırmasıdır. Hansı ki, o bu araşdırmasında Tenqriçiliyin əsasının Nuh peyğəmbər tərəfindən qoyulduğunu göstərir. Onun bu barədə sözləri qarşıda veriləcəkdir.

agah olmayan sadə insanları guya türklərin tanrısına inanırmış kimi bir təsəvvürlə aldadırlar. Tutaq ki, onlar həqiqətən belə bir qüvvənin varlığına inanırlar. Lakin bu inancda mövcud olan boşluqlar, hədəfsizlik onların gecə-gündüz din əleyhinə propoqandist fəaliyyətlərindən, deistik təbliğatlarından bəlli olur. Kainata təsiri olmayan bir ilahi qüvvəyə inanc, varlığı yoxluq kimi olan bir tenqri bu deistlərə necə kömək edəcək? Görəsən onlar "Biz türkük, bizim Allahımız yox, tenqrimiz var, Qurandakı Allah bizim tenqrimiz (tanrımız) deyil" dedikdə İslamdan əvvəl Məkkədə hər biri öz bütünə ibadət edən müşrik qəbilələrindən nə fərqləri olur?! Dərd orasıdır ki, onlar inandıqları tenqriyə ibadət də etmirlər. Bu tenqri etiqadı onları bir şəriətlə təmin etmir, pis əməllərdən çəkindirmir. Bir sözlə tenqriçilik din olmayan bir dindir. Kimsə etiraz edərək desə ki, "qədim tenqriçilərin müəyyən ibadət forması olub, cavab verərik ki: biz hal-hazırda dinsizliyə çağıranlar arasında tenqriyə inananlardan yalnız "tenqriyə inanıram" deməkdən və İslama qarşı fikir müharibəsi aparmaqdan başqa bir şey görmədik. Onları sadəcə deist adlandırmaq kifayət deyil və “deistlərin ən təhlükəliləri” kimi təsnifatlaşdırmaq daha doğrudur. Çünki hal-hazırda tenqriçilər tanrıya iman adı altında dinlə mübarizə aparır, sıravi insanları özlərinə cəlb edərək onları millətçilik, türkçülük ruhuyla deizmə, dinsizliyə dəvət edirlər.

Bu məqamda onu da qeyd edim ki, bəzi tədqiqatçılar tenqriçiliyin heç də deizmlə deyil, məhz monoteizmlə (təkilahlıq) əlaqədar olduğunu irəli sürürlər[16].

Bəzi ateist və deistlər öz çıxışları (nitqləri) və yazılarında "tenqriçilik" və ya "göy tanrı" dinindən sui-istifadə edirlər. Onlar bu dinin guya şəriətdən uzaq bir din olması və deizmə bənzəməsini iddia edir və “dinə inanmaq istəyən qoy belə bir dinə inansın” şəklində ibarələr istifadə edirlər. Təəssüf ki, onlar qədim türklərin təkilahlıq inancı ilə tanışlıqlarını düzgün şəkildə interpretasiya etmir, əksinə, öz mənfəətlərinə uyğun yozurlar.

Deistlərin həyat fəlsəfəsinə nəzər yetirdikdə, onların həyat tərzinin, fikirlərinin ateistlərdən elə də fərqlənmədiyi müşahidə edilir. Xüsusən də İslam dinini ədəbsiz şəkildə tənqid və təhqir edərək elmilikdən uzaqlıq nümayiş etdirmələri və gülünc elmi misallar vermələri ateistlərlə oxşarlıqlarına açıq-aydın şəkildə dəlalət edir. Bir misal da gətirim: məsələn, sosial şəbəkələrdə bir deistin bu məzmunda status paylaşdığının şahidi olmuşam: “Qütblərdəki bütün buzlaqlar ərisəydi, okean suyunun səviyyəsi yalnız 70 metr yüksələrdi”. Daha sonra o, bu iddiasının Nuh peyğəmbər haqqında rəvayətin məntiqsiz olduğunun göstəricisi olduğunu bildirir. Diqqət yetirin ki, bu şəxs buzlaqların əriməsindən danışır. Halbuki, Nuhun tufanı hadisəsində "buz əriməsindən" deyil, tufandan bəhs

[16] Bax: Məqalə: “Zərdüştlük, Tenqriçilik, (Tanrıçılıq) Şamanizm”, Bəxtiyar Tuncay, 47-ci abzas. Məqalə müəllifi qeyd edir ki: "Türklərin böyük əksəriyyətinin sitayiş etdikləri Göy Tanrı dininin əsasının Həzrəti Nuh əleyhissəlam tərəfindən qoyulduğu heç bir şübhə oyatmır. Hər halda həm Tövrat, həm İncil, həm də Qurani-Kərim bu şəxsin Tanrı elçisi olduğunu və Tövhid dinini, yəni təktanrıçılığı təbliğ etdiyini təsdiq etməkdədir”.

edilir. Quranda yazılanlardan xəbərsiz olan deist səhifə admini yuxudan oyanarkən ağlına gələn bir fikri öz səhifəsində yazır və dediklərini əsaslandırmaq üçün əziyyət çəkib Qurana baxmağa ərinir. İkinci məqam isə budur ki, ümumiyyətlə tufanın yalnız Nuhun qövmünü, yəni onun peyğəmbərliyini inkar edənləri əhatə etməsi, yoxsa, bütün dünyanı əhatə etməsi elm əhli arasında ixtilaflı mövzulardandır. İstənilən halda, Allah hər ikisinə Qadirdir. Birinci ehtimalın baş verməsi üçün daha az suya ehtiyac olur və yalnız tufan baş verən məkanda yaşayan inkarçılar su altında qalır. İkinci ehtimalda isə bütün dünya su altında qalır ki, bunu da Allah böyük bir tufanla etməyə Qadirdir. Əslində dünyanın yoxdan yaranması bütün elmlərin hüdudlarını aşan böyük bir möcüzədir və Allah bu möcüzəyə Qadirdir. Deistlər dünyanı yoxdan yaradan qüvvənin qüdrətinə inanır və bu ən böyük möcüzənin təsadüf nəticəsində yox, məhz Allahın yaratması səbəbi ilə ortaya çıxmasını qəbul edirlər. Bu isə onların Nuhun tufanından daha böyük bir möcüzəni qəbul etdiklərinə dəlalət edir. Deistlərin bu və buna bənzər digər ziddiyyətli iddialar irəli sürməsi tez-tez müşahidə olunur.

## Deizmin bütpərəstliklə əlaqəsi

Bəzi tədqiqatçılar haqlı olaraq deizmin kökünü bütpərəstliklə əlaqələndirirlər. Bu bənzətmə özünü, haşa, Yaradanın peyğəmbərə, vəhyə ehtiyacı olmadan kainata və bəşəriyyətə birbaşa təsiri olması iddiasında büruzə verir. Deistlərdən bəziləri bu bənzətməni qəbul edə, bəziləri isə etməyə bilər.

Bu sahənin mütəxəssislərdən olan, fəlsəfə və ateizm mövzuları üzrə tədqiqatçı Riyad Sidqi deistlər haqda qələmə aldığı məqalədə yazır: “Yaradana deistlər kimi inanmaq, qədim zamanlarda mövcud olmuş bütpərəstlikdən başqa bir şey deyildir. Eynilə Brahmanların və ya Hinduistlərin (Hinduizm) dini kimi. Ona görə ki, bu dinlər peyğəmbərliyi inkar edir və inanırlar ki, Yaradanla rabitə peyğəmbər və ya elçiyə ehtiyac olmadan icra olunur. Azacıq (tarixə) geri dönsək Qureyş müşriklərinin (bütpərəstlərinin) də Yaradana inandığını, lakin peyğəmbərliyi, vəhyi və inandıqları tək Yaradanın ilahlığını (ibadətə layiq tək məbud olmasını) inkar etdiyini görərik. Yəni onlar tək Yaradanın varlığını təsdiqləyirdilər. (Bütpərəst) Əbu Cəhl ola bilsin ki, Lata və Üzzaya ibadət edirdi, müasir dinsiz insan isə yalnız öz ağlına ibadət edir[17].

## Deistlərə sözümüz var

Sizi həqiqi Yaradanı tanımağa dəvət edirik! Gəlin dinlə bağlı küskünlüyünüzü, psixoloji məqamları bir kənara qoyun. Din barədə kənardan məlumatlanmağa son verin. Çünki dini bilik səviyyəniz sizə İslamı daxildən öyrənməyə imkan vermir. Dini ya emosional şübhələriniz əsasında araşdırmısınız, yaxud da xurafatçıların - dinin adından danışıb onun əhli olmayan mövhumatçıların əməlləri sizə "din” olaraq görünüb. Lakin, ateistlər və siz

---

[17] “Deizmin əsaslarının tənqidi” məqaləsi, Riyad Sidqi (ərəbcə), 12-ci abzas.

deistlər xurafatçı dindarların din adı altında etdiklərinin İslamın iki mötəbər mənbəsinə əsaslanmadığını, bu mövhumatların dinin əslinə zidd olduğunu bilsəniz, digər dinlərin niyə batil, İslamın niyə haqq olduğunu öyrənsəniz, fikirləriniz həqiqətən dəyişəcək. Allah bu kainatı yaratmış və onu başlı-başına buraxmamışdır. Bu yaradılışın mütləq şəkildə bir qayəsi vardır. Quranda bildirildiyi kimi:

“Yoxsa elə hesab edirdiniz ki, sizi əbəs yerə yaratmışıq və siz heç vaxt Bizə qaytarılmayacaqsınız?”[18]. İbn Kəsir (Allah ona rəhmət etsin) bu ayənin mənası haqqında demişdir: “Məgər siz elə bilirsiniz ki, əbəs yerə, bir məqsəd olmadan, sizin istəyiniz və Bizim hikmətimiz olmadan yaradılmısınız? (Elə düşünürsünüz ki) Bizə qaytarılmayacaqsınız?”[19].

Deistlərə sual veririk: bir insan kimi mövcudluğumuzun əsl məqsədi barədə heç düşünmüsünüzmü?

Başqa bir ayədə isə deistlərin peyğəmbərləri və vəhyi inkar etmələrinə işarə edilir: “Onlar: “Allah insana heç bir şey nazil etməmişdir”– deməklə Allahı layiqincə qiymətləndirmədilər”[20]. Muhəmməd peyğəmbərin ﷺ zamanında da belə insanlar yaşayıb. Onların əksəriyyəti İslamı sonradan qəbul edib. Quranda bildirildiyi kimi, onlar məhz belə deyirdilər:

---

[18] “Muminun” surəsi, 115.
[19] İbn Kəsir, "Təfsirul-Quranil-Azim", 5/500.
[20] “Ənam” surəsi, 91.

“Onlar dedilər: “Həyat ancaq bizim dünya həyatımızdır. Kimimiz ölür, kimimiz də doğulur. Bizi öldürən ancaq zamandır”. Bu haqda onların heç bir biliyi yoxdur. Onlar ancaq zənnə qapılırlar”[21].

Nə qədər inkar edirsinizsə edin, onsuz da hədəfsiz inkarın sonunda yenə də öləcəksiniz. Müsəlmanları heç bir təhlükə gözləmir, amma bu düşüncələrlə ölsəniz, sizi təhlükə gözləyir. Əmin olmadığınız bir şübhəyə görə özünüzü məhv edirsiniz!

Uca Allah Qurani-Kərimdə buyurmuşdur: “De: “Qaçdığınız ölüm sizi mütləq haqlayacaqdır. Sonra siz qeybi və aşkarı Bilənin hüzuruna qaytarılacaqsınız. O da sizə nə etdiklərinizi xəbər verəcəkdir”[22].

Hələ ki, gec deyil, bu barədə düşünmək lazımdır:

“Nəhayət, onlardan birinə ölüm gəldiyi zaman deyər: “Ey Rəbbim! Məni geri qaytar. Bəlkə, tərk etdiyim yaxşı əməlləri indi edəm”. Xeyr! Onun bu dedikləri ancaq boş bir sözdür. Onların arxasında diriləcəkləri günə qədər bərzəx həyatı vardır”[23].

---

[21] “əl-Casiyə” surəsi, 24.
[22] “əl-Cümə” surəsi, 8.
[23] “əl-Muminun” surəsi, 99-100.

## Əgər Allahın məxluqatı yaratmağa ehtiyacı yox idisə, onda onları niyə yaradıb?

Kainatdakı dəqiq nizamlar kamilliyə dəlalət edir. Deməli onu yaradanın daha kamil olmasını düşünmək daha məntiqlidir. Çünki sənət sənətkara dəlalət etdiyi kimi, yaradılış da Yaradana dəlalət edir. Kainatdakı nizam-intizamın mükəmməlliyinə gəldikdə isə, sadəcə günəşlə yer kürəsi arasında olan məsafənin nə dərəcədə dəqiq qurulduğuna nəzər yetirmək kifayətdir; günəş yerə azacıq yaxın olsaydı, dünya qızmar istidən məhv olar, yerdən azacıq uzaq olsaydı, bəşəriyyət soyuqdan donardı.

Bunları dərk etdikdə, kamil sifətlərin mütləq olaraq Allaha məxsus olduğunu anlayırıq. Bu kamilliyin əlamətlərindən biri də Allahın məxluqatı yaratması və bu kamillik sifətlərini Öz yaratdıqlarında da təcəlli etdirməsidir. Yəni əgər "Yaratmaq" sifəti yaratmağı gərəkdirirsə, o zaman "Rəhmət" sifəti rəhmli olmağı, "Bəxş etmək" sifəti isə bəxş etməyi gərəkdirir. "Əgər yaradılmışlar (məxluqat) olmasaydı, Allah kimə Rəhm edəcəkdi? Əgər ruzi istəyən olmasaydı, Allah kimə Ruzi verəcəkdi? Əgər bağışlanma diləyən olmasaydı, Allah kimi bağışlayacaqdı? Əgər əfv istəyən olmasaydı, Allah kimi əfv edəcəkdi? Allahın ism və sifətləri də bu mənanı özündə ehtiva edir[24]".

---

[24] "Liməzə Nəhnu hunə?" (ərəbcə), ("Biz nə üçün buradayıq?") İsmayıl Arafa, səh. 104.

Allahın gözəl ad və sifətləri yaradılmışlarda bu cür təcəlli edir. Allahın Öz sifətlərini məxluqata bu cür izhar etməsi həmin sifətlərin əlamətlərinin, izlərinin görünməsini labüd edir. Bu o demək deyil ki, Allahın buna ehtiyacı var. Günəş öz işığını ətrafa saçdığı zaman bunu ətrafındakıların ehtiyacı olduğu üçün etmədiyi kimi, Allahın da yaradılmışlara (məxluqlara) ehtiyacı olmadan Öz kamilliyinin əlamət və izlərini onlara aşkar etməsi ziddiyyət təşkil etmir.

"Səaləbi" ləqəbi ilə tanınan təfsir alimi Əhməd ibn Muhamməd ibn İbrahim Əbu İshaq ən-Nisaburinin təfsirində yer alan və Cəfər əs-Sadiqə nisbət olunan ifadədə Allahın əbəs yerə yaratmaması barədə deyilir: “Allah istədi ki, Öz yaxşılığı insanlara da sirayət etsin. Allah onlara möhtac deyildi. Onları hər hansı bir mənfəət əldə etmək və ya hər hansı bir zərəri aradan qaldırmaq üçün yaratmadı. Lakin onları yaratdı, onlara yaxşılıq etdi, onlara elçilər göndərdi ki, haqla batili ayırd etsinlər. Kim yaxşılardan olarsa, onu cənnətlə mükafatlandıracaq, kim də asilərdən olarsa, onu cəhənnəm əhlindən edəcək”[25].

Sonra isə Allah insanı yer üzünün canişinini etdi. İnsan ağıl, azad iradə və seçim sahibi olaraq ən böyük əmanəti öz çiyinlərinə yükləndi. Allaha itaət əmanətini dağlar deyil, insan yükləndi.

---

[25] “Kəmilətul-Kəvari, Qidəmil-Aləm və təsəlsulul-Həvadis beynə ibn Teymiyyə və Fələsifə”, Dər Usəmə, Oman, 2001, səh. 151.

## İnsan fitrətində (yaradılışında) dini hislərin mövcudluğu

İnsanın fitrəti haqqında Qurani-Kərimdə buyurulur: "Sən bir hənif kimi üzünü dinə tərəf çevir! Allahın insanlara – xəlq etdiyi şüurlu məxluq kimi verdiyi fitrət budur"[26].

Bu barədə elmi araşdırmalar da həyata keçirilmişdir; misal olaraq "Oxford" universitetinin professoru Conatan A. Lanman tərəfindən həyata keçirilmiş araşdırmaları qeyd etmək olar. "Oxford" universitetinin psixologiya üzrə tədqiqatçısı Olivera Petroviçin araşdırmaları da bu faktı təsdiqləyir. Din Hamer isə insan bədənində "ilahi genlər" aşkarlamış və "The God Gene: How Faith Is Hardwired into Our Genes" kitabında bu mövzu barədə ətraflı bəhs aparmış, insanların xarici təsirlərin müdaxiləsi olmadan ateizmə deyil, dinə meyl etdiklərini isbatlamışdır. 2008-ci ilin noyabr ayında Britaniyada nəşr edilən "The Telegraph" qəzetində Castin Barretin "Children are born believers in God" (tərcüməsi: "Uşaqlar Allah inancı ilə doğulurlar") adlı akademik araşdırmalarının nəticələri dərc olunmuşdur[27].

İnsan kənardan heç bir təsir olmadan özü dinə meyillənir. 2011-ci ildə CNN kanalının yaydığı məlumata əsasən, professor Rocer Triqqin rəhbərliyi altında 57

---

[26] "ər-Rum" surəsi, 30.

[27] Məqalə: "İnsan fitrətində Allahın varlığına dəlillər", Zeyd Övladzəyan. Yaqeen Center, www.yaqeen.com saytı. Daxil olma tarixi: 2020/06/25.

tədqiqatçının iştirakı ilə 20-dən çox ölkə vətəndaşı üzərində araşdırmalar həyata keçirilmişdir. 3 il boyunca davam etmiş tədqiqat, təcrübə və təhlillər nəticəsində alimlərin gəldiyi qənaətə əsasən insanlar Allaha, ölümdən sonrakı həyata inanmağa meyllidirlər. Bu araşdırmaların həyata keçirilməsi üçün 1,9 milyon funt sterlinq pul sərf edilmişdir[28]. Bu cür misalların sayı çox olsa da, bircə misalla kifayətlənməyi məqsədəuyğun görürəm.

**Allah səni yaradıb və buyurub ki, dünyada istədiyini etməkdə azadsan:** istəsən mömin ol, istəsən kafir - seçim sənindir, lakin o dünyada səninlə bu seçiminə müvafiq şəkildə rəftar olunacaq.

**“De: “Haqq Rəbbiniz tərəfindəndir. Kim istəyir inansın, kim də istəyir inanmasın”[29].**

Ayənin davamında isə Allah Ona inanmayanlara əzab vəd edir.

Yer kürəsində yaşayan insanların əksəriyyəti dua edərək Allaha yönəlir və dua etdikləri varlığı hər şeyə Qadir, Əzəmətli hesab edirlər. Deistlər isə Yaradan hesab etdikləri varlığa dua etməyə ehtiyac görmürlər.

---

[28] Öncəki mənbə.
[29] “əl-Kəhf” surəsi, 29

## Kainata İlahi qayğı barədə

Ey Yaradanı qəbul edib Onun kainatı nəzarətsiz və diqqətsiz qoyduğunu iddia edən kimsə! Məgər sən dünyanın müxtəlif qisimlərinin bir-birilə necə sıx əlaqədə və təmasda olduğunu görmürsən? Hər şeyin necə dəqiq və nizamlı olduğu barədə düşünmürsən? Düşünsən, bütün bunları Yaradanın qüdrətinin, elminin kamilliyinin, hikmətinin, lütfünün gözəlliyinin, bütün dünyaya necə diqqət göstərdiyinin aydın dəlillərini görərsən! Çünki bu diqqət dünyadakı bütün canlılara qarşı mövcuddur, Yaradanın elmi isə dünyanın hər yerini əhatə etmişdir.

“Qeybin açarları Onun yanındadır, Onları yalnız O bilir. O, quruda və dənizdə nələr olduğunu bilir. Onun xəbəri olmadan yerə düşən bir yarpaq belə yoxdur. Yerin qaranlıqlarında elə bir toxum, elə bir yaş və elə bir quru şey yoxdur ki, açıq-aydın Yazıda (Lövhi-Məhfuzda) olmasın”[30].

Digər bir ayədə isə Allah buyurmuşdur:
“Allah sizi torpaqdan, sonra nütfədən yaratmış, sonra da sizi cütləşdirmişdir. Onun xəbəri olmadan heç bir dişi nə hamilə olar, nə də daşıdığını yerə qoya bilər. Uzunömürlünün uzun ömür sürməsi də, onun ömrünün qısaldılması da ancaq Yazıda (Lövhi-məhfuzda) yazılmışdır. Həqiqətən, bu, Allah üçün çox asandır”[31].

---

30 “Ənam” surəsi, 59.
31 “Fatir” surəsi, 11.

Heyvanların, bitkilərin, dənizlərin, göllərin, çayların və digər təbii təzahürlərin möhtəşəm funksiyalar yerinə yetirməsi, təbiətdəki ünsürlərin bir-birilə sıx təmasda olması, bir-birini mükəmməl şəkildə tamamlaması, minlərlə sayda otyeyən, ətyeyən heyvan növləri və hər birinin özünəməxsus qidalanma, qida tapma və qorunma metodları dünyanın necə mükəmməl bir diqqət qayğı və nəzarət altında olduğundan xəbər verir.
"Biz göyləri, yeri və onların arasında olanları yalnız haqq olaraq yaratdıq"[32].
İnsan dünyada onun xeyri üçün ram edilmiş və özündə bir çox faydalar ehtiva edən təfsilatlar barədə düşünsə, bu ona aydın bir dəlil olaraq yetər. Beləcə insan dünyanın əbəs yerə mövcud olmadığını dərk edər və anlayar ki, dünya məqsədsiz şəkildə dövran etmir. İnsan bilər ki, hər şeydən Xəbərdar olan, insanları başıboş buraxmayan bir Allah vardır və Onun Öz qullarından cüzi itaət tələb etməsi qeyri-adi bir şey deyil.

Günəş bu nəhəng kainatın parçalarından biridir. Məhz günəş səbəbilə yer üzündə temperatur həyatın mövcudluğu üçün münasib dərəcədə olur. Yəni insanların, bitkilərin və heyvanların öz varlığını davam etdirə bilməsi üçün münasib temperatur günəş sayəsində təmin olunur. Bu cür məsələlərə diqqət edən kimsə sadəcə günəşə nəzər yetirərək Allahın yaradılmışlara necə kamil şəkildə inayət və diqqət göstərdiyinin şahidi ola bilər. Günəş yerə yaxın olsa,

[32] "əl-Hicr" surəsi, 85

istiliyi yerdəki canlıları həlak edərdi və həyat mümkünsüz olardı. Əgər günəş bir az yer üzündən uzaq olsaydı, bu zaman da yer üzündəki canlılar soyuqdan həlak olardı.

Həmçinin yerin oxunun daim planetin hərəkət etdiyi orbit müstəvisinə 33° bucaq altında meyl etməsi nəticəsində fəsillər əmələ gəlir. Əgər bu meyllilik dərəcəsi fərqli olsaydı, yer üzü qütblərin qaranlığına bürünər, dənizlərin buxarı yalnız şimal və cənub qütbləri istiqamətində hərəkət edər, yer üzünün landşaftı isə buzlaqlarla örtülü dağlardan və çöllü-biyaban səhralardan ibarət olardı.

Həmçinin, alimlər yer kürəsində müdhiş bir müvazinətin hökm sürdüyünü isbat ediblər. Əgər yer planeti indiki həcmindən bir az böyük və ya bir az kiçik olsaydı, yerdə həyat mümkün olmazdı.

Günəşin çıxması və batması nəticəsində ərsəyə gələn təbii proseslərdən biri də gecə və gündüzdür. Gecə və gündüzün davamlı şəkildə bir-birini əvəzləməsi Allahın ən ecazkar nişanələrindən və əsrarəngiz yaradılış əsərlərindən biridir. Necə ki, Qurani-Kərimdə Allah buyurmuşdur: “Gecə və gündüz, günəş və ay Onun dəlillərindəndir. Əgər siz Ona ibadət edirsinizsə, onda günəşə və aya səcdə etməyin, onları yaradan Allaha səcdə edin”[33].

[33] “Fussilət” surəsi, 37.

Əgər Allah günəşi müəyyən intizamla hərəkət etdirib həyatın ərsəyə gəlməsi üçün ona gərəkli istiliyi, yerlə arasındakı müvafiq məsafəni təyin etməsəydi, onun hərəkətini ram etməsəydi, yer üzündə mövcudluğumuz mümkün olmaz, həyat dayanardı. Əgər bu qanunauyğunluq pozulsa, insanların dünyanı görməsinə imkan verən işıq olmazsa, onlar necə hərəkət edər, necə ruzi əldə edərdilər? Onlar nə zaman işləyər, nə zaman dincələrdilər? Gecə olmasaydı öz qüvvələrini bərpa etmək üçün necə dincələcəkdilər? Beləliklə, günəşin çıxıb batmasıyla gecə və gündüz neməti əmələ gəlir ki, bu da hər şeydən Xəbərdar olan, Bilən Allahın ən böyük nişanələrindəndir. Səhərlər günəş insanların öz işlərini görmələri üçün böyük bir çıraq funksiyasını yerinə yetirir. Gecə düşdükdə isə, insanlar dincəlir. Allah insanlara öz diqqəti, inayəti barədə bildirmiş və bəyan etmişdir ki, gündüzün bu cür hikmətli şəkildə davamlılığı Onun əmri, təqdiri, istəyi və iradəsi ilə baş verir: “De: “Bir deyin görək, əgər Allah gecəni üstünüzdə Qiyamətə qədər uzatsa, Allahdan başqa hansı məbud sizə bir işıq gətirə bilər? Məgər siz eşitmirsiniz?”[34].

“De: “Bir deyin görək, əgər Allah gündüzü üstünüzdə qiyamətə qədər uzatsa, Allahdan başqa hansı məbud dincəldiyiniz gecəni sizə gətirə bilər? Məgər siz görmürsünüz?”[35].

---

[34] “Qasas” sursəsi, 71.
[35] "Qasas" surəsi, 72.

“O, Öz mərhəməti ilə sizin üçün gecəni və gündüzü yaratdı ki, dincələsiniz və Onun lütfündən ruzi axtarasınız. Bəlkə, şükür edəsiniz”[36].

Allah göylərin və yerin Qəyyumudur. Göylər və yer yalnız Allahın köməyi ilə sabit dayanır və davamlılıq göstərir: “Həqiqətən, Allah göyləri və yeri tərpənməsinlər deyə, tutub saxlayır. Əgər tərpənsələr, Ondan başqa onları heç kəs tutub saxlaya bilməz. Həqiqətən də, O, Həlimdir, Bağışlayandır”[37].

İnsanın öz yaradılışı əslində Allahın deistlərə və ateistlərə çatdırdığı ən böyük ismarıclardan biridir. Uca Allah Qurani-Kərimdə buyurmuşdur:

Yerin atmosfer qatı ilə əlaqəli təfsilatlara nəzər yetirsək, möhtəşəm bir nizam-intizamın və incəliklərin şahidi olarıq. Bütün bu əzəmətli hadisələrin necə dəqiqliklə baş verdiyini, necə incəliklə nizamlanan qanunlara tabe olduğunu müşahidə edən bir deist nəzarətsiz qaldığını, ilahi qanunlara tabe olmadan düzgün həyat yaşaya biləcəyini necə iddia edə bilər?

Bu barədə yüzlərlə misal çəkmək olar. Sadaladıqlarımız yer üzərində hökm sürən möhtəşəm nizam-intizam və ilahi qayğıya dair misallardan cəmi bir neçəsidir və bunlarla kifayətlənirik.

---

[36] “Qasas" surəsi”, 73.
[37] “Fatir surəsi”, 41.

## Deistin  qəzavü-qədər haqda bəzi şübhələri

Qəzavü-qədərə iman İslam dinində imanın 6 şərtindən biridir. Deistlər bu məsələdə çaşqınlığa düşür: bəziləri etdikləri günahlara öz talelərini bəhanə_gətirərək "Allah mənim bunu etməyimi istəyib deyə mən belə edirəm. Elə isə mən niyə günahkar sayılmalıyam ki?" deyir. Bəziləri isə "Mən bu taleni yaşamağa məcburamsa, deməli bu həyatı mən yaşamıram" kimi absurd iddialar irəli sürür. Beləliklə ortaya atılan 2 şübhənin şahidi olduq. Gəlin bu şübhələrə bir-bir cavab verək:

**Deist deyir ki**: "Allah mənim bunu etməyimi istəyib deyə mən belə edirəm" - ilk öncə bu şübhəyə cavab verək:

Birindən soruşduqda ki, "Niyə siqaret çəkirsən?"
Deyir: - "Allah belə istəyib".
Deyirsən: - "Niyə narkotikə qurşanmısan"?
Deyir: - Allah belə istəyib".
Deyirsən: - "Niyə zina edirsən?"
Deyir: - "Allah belə istəyib".
Deyirsən: - "Niyə namaz qılmırsan?"
Deyir: - "Allah istəsə məni hidayət edər".
Bu cür düşünmək doğru deyil və alimlərin yekdil rəyinə görə bu cür düşünmək və bu sözləri dilə gətirmək günah və haram bir əməldir. Üstəlik bu, Yaradan Allaha iftira atmaqdır. Allah öz qullarının itaətini sevir, itaətdən razı qalır, çünki O, insanlara məhz itaəti əmr etmişdir və Ona ibadət edilməsini sevir. Həmçinin Allah öz dinində itaəti qanun etmişdir. Kimsə Allahın hər hansı bir insanın taleyinə pis əməlləri yazıb, xeyir əməlləri yazmadığını

iddia edərsə, bu, yalnış olar. Çünki qədər, tale mövzusu insanlara gizli qalan bir sirdir. İnsanlar hadisələr baş verdikcə, həyat yaşandıqca öz qədərlərinin, talelərinin şahidi olurlar. Lakin hər baş verən hadisə məcburi olmur. Əslində insan həyatının mühüm seçimlərini özü seçir. Məsələn, Uca Allah buyurur: “De: “Haqq Rəbbiniz tərəfindəndir. Kim istəyir inansın, kim də istəyir inanmasın (kafir olsun)”[38].

Yəni hadisələr baş verdikdən sonra tale bəlli olur. İnsanın bir işi görmək iradəsi və istəyi onun feili görməsini üstələyir. Bu səbəbdən də insanın iradəsi Allahın taleləri bilməsi, qəzavü-qədər haqda elmini üstələyə bilməz, bu elmin fövqünə keçə bilməz. Odur ki, bu iddia rədd olunur və bu mövzuda höcətləşmək batildir. Çünki əks halda bu, qeyb elmini bildiyini iddia etməkdir. Qeybi (gələcəkdə baş verəcək hadisələr və ya gözlə görülməyən aləm) bilən isə yalnız Allahdır.

“Şərhu Aqidətut-Tahaviyyə” kitabında deyilir: “Bəndə öz feilini həqiqətən özü edir. Onun bunu etməyə həqiqi gücü var. Uca Allah Qurani-Kərimdə buyurmuşdur: “Siz nə yaxşılıq edirsinizsə, şübhəsiz ki, Allah onu bilir” (“əl-Bəqərə”, 215). “Elə isə onların etdikləri əməllərə görə kədərlənmə”[39].

---

[38] “əl-Kəhf” surəsi, 29.
[39] “Hud” surəsi, 36.

İnsanın öz hərəkətlərin həqiqi səbəbkarı olmasını aydınlaşdırdıq. Bundan sonra isə qeyd etmək lazımdır ki, insanın feilləri iki növdür:

a) Onun gücü və iradəsinə bağlı olmadan ona nisbət olan növ. Bu halda həmin feil onun üçün feil deyil, sifət olur; məsələn, titrəmə hərəkətləri kimi.
b) O növ ki, onun gücünü və ixtiyarını (seçimini) meydana gətirmək baxımından ona nisbət olur. Bu isə onun sifəti, feili və qazancı olaraq onda vəsf edilir. Buna ixtiyari hərəkətləri misal çəkmək olar. İnsana öz fellərini seçərək etmək qabiliyyətini də Allah verib. Allah bunu etməyə Qadirdir. Ona görə də İslam alimləri “insanın öz hərəkətlərini etməkdə məcbur olması" fikrini inkar ediblər. Çünki məcburi hərəkət yalnız aciz qalan və təhlükəyə məruz qoyularaq nəyəsə vadar edilən insan tərəfindən edilə bilər[(40)].

Valideynlərin ağlı kəsməyən, anlamayan uşağa etdikləri yaxşılıqlar kiməsə görə məcburi səciyyə daşıya bilər. Lakin uşaq yemək yeməsə zəifləyəcək, yeməkdən imtina etsə öləcək, iynəni sevməsə də şiddətli xəstəlik zamanı ona iynə vurdurmaq və ya dərman içməyə məcbur etmək onun xeyrinədir. Bu misallar böyük insanlara da aiddir. Şəfası bir dərmanda olan insanın o dərmanı sevmədən və ya məcburi şəkildə qəbul etməsi onun həyatda qalması üçün yeganə yol olarsa, bu məcburiyyət onun üçün faydalı olmuş olur. Bu kəlam

---

40 “Şərhu Aqidətut-Tahaviyyə”, İbn Əbil-İzz, səh 650.

məhz bu səbəbdən deyilib: “Dərmanın acısına dözməyən kimsə şəfanın şirinliyini dada bilməz”[41].

İntihar etmək istəyən insanı məcburi şəkildə xilas etmək də həmin şəxsin xeyrinə olur. Çünki, həmin vəziyyətdə o insan başqa yol görə, öz xeyrini və zərərini düşünə bilmədiyi üçün çıxış yolunu intiharda görür. Odur ki, "məcburiyyət" hesab edilən hallar əslində heç də məcburiyyət deyil.

Allah insanı öz ixtiyarı ilə etdiyi əmələ görə cəzalandırır; Məcburi edilən əmələ görə insana günah yazılmır. Məsələn: insan bir günahı və ya pis əməli təhdid altında işləyərsə və bu təhdid onun həyatı üçün ciddi təhlükə yaradarsa, o insanın bu əməli məcburi etməsinə görə ona əzab düşmür. Lakin insan bu əməli etdikdə ona nifrət bəsləməli və qəlbində onu inkar etməlidir.

Sual verilsə ki: əməli cəzası ilə bərabər yaratmaq zülm deyilmi?! Cavab verilir ki: Allahın şər əməlin varlığına icazə verməsi, Onun həmin əməli sevib razı qalmasına dəlalət etmir. “Əməli yaratdıqda onun cəzasını da əməllə birgə yaratmaq zülm deyilmi?” demək, eynilə bu sözləri deməyə bənzəyir: "Zəhər yeməyi yaratmaq, sonra isə zəhər yeməyin ölümlə nəticələnməsi zülmdür!” Necə ki, zəhər yemək ölümə səbəb olur, pis əməl də cəzaya səbəb olur. Bu iki məsələdə zülm yoxdur. Çünki, Allah zəhər içməyi əmr etmir, insanlar özü zəhəri içir. Əksinə,

---

[41] İbn Qeyyim, "Tibbun-Nəbəvi" (“Peyğəmbər təbabəti”) kitabı.

Allah bədənə zərər verməyi, həyatı təhlükəyə atmağı qadağan edib.

Bununla da aydın olur ki, insanın bir əməli işləməsi özünün seçimi ilə baş verən bir həqiqətdir. Ona görə də pis əməllər əsla Allaha nisbət olunmaz. Allahın dünyadakı yaxşı və pis hallara icazə verməsi şərin Allaha nisbət edilməsinə səbəb ola bilməz. Şər olmasa xeyirin qədri bilinməz, çirkinlik olmasa gözəlliyin qədri bilinməz, mənfi olmasa müsbətin qədri bilinməz, acı olmasa şirin və beləcə onlarla misal çəkmək olar ki, dünyada hər şey qarşılıqlı, nizamlı, böyük hikmətləri özündə cəm edərək yaradılıb.

**Deist yenə soruşur: əgər hər şey artıq yazılıbsa, onda niyə əməl edirik?**

Diqqət yetirin ki, deistlər özlərinin də yaxşı əməllər etdiklərini tez-tez dilə gətirirlər. Çox gözəl. Dinimiz bizə xəbər verir ki, insan etdiyi yaxşılıqların əvəzini bu dünyada alacaq. Lakin bu halda axirətdə bir payınız olmayacaq! Axirətə inanmırsınızsa, nə qədər yaxşılıq etsəniz də, bu yaxşı əməllərə görə axirətdə bir payınız olmaz![42].

İndi isə keçək əsas məsələyə...*deyirsiniz ki, "Əgər əməllərimiz də, günahlarımız da artıq yazılıbsa, onda*

---

[42] Qeyd: "Biz də yaxşılıq edirik, yaxşı insan olmaq üçün dindar olmağa ehtiyac yoxdur" deyən deistlərə və qeyrilərinə kitabın sonlarında ətraflı cavab verilmişdir.

*əməl etməyin nə mənası var ki? Belə çıxır ki, yaşayan biz deyilik?"*

**Cavabında deyirik ki:** deist bu dünyada yaxşılığı özünün etdiyini etiraf edir, yəni yaxşılığı özünə nisbət edir və üstəlik qarşılığında ona bu dünyada təşəkkür edildikdə sevinir. Fərz edin ki, deistə deyilir: “Etdiyin yaxşılıqlara görə səni mükafatlandıracağıq!” Həəə…bəs görəsən, o buna nə deyəcək!? "Bu yaxşı əməli Allah edib” deyəcək, yoxsa özünə nisbət edərək “mən özüm etmişəm?" deyəcək? Əlbəttə ki, yaxşı əməli özünün etdiyini iddia edəcək! Yəni əslində irəli sürdüyü iddiaya özü inanmır və bunu sadəcə olaraq müsəlmanlara bir şübhə kimi atmaq istəyir. Yaxşı, bu incə məqamda belə bir sual yaranır: Bəs niyə ateist etdiyi yaxşılığı özünə nisbət edir və "Bu yaxşılığı onsuz da Allah əvvəlcədən yazıb” demir? Niyə yaxşılığı öz adına yazır? Bəs günaha, pis əmələ gəldikdə niyə onları Allaha nisbət edir? Onlardan “Məgər günah etdikdə, üzərinizdə kiminsə təzyiqini hiss edirsiniz?”, “Bunu etməyə sizi kimsə məcbur edir?” deyə soruşsaq – “xeyr” cavabını alacağıq. Onda fikir verin, bu şəhvani şübhə və şeytani söz oyunu ilə şeytan onları necə aldadıb!

- *Deməli, “onsuz da mənim taleyim artıq yazılıb, əməl etməyin nə faydası” deyən insan böyük bir yalnışa yol verir və bir neçə məsələdən qafil qalır:*

**Birincisi;** O qafildir ki, Allah o qədər əzəmətli və qüdrətlidir ki, onun əvvəlcədən edəcəyi əməlləri bilir və

bunu yazıb. Uca Allah buyurub: "Həqiqətən də, Allah hər şeyi bilir"[43].
"Heç kəs sabah nə qazanacağını bilə bilməz; heç kəs harada öləcəyini də bilməz. Allah isə, şübhəsiz ki, Biləndir, Xəbərdardır"[44].

**İkincisi:** Allah onu hansısa əməli etməyə məcbur etmir.

"Başınıza gələn hər bir müsibət öz əllərinizlə qazandığınız günahlar üzündəndir. Allah günahların çoxunu bağışlayır"[45].

Həyatda əksər şeylər insanın öz ixtiyarındadır. İnsanın nəyi yeyib nəyi içəcəyi, nəyi geyinəcəyi, hara gedəcəyi, kiminlə oturub-duracağı, nəyi oxuyacağı, nəyi dinləyəcəyi, nə vaxt yatacağı və s. kimi bir çox gündəlik işlər öz ixtiyarındadır. Bəzi şeylər isə insanın ixtiyarında deyil. Məsələn, insanın doğulması və ölməsi. İnsan istədiyi vaxt dünyaya gəlmədiyi kimi, öləcəyi vaxtı da bilmir.

**Üçüncüsü:** Allah hər şeyi qədərlə yaratmışdır və bu qəzavü-qədərə iman gətirmək imanın şərtlərindən biridir. İnsan bu dünyada sınaq imtahanındadır və bu dünya əməl dünyasıdır. Allahın bizə əməl etməyə fürsət verməsi də dəlalət edir ki, insan öz xoşbəxtliyinə və bədbəxtliyinə aparan yolları özü seçir və Allah insanı hər

[43] "Ənfal" surəsi, 75.
[44] "Loğman" surəsi, 34.
[45] "Şura" surəsi, 30.

hansı bir yolu seçməyə məcbur etmir. Amma necə olur ki, Allah hər şeyi əvvəlcədən bilir və yazıb? İnsan baş verən hadisələri və ətraf-aləmi öz dərrakəsi çərçivəsində qavrayır. Allah isə hər şeyə Qadirdir. Bu kainatı Yaradan, hər şeyə qadir olan bir qüvvə olmalıdır. Məntiq də bunu təsdiqləyir. İnsan beyni çox şeyi qavramaqda acizdir. Allahı insanla müqayisə etmək olmaz. İnsan zəifdir, Allah isə hər şeyə Qadirdir. Allahın hər şeyi əvvəlcədən bilməsi və yazması da yalnız Ona xas keyfiyyətdir. Məhz bu səbəbdən Yaradanla yaradılan müqayisə oluna bilməz. Məxluqla (yaradılanla) məxluq (yaradılan) müayisə oluna bilər. Allah isə misli-bərabəri olmayan Xaliqdir (Yaradandır). Allah bu barədə Quranda buyurmuşdur: “Onun heç bir bənzəri yoxdur”[46].
Allahın bənzəri yoxdursa, Onun hər şeyi əvvəlcədən bilməsində də bənzəri yoxdur. Onun hər şeyi bilməsi sonsuz Qüdrəti və Əzəmətinə layiqdir. Bənzərsiz, tayı-bərabəri olmayan Allah hər şeyi əvvəlcədən bilməklə kiminsə həyatdakı ixtiyarını və seçim hüququnu əlindən almır.

## Elmin hüdudları hara qədərdir və elm dinə ziddirmi?

Deistlərin elm kimi qəbul etdikləri əsas meyar təcrübi elmlərdir. Bu təcrübi elmin hara qədər işlədiyini müxtəsər şəkildə qeyd etmək lazımdır ki, bu şişirdilmiş "elm məfhumu" kainatın dərk edilməsi üçün mütləq və dəyişilməz meyar hesab edilməsin. Sərhədsiz kainatı

[46] “Şura” surəsi, 11

sərhəddi olan məhdud bir elmlə izah etmək necə də absurddur.

**Birincisi:** Təcrübi elmə tabe olmayan çoxlu sayda ictimai, siyasi, məntiqi, əxlaqi, psixoloji və s. elmlər var. Biz təcrübəni mütləq həqiqət meyarı kimi qəbul etsək, o zaman gərək bu elmlərin hər birini inkar edək. Üstəlik, elm dedikdə yalnız “təcrübi elm”, "praktiki elmlər" nəzərdə tutulmur. Təcrübi elm elmin sadəcə bir hissəsidir. Təcrübi elm bizə əxlaqi hökmlərlə təmin edə bilmir. Məsələn, oğurluq etmək yaxşı əməldirmi? Kiminsə təcrübəsinə və deist dəyərlərinə görə oğurluq yaxşı bir əməl də ola bilər. Madam ki, Yaradan onların düşündüyü kimi, bizi yaratdıqdan sonra başlı-başına buraxıb, deməli biz oğurluğu yaxşı hal hesab edə bilərik. Yəni dəyərlərin müəyyən olunmasında müasir elmin daşıya bilmədiyi mənəvi yüklər var[47].

**İkincisi**: Elm “necə?” sualına cavab verir, “nə üçün?” sualına isə cavab vermir! Məsələn, elm maddənin bir haldan başqa hala necə keçdiyini izah edə bilər. Amma kainatın nə üçün yarandığını, bizim dünyaya nə üçün gəldiyimizi, cinlərin nə üçün yaradıldığını və s. kimi sualları cavablandıra bilməz. Çünki bütün bunlar elmin öyrəndiyi sahə deyil. Elm məhdud bir sahə ilə məşğul olduğu üçün bu suallara cavab verə bilmir.

---

[47]Məqalə: “Təcrübi elmin sərhədləri”, Sahib Əsədov. 07.07.2019. Məqalənin linki: http://www.feqih.com/tecrubi-elmin-serhedleri/ Daxil olma tarixi: 28.06.2020

Britaniyali ve Cənubi Afrikalı kosmoloq və ümumi nisbilik nəzəriyyəsi üzrə mütəxəssis Corc Ellis demişdir: “Elm sənə fiziki qanunların nə olduğunu bəyan edə bilər. Lakin elm sənə bu qanunların nə üçün var olduğunu xəbər verə bilməz. Elmin sənə kainatın nə üçün mövcud olduğunu xəbər verməsi qeyri-mümkündür”[48].

**Üçüncüsü**: Təcrübi elm bizi zövqlər və ətraf-aləmdəki gözəlliklər barədə dərin məlumatlarla təmin edə bilmir. Təcrübi elm nəyin çirkin, nəyin gözəl, nəyin yaxşı, nəyin isə pis olduğunu bizə deyə bilmir. Elm bizə rəngləri necə gördüyümüzü və səsləri necə eşitdiyimizi izah edə bilər. Amma, elm bunlardan hansının yaxşı və ya pis olduğunu izah edə bilməz. O, insanların zövqlərini təcrübi elmə tabe etdirə bilmədiyi halda, saqqal və niqab (hicab) barədə də möminlərə meyar və ölçü verə bilməz.

**Dördüncüsü**: Təcrübi elm bizə elmi bilgiləri necə tətbiq edəcəyimizi də öyrətmir. Məsələn, insan DNT-sinin kəşfi məlumdur. Lakin, biz bunu bioloji silahların ərsəyə gəlməsində, yoxsa irsi xəstəliklərin müalicəsində istifadə etməliyik? Yaxud da bu məlumat insanlarla heyvanların birgə yaşamasına dair əldə edilən təcrübələrdə istifadə edilməlidir?

**Beşincisi**: Elm bizə gözlə görmədiyimiz şeyləri, qeyb aləmini, metafizik məsələləri izah edə bilmir. Cinlər

[48] Corc F.R. Ellis, “God for the 21st Century” (“XXI əsrdə Allah”), səh. 165.

varmı? Ruhlar varmı? Allah varmı? Elm bu kimi suallara cavab verməkdə acizdir. Çünki təcrübi və ya tətbiqi elmin sərhəddi maddədə bitir. Yəni dünyanın və ya kainatın yaranması kimi qeybi məlumatları və keçmişdə baş vermiş hadisələri təcrübi elmlə araşdırmaq təcrübi elmin sərhədlərini keçmək sayılır.

Bütün bunlar o demək deyil ki, təcrübi elm dinə ziddir! Elmlə din bir-birinə qarşı ziddiyyət təşkil etmir, əksinə, elmin elə sahələri var ki, təcrübi elmə əsaslanan kimsə o sahələrdən kənara çıxa bilməz. Bunu elm özü təsdiqləyir. Çünki hər elmin öz məşğul olduğu sahə var və elm öz sahəsinə aid olmayan məsələləri nə təsdiq, nə də inkar edə bilməz. Belə olan halda həmin sahəyə aid olan digər elmi ixtisasa müraciət etmək tələb olunur.

**Deistlə dindarın söhbəti və deistin şübhələrinə cavab:**

Söhbəti olduğu kimi qələmə almışam. Deist təbliğatçı sosial şəbəkələrdən birində yazıb[49] ki, mənə bir dindar dedi:
- "Əgər din yalandırsa, cənnət və cəhənnəm boş şeydirsə, onda insanın həyatının mənası nədir?" Mən də

---

[49] Qeyd edim ki, sosial şəbəkələrdə baş verən bəzi dialoqlardan sitat gətirsəm də, həmin səhifələrin adlarını qeyd edərək onları reklam etmək istəmirəm. Lakin, bizim dinimiz, müsəlman əxlaqımız və vicdanımız bizi gətirdiyimiz sitatları olduğu kimi nəql etməyə təşviq edir. Buna dair heç bir şübhə olmasın.

(yəni, deist) cavab verməmişdən öncə eyni sualı ona vermişdim.
Cavabında dedi ki:
- ”İnsan həyatının mənası yalnız Allaha ibadət etməkdir”.
Həmin (deist) bu fikir barədə ədəbdən kənar və nalayiq bir söz işlədikdən sonra deyir:
- “Mənə görə insan həyatının mənası, yaşadıqca əqli inkişaf etmək və bu inkişafı gələcək nəsillərə ötürərək bütün insanlığın inkişafına rəvac verməkdir. Yaradan varsa, onun da istədiyi budur. Belə olmasaydı, insanın inkişaf və nəsli davam etdirmək istəyini onun geninə daxil etməzdi”.
Bununla da sözünü bitirən deist deyir:
- “Bəs sizin daha məntiqli cavabınız varmı?”

Dindar şəxsin ona nə cavab verdiyini qeyd etməyən deist sözlərini bitirir.

**Biz bu şübhəyə elə burada öz cavabımızı bildirəcəyik:**

**Birincisi**: insanın inanclı olması və əqli inkişafa meyl etməsi əsla bir-birinə zidd məsələlər deyil. İnanclı alimlər olduğu kimi, inancsız alimlər də var. Bu əslində tamamilə başqa bir mövzudur. Onda belə çıxır ki, inanclı alim həyatda daha çox məna tapa bilir. Çünki o həm axirəti üçün yaşayıb o dünyası üçün azuqə toplayır, həm də dünyası üçün çalışır və dünya həyatı üçün azuqə toplayır. Qurani-Kərimdə də deyildiyi kimi: “Allahın sənə

verdiyi ilə Axirət yurduna can at. Dünyadakı nəsibini də unutma”[50].

Dinsiz alimi yalnız bu dünyası düşündürür. Dindar alimin isə itirəcəyi heç nə yoxdur. Dinsiz alim isə xəsarətə uğrayacaq və böyük zərərə məruz qalacaqdır [51].

Rəvayətə əsasən müsəlmanların xəlifəsi imam Əli ibn Əbi Talibin (Allah ondan razı olsun) yanına bir axirəti inkar edən dinsiz gəlir və ona axirəti inkar etdiyini bildirir. İmam Əli axirəti inkar edən həmin şəxsə - onun düşüncə tərzi səviyyəsində danışaraq - belə deyir: Bax, ya sən deyən doğrudur. Ya da mən deyən doğrudur, razısanmı?

- Dinsiz deyir: Bəli, razıyam!
- İmam Əli deyir: (Sənin düşüncənə əsasən) fərz etsək ki, biz öldükdən sonra sən deyən doğru çıxsa, hər ikimiz torpaq olub gedirik, o zaman

---

[50] “əl-Qasas” surəsi, 77.

[51] Bu sözləri on beş il öncə imam Əlinin həyatına aid bir əhli sünnət kitabından oxuduğum rəvayətə əsasən yazdım. Rəvayətin əslinə baxmaq, kitabın azəricə orijinalı əlimdə olmadığı üçün - kitabın növbəti yayımında bu mühüm rəvayətin isnadını verməyə çalışacağam. Biz müsəlmanlar əqidəmizə şəkk etmirik və bu rəvayəti şəkdə olan dinsizlərin başa düşəcəyi aspektdən deyildiyi üçün burada qeyd edirik. Bu rəvayəti bura yazmamışdan öncə tanınmış əqidə üzrə mütəxəssis İslam alimlərinin birindən soruşdum. O mənə rəvayətin imam Əliyə nisbət edilməsinin mötəbər olduğu təqdirdə dinsiz birinə öz aspektindən deyilməsinin düzgün olduğunu, mənasının doğru və yerində olduğunu vurğuladı.

mən bir şey itirirəmmi? Bu etdiyim ibadətlər, itaətlər mənə bir zərər verirmi?

- Dinsiz: Xeyr, zərər vermir.
- İmam Əli deyir: Yaxşı, birdən biz öldükdən sonra görsən ki, möminlər deyən doğru çıxıb və sən cəhənnəmə getməli olursan, onda halın necə olacaq? Buna görə özünü həlak etməyə dəyərmi?
- Bu sözlərdən sonra dinsiz dərin fikirə dalır və tövbə edib iman gətirir.

**İkincisi**: həyatın mənası haqqında hətta dahi mütəfəkkirlər arasında müxtəlif sözlər deyildiyi halda bir deistin yalnız "ağlına gələn mənanı" seçməsi nə dərəcədə doğrudur? İnsanlardan bəzisi üçün həyatın mənası ülvi hislər olan "sevgi"dir. Bəzisi üçün isə həzz və ləzzətlərdir - "hedonizm" tərəfdarları kimi. Hər insan bu həyatda özü üçün məna axtarır: ailə, din, karyera, incəsənət, elm, azadlıq, məsuliyyət, sadəcə yaşamaq və s.

**Üçüncüsü**: deistlərə sual veririk: Əgər Allahın və ya Yaradan qüvvə kimi qəbul etdiyiniz möhtəşəm nizamı yaratmış Uca Varlığın mövcudluğuna inanırsınızsa, sizcə həyatın əsl mənasının nə olduğunu Onun bizə xəbər verməsi daha doğru olmazdımı? İnsanlar bu məsələdə böyük ixtilaflara düşdüyü halda, sizcə bu ixtilafları çözməyə yalnız O qadir deyilmi? Məgər hər hansı bir proqramı ərsəyə gətirən insan onu nə üçün yazdığını hamıdan yaxşı bilmirmi? Məgər biz cihazların özbaşına seçimlər etməklə, özlərinə aid olmayan işlər

görməklə sıradan çıxacaqlarını bilmirikmi? Elə isə niyə bütün bunlar insana şamil olunmasın? Niyə də insan həyatının mənasını özünü Yaratmış Uca Allahdan öyrənməsin? Uca Allahın elçiləri həyatın mənası barədə suallara çox məntiqi bir cavab verərək bunun "Allaha ibadət etmək" olduğunu vurğulayıblar. Şübhə yoxdur ki, ateistlər və deistlər öz prizmalarından baxdıqda "həqiqət olduğu təqdirdə bir Yaradan tərəfindən bu kainatın yaranmasının daha məntiqli olacağını" qəbul edirlər. Bəs bu əzəmətli Yaradanın insanları bu qədər fərqli yaratmaqla yanaşı onlara həyatın əsl mahiyyətininin nə olduğunu bildirməsi daha doğru olmazdımı?

**Dördüncüsü**: qərb dünyasındakı vəziyyətə nəzər yetirdikdə, orada formalaşmış cəmiyyətlərin elmə, maddi-texniki inkişafa önəm verdiklərinin şahidi oluruq. Lakin onların deistlərin iddia etdiyi kimi elmi inkişafı həyatlarının mənasına çevirdiklərini görmürük. Avropa cəmiyyətlərinin hal-hazırki həyatı daha çox ləzzət və həzz üzərinə qurulub. Bu bitib-tükənməz ləzzət axtarışı insanlarda digər ləzzətlərə qarşı bezginlik yaradaraq onları yeni-yeni pozğunluqlar, əxlaqsız dəyərlər icad etməyə vadar edir. Bütün bunları gəlin paltarı geyinərək həmcins nigaha daxil olan, cinsini dəyişən kişi və qadınların timsalında açıq-aydın görürük. Onlar elmi öz həyatlarının mənası yox, sadəcə bir vəsilə hesab edirlər. Ateist və deist cəmiyyətlər əslində həyatın mənasını "beş günlük dünyadır, ye, iç, əylən" prinsipində görürlər. Elm ilə isə sadəcə texniki cəhətdən yaxşı təchiz olunmuş mərkəzlər və tədqiqatçılar məşğul olur. Hətta deistlərin əksəriyyəti dinin onları işləmək istədikləri

günahlardan, öz sözləri ilə desək "ləzzət və həzlərdən" məhrum etdiyini düşünərək dindən uzaqlaşıblar. Bir çox deist zina etməyin haram olmasını, zinakar qadınların yanına getməyin qadağan olmasını həzm edə bilmədikləri üçün deist olublar. Həmçinin qızlarla istədiklərini edə bilmələrinə dinin niyə müdaxilə etdiyini sorğulamaq elmi sual qəlibinə deyil, ehtiras və ləzzət bihuşluğundan doğan sualın qəlibinə daha çox bənzəyir. Bu cür iddialar irəli sürənlər ilk öncə gənclərimizin düşdüyü acınacaqlı hala baxmalı və məntiqsiz şübhələr dilə gətirməməlidirlər. Çox təəssüflər olsun ki, müasir gənclik şəhvət axtarışı ilə elm axtarışını fərqləndirə bilmir, elm iddiasında olan bir çox gənclər dinsizliyə sadəcə günahları rahat etmək üçün bir bəhanə etmək üçün yönəlirlər.

## Əgər Allah heç nəyə möhtac deyilsə, nə üçün Özünə ibadəti əmr edib?

Allahın bizi Ona ibadət etmək üçün yaratması o demək deyil ki, Onun bizim ibadətimizə ehtiyacı var. Əksinə, bizim Allaha ehtiyacımız var. Necə ki, Allah Qurani-Kərimdə buyurmuşdur: “Ey insanlar! Siz Allaha möhtacsınız. Allah isə Zəngindir, Tərifəlayiqdir”[52].
İtaət edənlərin itaəti Allah üçün bir şeyi artırmır, asilik edənlərin asiliyi isə Allah üçün bir şeyi azaltmır. Necə ki, ilahi hədisdə (ilahi hədis, qüdsi hədisin adlarından biridir. İlahi hədis, peyğəmbərin Allahın sözü olaraq nəql etdiyi, lakin Qurani-Kərimə ayə kimi daxil edilməyən ilahi

[52] “Fatir” surəsi, 15.

kəlamlardır) Allah buyurur: "Ey qullarım! Siz səhər və axşam günah edirsiniz. Mən bütün günahları bağışlayanam. Elə isə Məndən bağışlanma diləyin. Ey qullarım! Sizin Mənə zərər verməyə gücünüz çatmaz, verə də bilməzsiniz. Sizin mənə fayda verməyə gücünüz çatmaz, verə də bilməzsiniz. Ey qullarım! Sizin əvvəlinciniz və axırıncınız, insanınız və cininiz ən təqvalı şəxsin qəlbinə sahib olsa belə, bu mənim mülkümdə bir şeyi artırmaz. Ey qullarım! Sizin əvvəlinciniz və axırıncınız, insanınız və cininiz ən günahkar şəxsin qəlbinə sahib olsa belə, bu mənim mülkümdə bir şeyi azaltmaz"[53].

Deməli, bizim Allaha ibadətimiz Onun bizə ehtiyacı olduğu üçün yox, bizim Ona ehtiyacımız olduğuna görədir.

Gəlin sadə bir misalla izah edək: tutaq ki, siz özünüzə ev tikmək istəyirsiniz. Evi tikmək üçün mühəndisə ehtiyac duyursunuz və seçim qarşısında qalırsınız: onlardan biri adi mühəndis, digəri isə ən savadlı, ən yaxşı, ən tanınmış mühəndisdir. Siz iki mühəndisdən hansına üstünlük verərsiniz? Təbii olaraq daha savadlı olanı, işinin öhdəsindən daha mükəmməl gələni seçəcəksiniz. Vaxtınızı, pulunuzu və zəhmətinizi sərf etsəniz də, onun dediklərinə inanacaq, tapşırdıqlarını alacaqsınız. Çünki daha üstün olanı axtarmaq insan psixologiyasına xas ən önəmli məsələlərdəndir.

[53] "Səhihi Muslim", 2577.

Bəs hər şeydən üstün, hər şeydən kamil olan Allah necə? O, Öz isim və sifətlərində kamildir. Əlbəttə ki, hər şeyə Qadir olan, bizi yoxdan var edən Ağamızın dediklərinə etibar edəcəyik. Bizə yaradılışımızın hikməti və həyatımızın mənası olan ibadəti əmr etməsini qəbul edəcəyik, çünki O ən kamildir! Bütün məsələlərdə - Elmində, Qüdrətində, Hikmətində, Rəhmətində və s. - mütləq Kamilliyə malikdir! Bu cür mütləq Kamilliyi malik Allahın əmrinə tabe olub ona boyun əyməyəkmi? Qurandakı bu ayəyə diqqət yetirin: “Həqiqətən, Mən Allaham. Məndən başqa heç bir məbud yoxdur. Mənə ibadət et və Məni xatırlamaq üçün namaz qıl!”[54].

Onun bu ayədə diqqəti Öz Rübubiyyətinin və Üluhiyyətinin kamilliyinə necə yönəltməsinə nəzər yetirin. O daha sonra Özünə ibadəti əmr edir. Bu, məsələnin bir tərəfi.

Məsələyə başqa prizmadan baxdıqda, Allahın kamilliyinin, feillərinin və sifətlərinin, yaradılmışlara göstərdiyi təsirin məhz Onun kamilliyindən irəli gəldiyinin şahidi oluruq. Yaradılmışlardan hər biri öz seçimləri, ixtiyarları və rəğbətləri olmadan Ona boyun əysəydilər, o zaman bu təsirin izi, əlaməti görünməzdi. Könüllü şəkildə ibadət edib şərəfə və fəzilətə nail olan kəslər olmasaydı, Allahın lütfünün, qullara etdiyi yaxşılığın və məhəbbətinin kamilliyinin əsər-əlaməti, izləri bizə necə aşkar olardı?

---

[54] "Ta ha" surəsi, 14.

Əgər günah işləyib tövbə edən kəslər olmasaydı, Allahın Rəhmətinin, Hilminin və Bağışlamasının kamilliyi necə aşkar olardı?
Yaxud da xəta edənlər olmasaydı, Allahın Adilliyinin kamilliyi necə bəlli olardı?

Odur ki, Allah yaradılmışları Ona ibadət və itaətdən ayrılmaz (ibadətə möhtac) şəkildə yaradıb. O buyurub: “Yeddi göy, yer və onlarda olanlar Ona təriflər deyir. Elə bir şey yoxdur ki, həmd ilə Ona tərif deməsin, lakin siz onların tərifini anlamazsınız. Həqiqətən, O, Həlimdir, Bağışlayandır”[55].

Onların başqa bacarığı yoxdur, yalnız Uca Allaha tərif deməyi bacarırlar. Lakin Allah insan və cin tayfasını başqa məxluqlardan fərqli yaratmış, onlara itaət və asilik arasında seçim azadlığı verərək fərqləndirmişdir. Yəni, əməlisaleh insanlar könüllü şəkildə Allahın lütfünü və Kərəmini diləyərək Ona ibadət edir, digər insanlar isə Ona asilik edir. Əvəzində də Uca Allah onlara qarşı Öz Ədaləti ilə müamilə edir. Bu, ilahi kamilliyin aşkar olan ən mühüm cəhətləridir.

Bu seçim azadlığı bir əmanətdir. Allah onu bütün məxluqlara ərz etmiş, lakin məxluqatın bu əmanəti daşımağa gücü çatmamışdır. İnsan isə bu əmanəti öz çiyinlərinə götürmüşdür. Uca Allah Qurani-Kərimdə buyurmuşdur: “Biz əmanəti göylərə, yerə və dağlara

---

[55] “əl-İsra” surəsi, 44.

təklif etdik. Onlar onu daşımaqdan qorxub imtina etdilər. Lakin insan onu boynuna götürdü”[56].

Məşhur Quran təfsirçisi, peyğəmbərin duasını almış ibn Abbas (Allah ondan razı olsun) bu ayənin təfsirində demişdir: “Allah Adəmdən əvvəl digər məxluqlara Allaha itaəti (yaxşılığa mükafat, pisliyə cəza şərtini) ərz edir. Məxluqat buna mükəlləf ola bilmir. Allah Adəmə deyir: “Ey Adəm, mən əmanəti göylərə, yerə və dağlara ərz etdim, onlar buna mükəlləf ola bilmədilər. Sən buna mükəlləf ola biləcəksənmi?” Adəm dedi: “Ey Rəbbim, o nə əmanətdir elə?” Allah dedi: “Əgər yaxşı insan olsan, mükafatlandırılacaqsan, pis insan olsan, cəzalandırılacaqsan. Beləcə, Adəm bu əmanəti öz üzərinə götürdü və bununla mükəlləf oldu”[57].

İnsan bu əmanəti daşıyanın Allahın böyük lütfünü, çoxlu savab qazandığını və Allah qatında bu əmanəti daşımağın şərəfini bildiyi halda niyə də onu öz çiyinlərinə götürməsin? Bu, məhz yuxarıdakı ayənin mənasını ifadə edir:
“Bu əmanət insana ona görə verildi ki, Allah münafiq kişiləri və münafiq qadınları, müşrik kişiləri və müşrik qadınları cəzalandırsın, mömin kişilərin və mömin qadınların tövbələrini qəbul etsin. Allah Bağışlayandır, Rəhmlidir”[58].
İmam Cəfər Sadiqdən (Allah ondan razı olsun) rəvayət olunur ki, o, Allahın hər şeydən öncə mövcud olması,

---

[56] “Əhzab” surəsi, 72.
[57] “Təfsirut-Təbəri”, 20/338.
[58] “Əhzab” surəsi, 73.

məxluqatı yaratmaqla onlara yaxşılıq etməsindən bəhs edərək deyir: “Allah məxluqatı nə bir mənfəət əldə etmək, nə də bir zərəri aradan qaldırmaq üçün yaratmayıb. Lakin Allah məxluqatı yaratmaqla onlara yaxşılıq edib, onlara elçilər göndərib ki, haqla batili ayırd edə bilsinlər. Kim (tabe olaraq) yaxşı olarsa, onu cənnətə daxil edər. Kim (inkar edərək) asi olarsa, onu cəhənnəmə daxil edər”[59].

İnsana bu itaətlə asilik arasında seçim azadlığının verilməsi həqiqətən də yüksək bir kamillikdir. Bununla da insanlara məcbur edilmədən və təzyiq göstərilmədən özlərinin Allaha ibadəti seçə bilmələri üçün fürsət verilib.

İnsan bu əmanəti daşımağı seçdiyinə görə Allah onu digər məxluqlardan hörmətli və üstün etmiş, mələkləri ona səcdə etdirmiş, ona cənnətə daxil olmaq imkanı vermiş, hətta onu yer üzünün varisi etmişdir. Məşhur təfsirçi ibn Cərir ət-Təbəri (Allah ona rəhmət etsin) “Sənin Rəbbin mələklərə: “Mən yer üzündə bir canişin bərqərar edəcəyəm!” dedikdə…” ayəsinin təfsirində demişdir: “Mən yer üzündə məxluqlar arasında hökm versin deyə məndən olan canişinimi yaradacağam. Bu canişin Adəm və ondan sonra insanlardan Allaha itaət edənlərdir…amma yer üzündə fəsad törədənlər və haqsız yerə qan tökənlər nə Allahın canişini deyillər, nə də Adəmdən (o xeyirli zümrədən) deyillər…çünki, Allah (bu ayədə) yer üzündə fəsad törədənləri və haqsız yerə

---

[59] “Təfsirus-Səaləbi”, 7/60.

qan tökənləri öz canişininin zürriyyəti olmadığını bildirir”[60].

Allahın bu kamilliyinin izhar olması Onun insanın varlığına ehtiyacı olması və ya insana möhtac olması mənasına gəlmir. Lakin, Uca Allahın kamilliyinin izləri, nişanələri Onun insanlara heç bir ehtiyacı olmadan onlara görünməsini, zahir olmasını özündə ehtiva edir. Məgər görmürsünüzmü günəşin məxluqlara ehtiyacı olmadan işığı onlara necə təsir edir? “Ən Uca məsəl isə Allaha məxsusdur”[61].

**Əgər deist etiraz edərək desə ki, mən bu əmanətin insana verilməsi və insanın mükəlləf olması iddiası ilə razı deyiləm, o zaman ona cavabımız belə olacaq:**

Elə imtahanın sirri də məhz budur. Əgər biz Rəbbimizlə aramızda olan bu əhd-peymanı xatırlasaq, o zaman Ona ibadət etməkdən boyun qaçırmarıq. O zaman insanın ixtiyarının və seçim azadlığının olması bir fayda kəsb etməz, imtahana tabe tutulmağın da bir mənası olmazdı. Çünki imtahanın həqiqəti elə qeybə iman gətirməkdir. Müttəqilər də bu kəslərdir: “O kəslər ki, qeybə inanırlar…”[62].

**a) Əgər imtahan qeybi məsələ ilə olmasaydı, o zaman insanların hamısı həqiqətləri dərk edib iman gətirəcək və heç kim ixtilaf etməyəcəkdi.** Bir misalla

[60] “Təfsirut-Təbəri”, 1/452.
[61] “ən-Nəhl” surəsi, 60.
[62] “əl-Bəqərə” surəsi, 3.

fikrimizi daha dəqiq izah edək; təsəvvür edin ki, imtahandasınız və tələbələrə düzgün cavabların yazıldığı vərəqlərə baxmağa icazə verilib. Belə olan halda hər kəs suallara doğru cavab verəcək. Bəs onda bu imtahanın nə mənası qalacaq? Eynilə bu akademik imtahan kimi, qeyb ilə əlaqəsi olmayan dünya imtahanı da imtahan hesab olunmur. Loru dildə ifadə etsək, hər kəs Allahı görsə, Ona iman gətirəcək və cənnətə, cəhənnəmə ehtiyac qalmayacaq. Sınaqdan keçmədən insanlardan hansının sadiq, hansının isə yalançı olduğu da bəlli olmayacaq. Odur ki, deistlər bu məsələ barədə yaxşı-yaxşı düşünməlidirlər. Çünki deizmi seçənlərin düşünmək istəmədikləri həqiqətlərdən biri də budur.

**b) Allahın bu əmanəti insana ərz etməsi özü-özlüyündə Allahın Rəhmətinin, Məğfirətinin və Əfvinin kamilliyinin təzahür formalarından biridir;** Çünki, məxluq naqisdir və hətta, əmanəti daşımağı qəbul etsə də, şəkk yoxdur ki o, bu əmanəti kamil və tam şəkildə əda edə bilməyəcək. Çünki insan məxluqdur və heç bir qüsura yol verməməsi qeyri-mümkündür.

Elə atamız Adəm də əmanəti qəbul etdikdən sonra başına məhz bunlar gəldi. İbn Abbas demişdir:

“Adəmə əmanət ərz edildikdə ona deyildi:
- Bunu içindəkilərlə (hökmlərlə birgə) götür. Əgər itaət etsən, səni bağışlayacaq. Əgər asilik etsən, sənə əzab verəcəyəm.
- (Adəm) dedi: Qəbul etdim.

- Elə həmin günün əsrlə gecə müddəti arasında o günah iş gördü”[63].

Qüsura və günaha yol vermək insanın xislətində varsa, Allaha inanan və Onun əfvinə ümid edən kimsə tövbə edərək, bağışlanma diləyərək Allaha yönələcəkdir. Allah da Öz Əfvinin və Rəhmətinin kamilliyini izhar edərək onu bağışlayacaq və onun duasına qarşılıq verəcəkdir. Peyğəmbər ﷺ bir hədisində bu barədə buyurmuşdur:

“Canım əlində olana and olsun ki, əgər siz günah etməsəniz, Allah sizi aparar, yerinizə günah edən qövm gətirər, onlar Allahdan bağışlanma diləyərlər, Allah da onları bağışlayar”[64].

Bu hədisin mənası o deyil ki, insan istədiyi günahı edə bilər və özünü günahdan qorumalı deyil. Əksinə, hədisdən belə başa düşülür ki, insan özünü günahdan qorusa belə, yenə də mütləq kamilliyə nail ola bilmir və haradasa səhvə yol verir, günah işləyir. Yəni insanın qəsdi günah edərək “onsuz da günahkaram” prinsipi ilə yaşamaq olmamalıdır.

Yer üzündə hökmranlıq edən ölkə başçılarından biri öz xalqına yaxşılıqlar edərsə, öz hökmündə və iqtidarında ədalətli olarsa, sizcə xalqla o liderin münasibətləri necə olar? Əlbəttə ki, bu münasibətlər hörmətə, böyük ehtirama və qarşılıqlı təriflərə əsaslanar. Bəs elə isə hər

---

[63] “Təfsirut-Təbəri”, 19/197.
[64] “Səhihi Muslim”, 2749.

şeyin sahibi, hər şeyi idarə edən, Yaradan, Ruzi verən Allaha qarşı necə olmalıyıq? Məgər Onu Allah hesab etməyimiz, Ona ibadət etməyimiz və boyun əyməyimiz məntiqli deyilmi? Şəkk yoxdur ki, bu Yaradan, Ruzi verən, kainatın hökmü ixtiyarında olan Əzəmət Sahibindən başqa ibadətə layiq haqq məbud (ibadət edilən) yoxdur!

Allah bizim badətimizə ehtiyacı olduğu üçün yox, bu ikitərəfli əlaqənin mümkünlüyünü labüd edən səbəblərdən dolayı Ona ibadət etməyimizi əmr etmişdir. Onun Öz qullarına ehtiyacı olmadığı və onların küfrə düşməsinə razı olmadığı bu ayədən aydın olur: "Küfr etsəniz, bilin ki, Allah sizə möhtac deyildir. O, qullarının kafirlik etməsinə razı olmaz. Əgər şükür etsəniz, buna görə sizdən razı qalar. Heç bir günahkar başqasının günah yükünü daşımaz. Sonra Rəbbinizin yanına qayıdacaqsınız. O sizə nə etdiklərinizi bildirəcəkdir. Həqiqətən, O, kökslərdə olanları bilir"[65].
Allahın nə bizə, nə də bizim ibadətimizə ehtiyacı yoxdur. Əksinə, bizlər Ona möhtacıq.

### Həqiqətən bizim ibadətə ehtiyacımız varmı?

Bu dəfə cavabı müasir maddi elmin və elmi mülahizənin öhdəsinə buraxaq:

Təcrübi (praktiki) elmə yiyələnmiş bir çox insanlar dindarlıq və ibadət özəlliyinin insana xas əsas

[65] "əz-Zumər" surəsi, 7.

özəlliklərdən biri olduğunu təsdiqləyirlər. Bu faktı tarixçilər də təsdiqləyir. Yunan tarixçisi Boltark öz məşhur ifadəsində bunları dilə gətirmişdir:
“Tarixdə məktəbsiz şəhərlər tapa bildik. Tarixdə qalasız şəhərlər tapa bildik. Tarixdə xəstəxanaları olmayan şəhərlər də tapa bildik. Lakin tarixdə ibadət yerləri olmayan şəhərlər tapa bilmədik![66]”.

Bu fenomen yalnız keçmiş xalqların həyatı ilə məhdudlaşmır. XXI əsrin müasir elmlərindən olan və sinirləri öyrənən “Neurotheology”[67] elminin şaxələrindən biri məhz bu məsələyə həsr edilmişdir. Bu elm insanın sinir sistemi ilə ibadət prosesi arasındakı bağlılığı araşdırır!

Hətta, bəzi alimlər daha da irəli gedərək ibadətə görə cavabdeh olan genləri araşdırmağa başlayıblar! Amerikalı genetika alimi Din Hamer bu mövzuda “İlahi genlər: inanc genlərimizə necə daxil olub?” adlı kitab qələmə alıb.

Bəzi mütəxəssislər isə dindarlığın insan beynindəki sirləri haqda araşdırma aparıblar. Nevrologiya sahəsi üzrə mütəxəssis professor Kevin Nelson bu mövzuya dair çoxsaylı araşdırmalar həyata keçirmiş və araşdırmaların nəticələri əsasında “Allaha olan meylimiz...din beyin hüceyrələrimizəmi yeridilib?" adlı kitab qələmə almışdır.

---

[66] “Cilədul-İlhəd”, səh 160.
[67] tərcüməsi: dinə dair neyroelm.

Bir sözlə bu elmi araşdırmaların mövcudluğu ibadətin insan genlərində əsilli-köklü yeri olduğuna dəlalət edir [68]. Yəni ibadət insan üçün zəruri bir ehtiyacıdır. Allahın buna ehtiyacı yoxdur. Qurani-Kərimdə də buyrulduğu kimi: “Allahın aləmlərə ehtiyacı yoxdur”[69].

## Deizm təfəkküründə əxlaq

Deistlərin düşüncəsinə görə əxlaq insanın daxilində, fitrətində olan bir keyfiyyətdir və insan vəhyə əsaslanmayan əxlaq anlayışına malikdir. Təbii ki, deistlər arasında əxlaqın Yaradan tərəfindən müəyyən edilmiş qanunlardan olması fikrini deyənlər də var. Doktor Ramzes Avadın “Qərbdə ateizm” kitabında deyilir: “Deistlər əxlaq qanunlarının Allah tərəfindən qoyulması barədə ixtilaf ediblər. Onlardan bəziləri bunu təsdiqləmiş, bəziləri isə inkar etmiş və bu qanunları insanların özlərinin müəyyənləşdirdiyini demişlər”[70]. Bütün bunlardan aydın olur ki, deizm təfəkkürünə sahib olanlar əxlaq barədə fikirlərdə heç də müttəfiq deyillər.

Bu məqamda əcnəbi əsərlərdə yazılanlardan daha çox öz cəmiyyətimizdə formalaşmış deistlərin inandığı və işlətdikləri ifadələrdən bəhs etmək yerinə düşərdi. Məsələn, sosial şəbəkələrdə fəaliyyət göstərən deist

---

[68] "Şumuun-Nəhər", Abdullah Aciri, səh. 32
[69] “Ali-İmran” surəsi, 97
[70] “Qərbdə ateizm”, Ramzes Avad, səh., 174. Həmçinin: “Zahiratu nəqdud-Din fil-Fikril-Ğarbil-Hədis”, doktorluq dissertasiyası (ərəbcə), dr. Sultan ibn Əbdür-Rəhman əl-Umeyri, 1/238.

səhifələrindən birində bir deist təbliğatçı aşağıdakıları yazmışdı[71]: “Əxlaq, inancından asılı olmayaraq insana xas bir xüsusiyyətdir. Əxlaq insan yarandığı gündən onunla birlikdə yaranmış və təkamül edərək dəyişkənliyə uğramışdır". Bu yazıdan da göründüyü kimi, deistlər əxlaqın sabit deyil, dəyişkən bir məfhum olduğunu iddia edirlər. Bu nöqtədə kiçik bir haşiyəyə çıxmaq məqsədəuyğun olardı. O da tarix boyu dinsizliklə dinin əxlaq məhfumuna baxışının "sabitlik və dəyişkənlik" arasında fərqli şəkil alması haqdadır. Din dedikdə, təbii ki, İslamı qəsd edirik. İslama görə əxlaq sabit və dəyişilməz bir insani keyfiyyətdir. Gözəl əxlaqi keyfiyyətlər doğruluq, vəfalılıq, rəhmlilik, təmkinlilik, təvazökarlıq, abır-həya, iffət, qeyrət, şücaət, qonaqpərvərlik və s. sabitdir. Pis əxlaqi xislətlər də sayından asılı olmayaraq dəyişməz qalır və pis əxlaq olaraq vəsf edilir. XVII əsrdən əvvəl "Kilsə feodalistlərinə" qarşı mübarizə zəminində yaranan fəlsəfi cərəyanların da əxlaq mövzusunda fikirləri deistlərlə təxminən eynidir. Avropada meydana gəlmiş bu fəlsəfi cərəyanların demək olar ki, hamısı əxlaqın nisbi olduğunu söyləmişlər. Onlar “Məqsəd vasitəyə haqq qazandırır”[72] deyimini şüar götürərək öz məqsədlərinə çatmaq üçün istənilən vasitəyə əl atmağın icazəli

[71] Əvvəldə də qeyd etdiyimiz kimi bəzi müəlliflərin, səhifə və saytların reklam olunmaması üçün onların adlarını çəkməyəcəyik.
[72] Bu, batil əhlinə xas mühüm bir qaydadır. Batil əqidəyə sahib bir çox firqələr öz hədəflərinə çatmaq üçün məqsədi bəhanə edir, öz məqsədlərinə nail olmaq üçün humanizmə zidd metodlara əl atmaqdan belə çəkinmirlər.

olduğuna inanırdılar. Cəmiyyətdə əxlaqdan kənar hesab edilən davranışlara yol verən deistlər öz əməllərində nə cəmiyyətin mövqeyinə, nə də əməlin əxlaqlı görünməsinə yox, o əməlin “nəticəsinə” baxmağı üstün tuturlar. Deizm təfəkkürünə görə nəticəyə baxmaq - praqmatik və mənfəətçi bir yanaşma olsa da - cəmiyyətdə mövcud olan məlum əxlaqi dəyərləri ayaq altına alıb tapdalamaqla da mümkündür.

Bu təfəkkür sahibləri “əxlaqı məqsəd deyil, vasitə hesab edirlər”. Buna görə də əxlaqın mühitdən, vəziyyətdən və zamandan asılı olaraq dəyişdiyini iddia edirlər. Bu düşüncə ilə praqmatizm fəlsəfəsi arasında fərq görünmür. Çünki eynilə praqmatizm cərəyanı da “məqsədə çatmaq üçün hər şeyin icazəli, əxlaqi" olduğunu təbliğ edir. Əxlaqi keyfiyyətləri nisbi hesab etmək qərbdəki bütün cərəyanların qeyrət, namus, abır-həya və s. bir çox mənəvi prinsipləri itirmələrinə gətirib çıxarmışdır. Həmçinin bütün məsələləri maddi prizmadan dəyərləndirdikləri üçün, əxlaq kimi mənəvi bir keyfiyyət artıq onlar üçün nisbi məna daşımağa başlamışdır. Əxlaqın məqsəd deyil, vasitə olduğu hallarda əxlaq anlayışı məfəət üçün bir vasitə, ikiüzlülüyə və hiyləgərliyə bir çağırış olur.

“Əxlaqların sabit deyil, dəyişkən olması, zamana, məkana və vəziyyətə müvafiq olaraq dəyişməsi o deməkdir ki, məsələn doğruluq, vəfalılıq, rəhmlilik, təmkinlilik, təvazökarlıq, abır-həya, iffət, qeyrət, şücaət və s. kimi bəzi əxlaqi keyfiyyətləri bəzi məqamlarda büruzə vermək olar, bəzi bəzi məqamlarda olmaz, bəzi

ölkələrdə olar, bəzi ölkələrdə olmaz, bəzi cəmiyyətlərdə olar, bəzi cəmiyyətlərdə olmaz. Bu düşüncəyə əsasən eynilə yalançılıq, alçaqlıq, fahişəlik, zəlillik, əhdə xəyanət kimi bəzi çirkin əməlləri də işləmək bəzi vaxtlarda olar, bəzi vaxtlarda olmaz, bəzi ölkələrdə olar, bəzilərində olmaz, bəzi cəmiyyətlərdə olar, bəzilərində olmaz[73]".

Əxlaqın nisbi olması fikrində deizmlə ittifaq etmiş bu fəlsəfi cərəyanlar həm də əxlaqı insanın zövqü, meylləri, camaat adı ilə vəsf edilən şəxslərin nəfsi havası ilə əlaqələndirmişdir. Belə ki, bu məsələdə cəmiyyətdəki insanların əksəriyyətinin nəfsi istəklərinə və ehtirasına boyun əymiş hava əhli olduğunu nəzərə almamışlar. Bir toplum bir ərazidə hər hansı bir davranışı normal qəbul edirsə, bu davranışın "əxlaq" çərçivəsində olduğunu deməklə məsələ bitmir. Bu gün Avropada əxlaqsızlığı, soyunmağı normal qarşılayan və normal qarşılamayan yerlərin olduğunu nəzərə alsaq, onda gərək hər hansı bir davranış haqqında "bunu etmək filan yerdə əxlaqdandır, filan yerdə isə əxlaqdan deyil" deyək. Amma əxlaqın sabit olduğunu qəbul etsək, əxlaqsız əməllərin hər yerdə əxlaqdankənar olduğu qənaətinə gələ bilərik!

Şəkk yoxdur ki, bu cür "əxlaq" anlayışı əslində insanlara əxlaqi pozğunluq çağırışları etmək, dindən qaynaqlanan əxlaqi keyfiyyətləri aradan qaldırmaq, bəşəriyyəti bütün

---

[73] "əl-Vaciz fil-Məzəhib əl-Fikriyyə əl-Muasırah", dr. Əhməd ibn Əbdüləziz əl-Xaləf, səh. 88, Mədinə şəhəri, 2016 (ixtisarla).

dəyər və əxlaqi xüsusiyyətlərdən azad etmək, abır-həya kimi xeyirli mənəvi dəyərlərə qarşı hərb elan etmək, insanları bütün şərəfli xislətləri yox etməyə, cəmiyyətdən uzaqlaşdırmağa dəvət etmək, bütün haramlara göz yummaq və onların işlənməsinə razılıq vermək deməkdir. Bütün bunlar bəşəriyyət və cəmiyyət üçün xaos mənbəyidir. Bu "əxlaq" anlayışı qərb dünyasında fikir ayrılığının, itkilərin baş verməsinə səbəb oldu və mənfi dəyişikliklərlə nəticələndi"[74].

## Əxlaqi dəyərlər öz-özünə yarana bilərmi?

Bəzi dinsizlər ədalət, mərhəmət, sevgi kimi bəzi əxlaqi dəyərlərin heç bir təmələ ehtiyac duymadan var olduğunu iddia edir və obyektiv əxlaqi dəyərlərin insanlara Allah tərəfindən verildiyini qəbul etmirlər. Lakin ədalət, sevgi, mərhəmət kimi məfhumların öz-özünə var olmasını qəbul etmək olduqca çətindir. Bu əxlaqi keyfiyyətlərin öz-özünə yarandığını fərz etsək də, onların insanlar üçün əxlaqi mükəlləfiyyətlər formalaşdırmasına dəlalət edən heç bir dəlil də yoxdur. Əgər əxlaq öz-özünə formalaşıbsa, niyə mənə hər hansı bir davranış nümayiş etdirməyimə təsir göstərməlidir? Bu zaman həmin mükəlləfiyyəti mənə diktə edəcək qüvvə kim və nədir? Yəni, sual yaranır ki, öz mənfəətimdən söhbət gedirsə mən niyə başqasını düşünməliyəm?! Daha çox şey əldə etmək mümkün ola-ola əlimdə olanla niyə kifayətlənməliyəm?! Niyə

[74] "əl-Vaciz fil-Məzəhib əl-Fikriyyə əl-Muasırah", dr. Əhməd ibn Əbdüləziz əl-Xaləf, səh 88, Mədinə şəhəri, 2016 (ixtisarla).

pisliklərə qarşı yaxşılıqla cavab verməliyəm?! Və ya niyə zəifləri əzməməliyəm?! Nə üçün digərləri ilə yardımlaşmalıyam?! Niyə başqaları tərəfindən müəyyən edilmiş əxlaqi normalara riayət etməliyəm?! Niyə öz əxlaqi kriteriyalarımı formalaşdıra bilmərəm? Başqa birinin məndən doğru olmasının meyarı nədir? Bu qəbildən olan sualların sayını çoxaltmaq olar. “Biz anlamalıyıq ki, Allah olmadan obyektiv bir əxlaqın və əxlaqi dəyərlərin rasional təməlinin olması mümkün deyil”[75]. Belə olduğu təqdirdə Hitler kimi yaşamağın Muhəmməd kimi yaşamaqdan bir fərqi qalmır. Bu cür həyat tərzi seçmiş insanların rahat bir şəkildə yalnız öz mənfəətini düşünməsi, ani ləzzət və zövqlərini bütün dəyərlərdən üstün görməsi olduqca normal qəbul ediləcəkdir.

Deistlərin istər əxlaq mövzusunda, istərsə də digər mövzularda öz inanclarını vəhyə və axirət düşüncəsinə əsaslanmadan şüurlu bir təmələ söykəməkdə müvəffəq ola bilmədikləri açıq-aydın ortadadır. Bir sıra deist müəlliflərin deizmi dəstəkləmək üçün Aristotel, Sokrat, Plutarx, Siseron və Platon kimi antik dövr mütəfəkkirlərinin sözlərinə istinad etmələri də heç nəyi dəyişmir. Dialoq xatirinə fərz etsək ki, deist müəlliflərin iddia etdiyi kimi həmin mütəfəkkirlər üçün məqbul əxlaqi dəyərlər vəhyə ehtiyac olmadan mümkündür, o zaman bu fərziyyə onların “din yalnız seçmələr zümrəsi

---

[75] “Din Karşıtı Çağdaş Akımlar ve Deizm”, Hamdi Gündoğar. Səh. 231 (türkcə).

üçündür"[76] iddiası ilə ziddiyət təşkil edəcək. Bu yanaşma tərzi tarixi və bəşəri həqiqətlərlə ziddiyyət təşkil edir və deistlərin "vəhyə ehtiyac olmadığını" sübuta yetirmək cəhdləri qeyri-kafi qalır.

XVI əsrdə yaşamış fransız yazıçısı Montenin[77] "əxlaqın təməlləri" haqda qeyd etdiyi şərhlərə diqqət yetirdikdə, deistlərin təbiətdən gəldiyini iddia etdikləri "vicdan qanunlarının" əsasən adət-ənənələrdən qaynaqlandığı aydın olur. İnsanın əxlaqlı bir həyat yaşaya bilməsi üçün şüurlu bir təmələ söykənməsi zəruridir. Haqqında danışdığımız şüurlu əxlaqi təməl ancaq İlahi bildiriş yolu ilə qurula bilər. İnsanların yalnız öz ağıllarına əsaslanaraq yaxşı-pis, gözəl-çirkin olaraq qəbul edilə biləcək davranışlar barədə ortaq bir məxrəcə gəlmələrinin çox da mümkün olmadığı açıq-aydın müşahidə olunur. Düşüncə tarixində "Hedonizm" (həzçilik) və "Praqmatizm" (mənfəətçilik) kimi qəbul edilən fəlsəfi cərəyanlar "güclü olanın ayaqda qalması üçün zəifi əzməsi lazımdır" şəklində fəlsəfi görüşləri müdafiə etmişdir. Onlar mənsubu olduqları birliklərin adət və mədəniyyətlərinin təsirində qalan insanların əxlaqi baxımdan əlverişsiz qəbul ediləcək inanc və tətbiqləri, insan təbiətinin vəhyə söykənmədiyi halda

[76] Yəni, bununla onlar elmdən daha uzaq, daha geridə qalmış insanlar toplusunun seçilməsini nəzərdə tutmuşlar.
[77] XVI əsrdə yaşamış fransız yazıçısı (1533-1592). O, Avropada məşhur olan "Montenin təcrübələri" adlı əsərin müəllifidir.

hansı çirkin davranışları qanuniləşdirdiyini ortaya qoymuşdur [78].

Bununla yanaşı, əxlaqın sırf nəzəri deyil, praktiki istiqamətinin də olduğu nəzərə alsaq, "Doğru olan nədir?" sualı qədər "Niyə doğru olanı etməliyəm?" sualının da əhəmiyyəti bilinəcəkdir. Məsələn, kimsə "Oğurluq etmək, adam öldürmək və ya zəifləri əzmək pis bir əməldir" deyərək bunun fitrətdən qaynaqlandığını söyləyə bilər. Ancaq bu ifadə yalnız dinlə əlaqələndirildikdə doğru bir nəzəriyyə formalaşdırmaq mümkün ola bilər. İşin praktiki miqyası isə fərqli nəticələr verməkdədir: "Niyə içi pul dolu bir çanta tapdıqda onu sahibinə verməliyəm?" Və ya "Güclüyəmsə və rəqibimi zərərsizləşdirmişəmsə onu niyə öldürməməliyəm?" şəklindəki suallara veriləcək cavabların şüurlu təmələ əsaslanması üçün din və axirət inancı lazımdır. Çünki mühüm olan məsələ əxlaq qanunlarını nəzəri olaraq bilmək deyil, onları tətbiq edə bilmək üçün şüurlu təməllərə əsaslanmaqdır. Bir çox insan "doğru əxlaqi nəzəriyyə formalaşdırmaq" və "əxlaqi davranışları şüurlu təməllərə əsaslandırmaq" arasındakı fərqi ayırd edə bilmədiyi üçün, din olmadan da əxlaq anlayışının mövcud ola biləcəyini iddia etmişlər. Lakin dinə əsaslanmayan əxlaqi bir nəzəriyyənin bəlkə də çox əxlaqlı cəmiyyətlər formalaşdırması mümkün olsa da,

---

[78] Məqalə: "Deizm və tənqidi", Emre Dorman, 17-ci abzas. Məqalənin linki: www.microbloggerss.blogspot.com/2015/03/deizm-v-tnqidi.html?m=1 Daxil olma tarixi: 12.07.2020

din olmadan əxlaqi davranışların "şüurlu təməllərinin" təşəkkül tapması mümkün deyil.

“Əslində hansısa deistin “filan dinsiz də əxlaqlı davranır, xeyirli əməllər işləyir” deməsi deistlərin istər-istəməz əxlaqın dəyərini və zəruriliiyini qəbul etdiklərinə dəlalət edir. Zahirən hər kəs əxlaq məfhumunu qəbul edir və mahiyyətini etiraf edir. Bəşər övladı belə bir ilahi mükəlləfiyyəti inkar etməkdə ixtiyar sahibi deyil. Əxlaq maddi qazanc əldə etmək üçün deyil və əxlaqın dəyəri bu dünya ilə ölçülmür. Əxlaqın əsasları daim şəxsi mənfəətlər və maddiyyatla ziddiyyət təşkil edir. Yəni insanı maddi modelə çevirmək və ya maddi zərurətlər çərçivəsində analiz etmək mümkünsüzdür”[79].

“Filankəs də gözəl əməllər edir, gözəl əxlaq sərgiləyir, gör nə qədər yaxşı əməllər işləyir” deyərək dindara etirazını bildirən deist əxlaqın “nisbi” olduğunu deməklə qəsd etdiyi şəxsin yaxşılıqlarını dolayı yolla cəhənnəmə göndəmiş olur. Nisbi olan əxlaqı tərifləməyə, hətta onun barədə düşünməyə belə dəyməz. Çünki bu əxlaq nəticə etibarilə nisbidir. Məhz bu səbəbdən, sərgilənən əxlaqi davranışlar və görülən xeyirxah əməllər - dinsizliyə əsasən bu əməllərin heç bir mənası olmasa da[80] - ya həqiqi mənada böyük mahiyyət daşıyacaq, yaxud da bu gözəl əxlaqi davranışların, xeyir əməllərin heç bir

---

[79] “əl-Ovdətu iləl-İmən”, Heysəm Talat, səh. 124, 2-ci nəşr, 2016

[80] Əxlaq ilahi bir məsdərə söykənmədiyi üçün onlar üçün nisbi xarakter daşıyır. Əgər onların nöqteyi-nəzərindən əxlaq ilahi bir əsasa söykənsəydi, o zaman nisbi deyil, sabit olardı.

mənası olmadığı üçün onu edənə də tərif oxunmasına ehtiyac qalmayacaqdır.

## "Allah bizim vicdanımızdır" deyən deistlərə xitab

Ateist və deistlər arasında "Mənim Allahım vicdanımdır" deyimi geniş yayılmışdır. Bu iddiaya münasibətimi bildirmək istəyərdim. Bu deyimin deistlər tərəfindən dilə gətirildiyinin şahidi olmuşam. Odur ki, kitabda bu məsələ ilə bağlı cavabımı qeyd etmək istəyirəm. Əslində dinsizlərin "vicdan" anlayışını qəbul etməsi yaxşı haldır. Bəlkə bunun sayəsində onlara nələrisə izah edə bildik. Deistlərdən "Allah mənim vicdanımdır" sözünü son dəfə eşitdikdən sonra Allahın bu ayələrini xatırladım:

***"Nəfsinin istəyini ilahlaşdıran şəxsi gördünmü? Allah onu elm üzərində azğınlığa saldı, qulağını və qəlbini möhürlədi, gözünə də pərdə çəkdi. Allahdan başqa kim onu doğru yola yönəldə bilər? Məgər düşünüb anlamırsınız? Onlar dedilər: "Həyat ancaq bizim dünya həyatımızdır. Kimimiz ölür, kimimiz də doğulur. Bizi öldürən ancaq zamandır". Bu haqda onların heç bir biliyi yoxdur. Onlar ancaq zənnə qapılırlar"*****[81]**.

Həqiqətən də bunları deyən dinsizlər nəfsi istəklərini ilahlaşdırıblar. Onlar öz vicdanlarının deyil, məhz nəfsi istəklərinin köləsinə çevriliblər. Çünki onlardan

---

[81] "əl-Casiyə" surəsi, 23-24

əksəriyyəti “vicdan” sözünün nə mənaya gəldiyindən xəbərsizdir. Bilənlərin isə öz vicdanlarını “Allah” adlandırmaları tamamilə absurd bir fikirdir. Onların hədəflərinə və həyat mübarizələrinə nəzər yetirdikdə, nəyə ibadət etdikləri daha da aydın olur. Hətta elə çirkin nəfsi istəklərini ilahlaşdıran dinsizlər var ki, adam o məsələləri dilinə belə gətirməyə utanır. Xülasə, əsas mövzuya keçək:

**Birincisi: ilk öncə “vicdan” sözünün mənasına nəzər salaq;** xatırladaq ki, “vicdan” sözünün kökü ərəbcə “qavramaq” mənasını verən *“vəcədə”* felidir. Əgər sizin Allahınız “vicdanınızdırsa” və bunu vəsf etmək üçün ərəb mənşəli sözdən istifadə edirsinizsə, daha sizə sözümüz yoxdur! Axı İslamın da ərəblərin dini olduğunu deyirsiniz! Elə isə gərək bu ziddiyyətdən qurtulasınız. Təklif edirik ki, “vicdan” sözünün ingiliscə və ya hər hansı bir digər əcnəbi dildə qarşılığını tapıb istifadə edəsiniz. “İnşəAllah”, “Allah rəhmət etsin” və digər dini mahiyyət daşıyan kəlmələri işlətmədiyiniz kimi, gərək bu sözü də istifadə etməyəsiniz.

**“Vicdan” sözünün mənası haqqında bir neçə izahlar mövcuddur:**

**Ərəb dilində**: “İnsanın özü və daxili gücləri, ona təsir edən daxili ləzzət və ağrı hissi”[82].

---

[82] “Mucəm əl-Məani”, ərəbcə lüğət, “vicdan” sözünün mənası.

**Bəziləri** “Vicdan insanın daxilində yaxşı və pisi ayırd edən insani bir hissdir” - demişlər.

**Bəziləri isə “**Vicdan, ağılın müdaxiləsi xaricində insanın daxili hisslərinin onun əməllərinə etdiyi mühakimədir” - demişdir.

**Bəziləri də** bir qədər bənzər şəkildə “Vicdan, hər bir insana gözəl davranışları və düşüncələri təlqin edən, sağlam mühakimə yürütməsinə kömək edən, doğru ilə yalnışı bir-birindən ayıran mənəvi xüsusiyyətdir”[83] - demişlər.
Vicdana işarət edən hədislərdən birində Vabisa ibn Məabəd adlı səhabənin peyğəmbərin ﷺ yanına gəlib ondan “yaxşılıq və pisliyin nə olması” haqqında soruşması təsvir edilir. Peyğəmbər ﷺ cavabında ona deyir: **“Ey Vabisa, qəlbindən fətva al, yaxşılıq nəfsinin və qəlbinin yönəlib rahatlıq tapdığı şeydir. Günah isə insanlar sənə fitnəyə düşmüş desələr də, sənin qəlbinə narahatçılıq verən, köksündə sıxıntı yaradan şeydir”**[84].

Bu hədisdən aydın olur ki, insan öz-özlüyündə nəyin yaxşı, nəyin pis olduğunu, yaşadığı cəmiyyətdə də pis və yaxşı əməlləri ümumən tanıyır. Bu, fitrəti sağlam, mənəviyyatı salamat insanlara aiddir. Mənəviyyatı çirkin

---

[83] Məqalə: www.milli.az saytı. 16 may 2017-c il tarixli “Vicdan nə deməkdir?” adlı məqalə. Məqalənin linki: www.news.milli.az/society/544648.html Daxil olma tarixi: 15.05.2020
[84] İmam Əhmədin "Müsnəd" əsəri

əməlləri pis hesab etməyən insan isə vicdanını deyil, nəfsinin istəklərini, şəhvət və ehtiraslarını özünə ilah etmişdir. Əvvəldə də qeyd olunmuş Quran ayəsində deyildiyi kimi: **“Nəfsinin istəyini ilahlaşdıran şəxsi gördünmü?”[85].**

Bu o demək deyil ki, insan bütün hallarda vicdanı ilə hərəkət etsə, onun ağlına müvafiq hərəkət etməsinə ehtiyac qalmır. İnsanın vicdanı onu xeyirə yönəltsə də, “iki xeyirdən hansından daha xeyirli olduğunu bilmək üçün” “furqan” [86] lazımdır:

**“Ey iman gətirənlər! Əgər Allahdan qorxsanız, O sizə haqla nahaqqı ayırd etmə bacarığı verər, günahlarınızdan keçər və sizi bağışlayar. Allah böyük lütf sahibidir”[87].**

Bütün bu deyilənlərdən aydın olur ki, vicdan insanın daxilində özünü sorğulayaraq yaxşı və pisi ayırd etməsinə səbəb olan mənəvi bir hissdir. Bu ayədə vəsf olunan bacarıq məhz furqandır, yəni haqla batili ayırd edə bilmək. İnsanın sadəcə yaxşı ilə pisi ayırd etməsi kifayət deyil. İnsan haqqı da batildən ayırd edə bilmədikcə kamil ola bilməz.

Bir çox tədqiqatçı alimlər ağılla vicdanı fərqləndirmişlər.

---

[85] “əl-Casiyə surəsi”, 23.
[86] Furqan - “Haqla batili ayırd edən” mənasını verir. Qurani-Kərimin adlarından biridir.
[87] “əl-Ənfal” surəsi, 29.

Əgər insanın daxilində onu mühakimə edən, sorğulayan vicdanı emosional duyğularla bağlıdırsa və ağılın müdaxiləsi olmadan vicdan hissinin mühakiməsi baş verirsə, dinsiz kimsə öz emosional hislərinə “Allah” deməklə bizim dediklərimizi tam mənasilə təsdiqləmiş olur. **Çünki dinsiz öz ağlını kənara qoymaqla ziddiyyətə düşmüş olur.** Aydın məsələdir ki, emosional duyğular insanı yanılda bilir. Beləliklə dinsiz, deist və s. ağlın müdaxiləsi olmadan emosional qərarlar vermiş olur, təcrübəni və maddi aləmi əsas götürdüyü üçün vicdanının doğru və ya yalnış qərar verdiyini tam bilə bilmir. Üstəlik, dinsizlərin əxlaqa nisbi yanaşmasını nəzərə alsaq, vicdanları cəmiyyətdə baş verən bir çox əxlaqi problemlərdən dolayı sızlamayacaq və bu problemlərlə bağlı narahatlıq keçirməyəcəklər! Bu müqayisələrin sayını artırmaq da olar. Dinsizlərin “Mənim Allahım vicdanımdır” deməklə yalan söylədiyini və çürük bir iddia irəli sürdüyünü digər misallarla da göstərmək olar.

İnsanı daxildən sorğulayan (haqq-hesaba çəkən) nəfsə gəldikdə isə, Qurani-Kərimdə buna işarə edilərək buyurulmuşdur:

**“And olsun nəfsə və onu yaradıb kamilləşdirənə, ona günahları və Allahdan qorxmağı təlqin edənə! Nəfsini günahdan təmizləyən uğur qazanmışdır”[88].**

---

[88] “əş-Şəms” surəsi, 7-9

İslamda nəfsin növlərindən “yaxşılığı əmr edən nəfs” və “pisliyi əmr edən nəfs” kimi bir sıra nəfs növlərindən bəhs edilmişdir, bütün bu proseslər də həqiqətən insanın daxilində baş verir.

Beləliklə aydın olur ki, insanın daxilində yaxşılığı və pisliyi əmr edən nəfs olmaqla bərabər, xəta etdikdə ona “səhv etdin” deyərək hayqıran, bəzən isə yalnış əməllər etdikdə “bu doğru deyil” deyərək xəbərdarlıq edən, *insanın içini sızldadan hisslərə* vicdan deyilir.

**İkincisi, vicdanı bəhanə edənlər:** bir məsələ var ki, insan günahlarını çoxaltdıqca pisliyi əmr edən nəfsi ona qalib gəlir, yaxşılığı çoxaltdıqca isə yaxşılığı əmr edən nəfsi üstünlük qazanır. Yəni insanın vicdanı onun əməllərindən çox təsirlənir.

Peyğəmbər ﷺ buyurmuşdur: **“Qul bir günah etdiyi zaman qəlbinə qara bir nöqtə düşər. O, günahdan çəkinib tövbə edər və bağışlanma diləyərsə, o, nöqtə silinər və qəlbi yenə də parlayar. Lakin günahını təkrar etdiyi zaman o qara nöqtə artar. Nəhayət bütün qəlbini bu qaralıq qaplayar. Allahın ayəsində olan: “Xeyr, əslində onların qəlblərini qazandıqları günahlar qaplamışdır” (“əl-Mutaffifin”, 14) budur”[89].**

Dinsiz şəxs Allahın sevmədiyi əməlləri etməklə bir növ vicdanını da zədələyir. Bundan sonra onun öz vicdanına

---

[89] Mənbə: İbn Macəh, 4344; əl-Albani “Səhih Sünən Tirmizi” 3/127

"Allah" deməsinin heç bir mənası qalmır. Bu, "özünütəsəllidən", "mənasız həyata məna qatmaq cəhdindən" başqa bir şey deyil.

**Üçüncüsü, insanın vicdanı, fitrəti ona Allahı tanımağı əmr edir:** Əslində vicdan insana öz Rəbbini tanımağı əmr edir. Elm təsdiqləyir ki, insana heç bir xarici amil təsir etməzsə, insan onu Yaradan birinin olduğunu təsdiqləməyə meyllənir. İnsan kainatı Yaradan Qüdrətli Allaha ibadət etmək istəyir və buna meylli olur.

**Bu barədə çoxsaylı elmi araşdırmalar da həyata keçirilmişdir:** bu araşdırmalardan Oksford universitetinin professoru Conatan A. Lanmanın araşdırmalarını qeyd etmək olar. Bu faktı həmçinin Oksford universitetinin psixologiya sahəsi üzrə tədqiqatçı alimi Olivera Petroviçin araşdırmaları da təsdiqləyir. Din Hamer isə insan hüceyrələrində "ilahi genləri" aşkarlamış və "The God Gene: How Faith is Hardwired into Our Genes" kitabında bu barədə ətraflı bəhs edərək insanların xarici təsirlər olmadan ateizmə deyil, dinə meyl etdiklərini isbatlamışdır. 2008-ci ilin noyabr ayında Britaniyanın "Telegraf" qəzetində Castin Barretin həyata keçirdiyi "Children are born believers in God"[90] adlı akademik araşdırmasının nəticələri dərc edilmişdir[91].

---

[90] Tərcüməsi: "Uşaqlar Allah inancı ilə doğulurlar"

[91] Məqalə: "İnsan fitrətində Allahın varlığına dəlillər", Zeyd Övladzəyən. Yaqeen Center, www.yaqeen.com saytı. Daxil olma tarixi: 25.06.2020

**Həmçinin 2011-ci ildə "CNN" kanalının yaydığı məlumata əsasən professor Rocer Triqqin rəhbərliyi altında iyirmidən çox ölkə vətəndaşları üzərində araşdırma həyata keçirilmişdir. 3 il davam edən və çoxlu sayda qərbli tədqiqatçının (57 tədqiqatçı) iştirak etdiyi araşdırma çərçivəsində aparılan təcrübə və təhlillər nəticəsində bu qənaətə gəlinmişdir:** insanlar Allaha, ölümdən sonrakı həyata inanmağa meyllidirlər. Bu araşdırmaya 1,9 milyon funt sterlinq pul xərclənib[92]. Bu cür misallar çoxdur, lakin bununla kifayətlənirəm.

Qurani-Kərimdən ayələri əbəs yerə burada qeyd etməmişik. Çünki deistlər Allah inancına ateistlərdən daha yaxındırlar. Sadəcə onlar ziddiyyət içindədirlər. Gah "Allah var, amma O, enerjidir", gah "Allah bizim vicdanımızdır", gah "Allah kainatın daxilində deyil, xaricindədir" və ya O, bir "super enerjidir" deyirlər. Gah da o "üstün sivilizasiyadan olan bir proqramçıdır" deyirlər. Qeyd edim ki, bütün bu fikirləri sosial şəbəkələrdən birində deistlərə məxsus olan və adını çəkərək reklam etmək istəmədiyim bir səhifədən götürmüşəm. Göründüyü kimi ziddiyyət açıq-aydın ortadadır.

Qayıdaq vicdana **"Allah"** deyən deistlər məsələsinə;

Qurani-Kərimdə insanın fitrəti haqqında buyurulur:

---

[92] Öncəki mənbə.

**“Sən bir hənif kimi üzünü dinə tərəf çevir! Allahın insanlara – xəlq etdiyi şüurlu məxluq kimi verdiyi fitrət budur”[93].**

Başqa bir ayədə isə insanların bir qayda olaraq Allahın varlığını təsdiqləməsindən bəhs edilir:

**“Əgər sən onlardan: “Göyləri və yeri kim yaratmışdır?”– deyə soruşsan, onlar hökmən: “Allah!”– deyəcəklər. De: “Həmd olsun Allaha!” Lakin onların çoxu bunu bilmir”[94].**

**Dördüncüsü: vicdan ölərsə, o necə sənin Allahın ola bilər?**

Bu başlığı yazmaqda məqsədim nə kimisə təhqir etmək, nə “vicdanın ölüb” deyərək kimisə ittiham etmək, nə də atmaca atmaqdır. Niyyətim sadəcə ədalətli olmaqdır. Gəlin bir anlıq düşünək, ağlımızı işlədib qərar verək:

**Vicdan öldükdə** hər şey icazəli olur - böhtan, xəyanət, əxlaqsızlıq, pozğunluq, namus və qeyrəti inkar etmək və s.

**Vicdan öldükdə** insan qanı içmək kimlər üçünsə su içmək kimi asan olur. Vətənə xəyanət, xalqın namusuna toxunmaq, tarixi saxtalaşdırmaq kimi çirkin əməllər adiləşir.

---

[93] “ər-Rum” surəsi, 30.
[94] “Loğman” surəsi, 25.

**Vicdan öldükdə** insan bombardman edilmiş məsum əhali üçün, körpələr və qocalar üçün narahatlıq keçirmir, üstəlik, qəddarlıqla “onlara yaxşı olub” deyir. Amma qeyri-müsəlman Corcun uşağının ayağı burxulanda “vicdanlar” tərpənir. Bu cür “vicdanın” kimin üçünsə "Allaha bərabər olması" heç də təəccüblü deyil.

**Vicdan öldükdə** ağ göyərçinlər tərk olunur, səmada yalnız gecə-gündüz qarıldayan qarğalar qalır.

**Vicdan öldükdə** insan vəhşiləşir və vəhşi heyvan kimi öz ovunu güdür, şəhərlər tənhalıq dəhşəti saçan meşələri andırır.

**Vicdan öldükdə** Qərb insanı nə qədər inkişaf etsə də, vətənində başına bomba yağmasından qorxub torpağına gəlib çıxmış insanların sahilə dirənmiş qayğını ya batırmağa çalışır, ya saatlarla geri dönməyini tələb edərək acından öldürür, ya quru sərhəddini keçən qaçqınlara badalaq gələrək yerə yıxır, ya da dəyənəklə başlarına zərbələr endirir. Bu cür “vicdanı” “Allah” adlandıranlara onsuz da təəccüb etmirik. Belələrinin “vicdanının” ölməsini görməzdən gələn sapı özümüzdən olan baltaların öz vicdanlı dədə-babalarına dırnaqarası baxması da qəribə deyil. Amma kaş biləydilər ki, inkişaf etmək heç də vicdanlı olmaq deyil. Qərb insanı qəflət yuxusundan ayılıb vicdanı şərqdə axtarır, şərq insanı isə inkişafı Qərbdə axtarmaqda ikən vicdanını itirmək təhlükəsi ilə üzləşirsə, deməli burda nə isə bir əmma var. O əmmanın nə olduğunu isə özünüz düşünün!

**Vicdan öldükdə** insanlar həqiqi mənada bir-birinin ətini yeyir; gecə-gündüz spirtli içkilərə aludə olan sərxoşlar axşamlar ölmüş insan əti yeməklə məşğul olurlar. Sərxoşları ittiham edənlər onun bu hala düşməsinə səbəb olan vicdansız mühiti ittiham etmirlər. İnsan əti yeməklə məşğul olan bu çirkin düşüncəli insanlar dinin əsəri deyil, dinsizliyin əsəridir.

**Vicdan öldükdə** Vətənin çörəyini yeyib suyunu içənlər öz milli qəhrəmanını "qatil" adlandıracaq qədər vicdanını itirir.

İndi siz deyin: belə olduğu halda hansı "vicdan" insanın Allahı ola bilər?! İnsanın tək Allahı var - o da qəflətə düşərək barəsində unutduğu Allahdır. Qurani-Kərimdə məhz o unudulan Allahdan danışılır:

"Kim Mənim Zikrimdən üz döndərsə, onun güzəranı sıxıntılı olacaq və Biz Qiyamət günü onu kor kimi hüzurumuza gətirdəcəyik". O deyəcək: "Ey Rəbbim! Mən dünyada görürdümsə, indi nə üçün məni kor olaraq gətirdin?" Allah deyəcək: "Elədir! Çünki sənə ayələrimiz gəldi, sən isə onları unutdun. Bu gün də sən beləcə unudulacaqsan!" Biz həddi aşanı və Rəbbinin ayələrinə inanmayanı belə cəzalandırırıq. Axirət əzabı isə, daha şiddətli və daha sürəklidir"[95].

---

[95] "Ta Ha" surəsi, 124-127.

**Deistlər axirətin və ruhun mövcudluğuna inanırmı?**

İlk öncə qeyd edək ki, axirət və ruh inancı kompleks yanaşma tələb edən məfhumlardır. Axirətin varlığı və ruhun əbədiliyi **məsələsində də** deistlər arasında **fikir ayrılığı mövcuddur**. Bəzi deistlərin düşüncəsinə görə dünya həyatının və əməllərin bir nəticəsi olaraq, eyni zamanda mütləq ədalətin gerçəkləşməsi üçün axirət həyatının olması vacibdir. Bəzi deistlər isə bu fikirə qarşıdırlar. Bir sıra deistlər cəza və mükafatın insana bu dünyada verildiyini dedikləri halda, digərləri cəza və mükafatın axirətdə veriləcəyini deyiblər[96]:

- Məsələn, deist yazıçılardan Herbert Çerberinin inanc sisteminə görə dünya həyatından sonrakı həyatda mükafat və cəza olacaqdır.
- Radikal deistlərdən biri hesab edilən Entoni Kollins (vəf.1729) ruhun maddi olduğunu söyləyir, onun ölümsüzlüyünə və **ölümdən sonrakı həyatın** mövcudluğu barədə düşüncələrin əleyhinə çıxırdı. Kollinsə görə ruhun ölümsüzlüyü fikrinin kökü misirli rahiblərin inanclarına söykənir.
- İngiltərəli siyasi filosof, siyasi xadim və yazıçı, deist inanclı Lord Vikont Bolinqbrok (1678-1751) növbəti həyatın varlığına dair şübhə içində idi. O düşünürdü ki, növbəti həyat mövcud olsa da, heç bir cəzalandırmadan söhbət gedə bilməz. O, Musa peyğəmbərin ölümdən sonrakı həyatda

[96] Tiffani E. Piland, "The Influence and Legacy of Deism in Eighteenth Century America, Florida", 2011.

cəza və mükafat barədə inancını və ruhun ölməzliyi barədə etiqadını inkar edir, bu inancın misirlilərdən qaynaqlandığını iddia edirdi.

- Voltera görə Musa yəhudilərə ölümdən sonrakı həyatda mükafat və cəzalar vəd etmədiyi kimi, onlara ruhların ölməzliyinə dair hər hansı bir xəbər də çatdırmamışdı. Nə onları cənnətlə ümidləndirməmiş, nə də cəhənnəmlə qorxutmamışdır. Bir sözlə Volter Musanın təliminin yalnız bu dünya üçün olduğuna inanırdı[97].

Göründüyü kimi deistlərin axirət həyatı barədə fikirləri bir xeyli qarışıqdır.

Bizim tanıdığımız, ölkəmizdə müşahidə eydiyimiz deistlərin inancına görə ruh var. Onlar düşünür ki, ruh olmazsa insanın bioloji cismi yaşaya bilməz. Ümumən ruh mövzularına gəldikdə əksər deistlərin ruhun varlığına şəksiz-şübhəsiz inandığının şahidi ola bilərsiniz. Bu çox yaxşı haldır, lakin bu məsələdə böyük bir ziddiyyətlə üzləşmiş oluruq. Bu ziddiyətin səbəbi deizmin hədəfsiz olmasından qaynaqlanır. Bu hədəfsizliyin sirri isə deizmin Qərb dünyasındakı tarixi proseslərin əks təsiri, əks nəticəsi kimi kilsə inancları və dinsizlik arasında "orta yol" kimi təqdim edilməsində gizlənir. Çünki, deizmin ruhun varlığına inanması, ateizmin isə ruhu inkar etməsi və hər iki tərəfin də "müasir elmə əsaslandıqlarını" iddia etmələri həqiqətən

[97] Dorman. M. Emre, səh. 300-303; həmçinin bax. Volter, "Felsefe Sözlüğü", tərcümə edən: Lütfi Ay, M.E.B. Yayınları, İstanbul, 2001.

qəribədir. Deizmdə ruhun varlığına inam məsələsinə gəldikdə isə, demək olar ki, XVII əsrdə bu günkü təməlləri qoyulan deizm ruh haqqında həmin əsrdən bu günə qədər eyni əsaslar üzərindədir. Halbuki ruh barədə elmi araşdırmalar yalnız XX ərsdə həyata keçirilmişdir. Odur ki, bu məsədə deizmin istər ateist, istərsə də dindar təfəkkürü ilə tənqidə çox açıq olduğunun şahidi oluruq. Dindar kimsə deyə bilər ki, ruha Allah onun barəsində xəbər verib deyə inanır, halbuki deistlər gah müasir elmə əsaslandıqlarını deyir, gah da bir şeyə əvvəlcə inanıb, sonra ona “elmi dəlil” axtarırlar. Heç olmasa möminlərin əlində ilahi məsdər var. Deistlər isə isə dindarların iman gətirdikləri bəzi məsələlərə inandıqları üçün yox, ruh barədə dediklərinin özlərinə məxsus əsas qaydalara və deizm nəzəriyyəsinə zidd olduğu üçün tənqid edilirlər. Məsələ burasındadır ki, deistlər elmi sübut olmadan heç nəyi qəbul etmədiklərini deyirlər və XVII əsrdə ortaya atılmış nəzəriyyə də məhz insan beyninin bəhrəsi olub. Deistlərin çox qismi belə ruh barədə düzgün mövqe sərgiləyib onun varlığını qəbul edə bilərlər, fikir bildirmək istədiyimiz məsələ bu deyil. Sadəcə demək istəyirik ki, axirətə inanmayan bir fəlsəfi görüşün ruha inanması çox absurd səslənir. Ruha inanırlarsa, deməli axirətə də inanmalıdırlar. Həmçinin, əgər axirəti inkar edirlərsə, o zaman ateistlər kimi ruhun varlığını da qəbul etməməlidirlər. Təkrar edirik, söhbət ruhun varlığının doğru və ya yalnış inanc olmasından getmir. Biz müsəlmanlar da ruhun varlığına inanırıq. Əgər bu məsələdə ateistlərin görüşü batildirsə, deistlərin də görüşləri ziddiyyətlidir. Ateistlərin düşüncələri yalnış olsa belə, onlar öz mövqelərinə zidd iddialar irəli sürmür.

Onlar nə axirətə, nə də ruha inanırlar. Biz müsəlmanlar isə axirətə də, ruha da inanırıq. Deistlər isə ruha inanır, axirətə isə inanmır və beləliklə, qeyb aləmini həm inkar edir, həm də təsdiqləyirlər. Biz bu məsələni deizmin ən böyük ziddiyyətlərindən hesab edirik. Ateistlərin düşüncələrində də çoxsaylı ziddiyətlər mövcuddur, lakin onlar öz təməl prinsiplərinin əleyhinə gedərək materializmdən kənara çıxmırlar. Lakin deistlər ruhun varlığına inanıb axirətə inanmamaqla həm müsəlmanların, həm də ateistlərin əsaslı tənqidinə tuş gəlirlər. Deistlər iddia edir ki, “ruha inanmaq tanrıya inanmaqla əlaqəlidir”. Biz isə cavab veririk ki, Axirətə, mələklərə, peyğəmbərlərə, müqəddəs kitablara inanmaq da Yaradana inanmaqla əlaqəlidir. Bəs elə isə bütün bunlara niyə iman gətirmirsiniz? Deist etiraz edərək deyə bilər ki, biz “ruh” dedikdə insanın “şüurunu” qəsd edirik. O zaman cavab veririk ki, əvvəla bu mövzuda “ruh” kəlməsindən istifadə etməməlisiniz. İkincisi isə, deistlərin ruh haqqında fikir ayrılığı onlara bu ziddiyyətləri bildirməyimizə əngəl törətmir. Bir sıra deistlərin ruhu “insan şüuru” adlandırması isə tamamilə başqa bir mövzudur. Hətta düşünürük ki, “bu şüurun əbədiliyinə, ölməməsinə inanmağın özü belə maddiyyatçı deistlərin əsaslarına ziddir. Ateistlərin fikrinə görə isə bu, “deistlərin xurafata inanmasıdır”.

Sosial şəbəkələrdən birində bir deistin reinkarnasiya haqqında paylaşımına, ruha olan inancla bağlı verdikləri qəribə izahatlara maraqlı şərhlər yazılmışdı. Belə ki, həmin deist reinkarnasiyanın hinduistlərə xas inanc olduğunu, öz subyektiv fikrinə görə isə ruhun varlığına və onun “dövr” etdiyinə inandığını deyirdi. Əslində bu elə

reinkarnasiyanı (tənəsux etiqadı) təsdiqləməkdən başqa bir şey deyildi. Xülasə, bu artıq tamamilə başqa mövzudur. Daha sonra bir oxuyucu deistin yazdıqlarına şərh verərək "əvvəlcə ruhun nə olduğunu öyrən, sonra ona inanarsan" yazmışdı. Apponenti ondan "ruhun nə olduğunu bilirsinizmi?" deyə soruşduqda, böyük ehtimalla ruhun mahiyyəti barədə deizm paradiqmasındakı ixtilaflar onun gözünün qabağına gəldi və o, belə cavab verdi: "Bilsəydim nə var idi ki…amma fiziki bədənimdən başqa bir "mən"in də olduğunu görürəm". "Köməkçi" deistin cavabından sonra "admin deistə" sual ünvanlandı:

Şərh yazan: - "Ruhun varlığına inanırsınızmı?"

Deist: - "Bəli".

Şərh yazan: "Sübutunuz varmı?"

Deist: "Mən öz inandıqlarıma görə kiməsə sübut təqdim etmək məcburiyyətində deyiləm".

Əslində bu yazışmanı nəql etməkdə məqsədim ruhun mövcudluğuna inanan deistin özünün də hansı məqsədlə ruha inandığını bilmədiyini sübut etmək və ya müsəlmanların inandığı bir məfhumu niyə təsdiqlədiyini sorğulamaq deyil. Sadəcə olaraq elmlə öz inancını fərqləndirə bilməyən deistlərin düşdüyü ziddiyətləri, hədəfsizliyi göstərmək istəyirik. Onlar müsəlmanları nələrəsə inanmaqda, hər hansı davranışlarda ittiham edirlər. Lakin özləri eynilə ateistlər kimi "materializm", "təcrübi elm" çərçivəsindən çıxa bilmir və həyata təcrübi elm prizmasından baxdıqları halda "ruhu bu çərçivəyə daxil etmirlər".

Qeyd etmək lazımdır ki, tədqiqatçılar bəzi deistlərin "reinkarnasiyaya"[98] inandıqlarını da vurğulayıblar. Bu, sosial şəbəkələrdə deistlərin yazılarında müşahidə etdiyimiz bir məsələdir.

## Deistin İslam qorxusu - İslamofobiya

İslamofobiya (islamophobia) müasir termindir və iki sözdən ibarətdir: "İslam" və "fobiya". "Phobia" sözü "qorxu" kimi tərcümə olunur və bir şeyin fərz edilən təhlükəsindən şüursuz şəkildə qorxmaq və ya qorxutmaq mənasını verir. Oksford İngilis dili lüğətində "Islamophobia" terminınə bu tərif verilib: "İslamofobiya: İslama qarşı olan qorxu və ikrahdır. (İslamı və müsəlmanları) siyasi bir qüvvə kimi görmək, müsəlmanlara qarşı dözümsüzlük və ayrıseçkilik nümayiş etdirməkdir"[99].

---

[98] **Reinkarnasiya**: İslam ədəbiyyatında bu inanc "tənəsuxul-ərvah" və ya "tənəsux" adlanır. Qədim hindlilərin bu etiqadı qısaca olaraq bu şəkildə idi: "Reinkarnasiya - ruhun bədəndən çıxdıqdan sonra bu dünyada başqa bir bədənə daxil olmasıdır". "ər-Ruh fid-Diyənət əl-Kitəbiyyəti val-Vad'iyyəti", doktor Əli ibn Səid əl-Ubeydi, 3-cü silsilə, səh. 120. Bu inanca əsasən insan öldükdən sonra onun ruhu o dünyaya getmir, başqa heyvanların, hətta, həşəratların belə bədəninə daxil olaraq və növbəti həyatı yaşayır. Yaxşı insanların ruhu yaxşı, pis insanların ruhu isə pis heyvanların bədəninə daxil olur və s. Bu mövzunun müzakirə ediləcək çoxsaylı təfsilatları var. İslama görə bu əqidə batildir və insanın öldükdən sonra dirilərək əməllərinə görə haqq-hesab verəcəyi, cənnət və ya cəhənnəmə daxil olacağı inancına ziddir.

Deistlərin İslama münasibətdə düşdükləri yalnışlardan biri də, deizm nəzəriyyəsinin fəlsəfi sərhədlərini aşaraq "aqressiv deizmə" yuvarlanmalarıdır. Bu mövzu istiqamətində araşdırma həyata keçirənlər arasında universitet müəllimləri də var. Onlar etiraf edir ki, tələbələri arasında deizmin aqressiv formasının yayıldığının şahidi olublar. Dinə və dinlərə qarşı bu aqressivlik xüsusən bəzi gənclər arasında "İslamofobiya" meyllərinin şiddətlənməsi ilə nəticələnmişdir. Bizim də şəxsən dialoq qurduğumuz, söhbətlər apardığımız deistlərdə də eyni problemləri müşahidə etmişik. Əslində bütün bunlar deizmin dinsizlik cərəyanlarından biri kimi ortaya atıldığının daha bir əyani sübutudur. İlk zamanlar deizm dinlə dinsizlik arasında orta yol kimi təqdim olunsa da, məqsəd din düşmənçiliyi və din əleyhinə mübarizəni fərqli simada davam etdirməkdir. Əslində bu "islamofob" düşüncə tərzinin İslamla bağlı narahatlığı, İslama nifrəti, ateistlərin İslamla bağlı düşüncələrindən heç nə ilə fərqlənmir. Bəzi deistlərin deizmə üz tutmasının səbəbi müxtəlif olsa da, onlarda İslama qarşı aqressiya dərəcəsi ateistlərə nisbətən az olsa da, deistlər İslamofobiyaya xidmət edən şübhələrin bir çoxuna düçar olublar. Deizmin qarışıq tarixində xristianlığa bələd olub İslamı bilmədən tənqid etmək, İslam dinini şərqşünasların yalnış, əsassız bilgilər və şübhələrlə dolu kitablarından öyrənmək, tarixə adı "zındıq"[100] kimi

---

[99] "Oxford English Dictionary – Islamophobia. Oxford University Press.

düşmüş şəxsləri İslam alimi kimi qəbul etmək, İslamı qərb fəlsəfəsi prizmasından qiymətləndirmək, son dövrlərdə isə qərb mətbuatında İslamofobiya propoqandasının güclənməsi və s. kimi səbəblər İslam barədə qorxuları artırmışdır. Deistlərin İslam qorxusu ateistlərin İslam qorxusundan elə də fərqlənmir. Çünki onları din əleyhinə mübarizəyə sövq edən amillər təxminən eyni olduğu üçün, bir çox hallarda bu emosional mövqeləri onların insaflı şəkildə və elmi ədalətlilik prinsipinə riayət edərək araşdırmalar aparmasına mane olur, nəticədə isə onların həqiqətləri öyrənməsi və bilməsi ya gecikir, ya da qeyri-mümkün olur. İslamofobiya və onun tarixi, yaranma səbəbləri, dünyadakı təzahürləri barədə daha ətraflı məlumat əldə etmək üçün "İslamofobiya - Qərbin İslam düşmənçiliyinin təzahürü" adlı iki hissədən ibarət məqaləmizi oxumağı tövsiyə edirəm[101].

---

[100] **Zındıq**: "fars" sözü olub ərəbləşmiş sözlərdəndir. Fars dilində "zəndəh kərd", yəni "maddi həyata inanıb ruh (qeyb) aləminə inanmayan" deməkdir. Bəzi alimlər "zındıq" dedikdə ateistləri qəsd etmişlər. Bəzi alimlər isə zahirən müsəlman kimi görünüb, daxildə isə dini təhrif edənləri "zındıq" adlandırmışlar. İmam Nəvəvi (Allah ona rəhmət etsin) demişdir: "Zındıq, dinə tabe olmayandır, hər bir zındıq münafiqdir" ("Fəthul-Bəri", 12/271).

[101] Məqalənin birinci hissəsinin linki:
www.tovhid.info/islamofobiya-qerbin-islam-dusmenciliyinin-tezahuru-1-ci-hisse/
Məqalənin ikinci hissənin linki:
www.tovhid.info/islamofobiya-qerbin-islam-dusmenciliyinin-tezahuru-2-ci-hisse/

## İslam haqdırsa, niyə müsəlmanlar ixtilaf edir?

**Deistin sualı:** "Əgər İslam dini haqdırsa, müsəlmanlar doğru yoldadırsa, onda niyə onlar ixtilaf edir? Əgər onlar haqq yoldadırsa, bu qədər ixtilaflar niyə var?"

**Cavab: birincisi, digər peşə və ixtisas sahibləri də ixtilaf edir;** həyatın bütün sahələrində ixtilaf mövcuddur. İxtilafa düşən yalnız dindarlar deyil. Dünyəvi alimdən tutmuş fəhləyə qədər bütün peşələrin mənsubları ixtilaf edir. Hətta təcrübi elmlə məşğul olan dünyəvi alimlər öz aralarında ixtilaf edir. Ümumiyyətlə isə fərdi inanc sistemlərinə qulluq edən bütün insanlar - fəlsəfəçilər, ateistlər, deistlər, aqnostiklər, liberallar, demokratlar, sekulyaristlər, praqmatistlər, humanistlər, qlobalistlər, bütün peşə sahibləri - şairlər, jurnalistlər, biznesmenlər, müğənnilər, hətta bazarda ticarətlə məşğul olan sıravi insanlar belə ixtilaf edir.

Fəlsəfəçi düşünür ki, fəlsəfəni bilməyən özünü dərk etməyib. Digər fəlsəfəçi isə fərqli cür düşünür. Onlar fəlsəfi düşüncələrində ixtilaf edirlər. Eləcə də eramızdan əvvəl fəaliyyət göstərmiş qədim fəlsəfə məktəblərinin mütəfəkkirləri daim bir-biri ilə münazirə etmiş, biri digərinin fikirlərini tənqid atəşinə tutmuşdur.

Bəzi ədəbiyyatçılar həyatın şeir, qəzəl, poema və s.-dən ibarət olduğunu düşünür. Bəziləri isə ömrünü meyxana deməklə keçirir və bunun əsl ədəbiyyat olduğunu düşünür. Yeni ateist ədəbiyyatçılar isə köhnə şairlərin ədəbi irsinə dəyər vermir, əxlaq normalarını aşmaqla

ədəbiyyatı zirvəyə qaldıracaqlarını düşünür, xalqın böyük şairlərini nifrətlə yad edir, onları ədəbi xadim kimi qəbul etməyərək alçaldırlar.

Jurnalistlər də iki qismə bölünüb: xəbərləri kütləyə doğru çatdıran insaflı jurnalistlər və baş verən hadisələrə, gündəmdə olan məsələlərə münasibətdə qərəzli mövqe tutmaqla yanaşı ciblərini vicdanlarından önə çəkən jurnalistlər.

Astronomlar da ixtilaf edir; onların əksəriyyətinin dinlə heç bir əlaqəsi yoxdur. Lakin son illərdə yerin düz olduğunu deyən astronomlarla, yerin kürə şəklində olduğunu deyən astronomlar arasında ciddi fikir ayrılığı mövcuddur. Hələ onların göy cisimləri ilə bağlı ixtilaflarını bir kənara qoyuruq.

Siyasətçilər də ixtilaf edir; tarixdə baş vermiş və müasir dövrdə mövcud olan siyasi ixtilafları saymaqla qurtarmaz. Siyasi şərhçilərin proqnozları, ayrı-ayrı ölkələrin iqtidarçıları və müxalifətçiləri arasında olan ixtilaflar, üstəlik müxalifətçilərin öz aralarında baş verən ixtilaflar hər biri müxtəlif fikir ayrılıqlarına əsaslanır.

Tarixçilər də ixtilaf edir; onlar bəzən bir məsələ ilə bağlı dörd-beş fikir səsləndirir. Yaxşı ki, tarixçi dindar olmaq anlamına gəlmir. Yoxsa görəsən onlar dindar olsaydılar, bu ixtilafları qabardar, şişirdərdilərmi? Niyəsə ixtilaf dedikdə yalnız müsəlmanların fikir ayrılıqları yada düşür.

Cəmiyyətin düşünən beyinləri, ziyalıları bir çox məsələdə ixtilaf edirlər. Təcrübi elmlə məşğul olan dünyəvi alimlər çoxsaylı nəzəriyyələr ətrafında ixtilaf edirlər. Müəyyən bir dövrdə hər kəsə "mütləq həqiqət" kimi görünən hər hansı "elmi nəzəriyyə" bir neçə il sonra digər alimlər tərəfindən rədd edilir və əvəzində başqa bir nəzəriyyə müdafiə olunur. Bəzi alimlər elm sahələrini yalnız təcrübi elmlərlə məhdudlaşdırır, bəziləri isə faydalı bütün elmləri də elm hesab edirlər.

Ər-arvad, bacı-qardaş və s. kimi bir ailənin üzvü olan insanlar da öz aralarında ixtilaf edirlər. Öz ailə üzvləri ilə daim münaqişə içində yaşayan bəzi insanlar utanmadan müsəlmanları ixtilafa düşməkdə ittiham edirlər.

Ateistlər də ixtilaf edir; onlar kainatın yaranması ilə bağlı müxtəlif fikirlər səsləndirirlər: bəziləri kainatın əzəli olduğunu, bəziləri sonradan bir partlayış nəticəsində yarandığını deyir, bəziləri isə "çoxsaylı kainatlar" (Multiverse) nəzəriyyəsini irəli sürür. Həmçinin avropalı ateistlər darvinizmi dəstəkləyir, Şimali Koreya mənsubları olan ateistlər isə darvinizmi inkar edir. Müasir ateistlərdən Kapitalizmi müdafiə edib Kommunizi və Sosializmi pisləyənlər az deyil. Bir qrup kommunist ateistlər də müasir ateist gənclərlə bir çox mövzularda ciddi ixtilaflar edirlər. Bir sözlə, nə keçmiş tarix boyunca, nə də müasir dövrdə ateistlər ortaq bir fikirə gələ bilməyiblər.

Deistlər də ixtilaf edir; əksər deistlər ruhun varlığına inanır. Bəzi deistlər deizmin banisi Herbert Çerberi kimi

axirətə inansa da, əksər deistlər axirətin mövcudluğuna iman gətirmir. Ruh və axirət mövzularında, həmçinin Allahın kainata təsiri, müdaxiləsi, bu təsirin hansı çərçivədə olduğu və miqyası barədə deistlər arasında böyük ixtilaflar var.

Uzun sözün qısası, dindar olmayan bir çox insanlar ixtilaf edir; onlardan bəzisi cəmiyyətin islahı üçün liberalizmin, bəzisi sekyularizmin, bəzisi praqmatizmin, bəzisi demokratiyanın, bəzisi isə kommunizmin yaxşı olduğunu iddia edir.

Yəni xülasə odur ki, ixtilaf etmək insanın fitrətində vardır. Odur ki, yaratdıqlarını ən gözəl şəkildə tanıyan Allah buyurur:

“İnsan isə ən çox mübahisə edəndir”[102].

Deməli, insan mübahisə etməyi xoşlayır. Fikir bildirmək, etiraz etmək, tənqid etmək insana xas təbii hallardır. Lakin insanın çox mübahisə etməsi, mübahisəyə meylli olması ayədən də görünür və insan özü də buna şahiddir.

**İxtilafların səbəblərindən bəziləri aşağıdakılardır:**

**a)** insanın fitrəti;

---

[102] “əl-Kəhf” surəsi, 54.

**b)** paxıllıq, kin-küdurət və digər qəlb xəstəlikləri. Buna dəlil isə Quranın bu ayəsidir: “İnsanlar tək bir ümmət idi. Allah onlara müjdə verən və qorxudan peyğəmbərlər göndərdi, onlarla birlikdə haqq olan kitab nazil etdi ki, insanlar arasında onların ixtilafa düşdükləri şeylərə dair hökm versin. Halbuki kitab verilmiş şəxslər özlərinə açıq-aydın dəlillər gəldikdən sonra aralarındakı paxıllıq üzündən ixtilafa düşdülər. Allah isə Öz icazəsi ilə iman gətirənləri ixtilafda olduqları məsələlərdə haqqa yönəltdi. Allah istədiyini düz yola yönəldər”[103].

**Digər səbəbləri isə müxtəsər şəkildə qeyd edəcəyik inşəAllah:**

**c)** müxtəlif xarakterli insanların bir-biriylə anlaşa bilməməsi;

**d)** insanın öz havasına tabe olaraq hər hansı bir məsələdə haqqı axtarmaq əvəzinə nəfsinə xoş gələn fikirləri müdafiə etməsi;

**e)** ixtilaf edən tərəflərin ixtilaf etdikləri məsələnin həqiqətini bilməmələri;

**f)** liderlik etmək, şöhrət sevgisi və ya millətçilik davaları;

**g)** müəyyən şəxslərin və ya fəlsəfi cərəyanlarının fikirlərinə təəssübkeşlik etmək;

---

[103] “əl-Bəqərə” surəsi, 213

**h)** dəlilsiz-sübutsuz və kor-koranə şəkildə əvvəlki nəsilləri təqlid etmək;

**i)** insanların müxtəlif anlayışlara sahib olması.

İxtilaf səbəblərini çoxaltmaq olar, lakin məqsədimiz bu səbəblərin sadalanması deyil. Çatdırmaq istədiyimiz məqam odur ki, nə qədər ki, insanlar mövcuddur və nə qədər ki, bir-birilə ünsiyyətdədir, ixtilaflar da bir o qədər mövcud olacaqdır.

**İkincisi: İslam dinində ixtilafa münasibət necədir?**

Uca Allah Qurani-Kərimdə buyurmuşdur: "Əgər Rəbbin istəsəydi, insanları vahid bir ümmət edərdi. Amma onlar elə hey ixtilafdadırlar"[104].

Bu ayədə Uca Allah sadəcə müsəlmanların ixtilaf etdiyini bildirmir, əksinə, bütün insanların ixtilaf etdiyini buyurur. Yəni müxtəlif beyinli və müxtəlif xarakterləri insanlar mövcud olduqca, ixtilaflar da mövcud olacaq.

İslam dinində ixtilaf yaxşı hal hesab olunmur. Odur ki, Allah Quranda müsəlmanlara ixtilafa düşməyi qadağan edərək buyurur:

"Bir-birinizlə mübahisə etməyin, yoxsa, ruhdan düşər və zəifləyərsiniz"[105].

---

[104] "Hud" surəsi, 118.
[105] "əl-Ənfal" surəsi, 46.

Bu ayədə Allah ixtilaf etməyin müsəlmanların zəifləməsi ilə nəticələnəciyini açıq-aydın şəkildə bildirir.

Bəs ixtilafa düşdükdə nə etməliyik? Bu suala da Quran ayəsi cavab verir:

“Əgər bir şey haqqında mübahisə etsəniz, Allaha və Axirət gününə inanırsınızsa, Allaha və Onun Elçisinə müraciət edin. Bu, sizin üçün daha xeyirli və nəticə etibarilə daha yaxşıdır”[106].

Başqa bir ayə də ixtilafı, parçalanmağı qadağan edir: “Hamınız Allahın ipindən möhkəm yapışın və parçalanmayın! Allahın sizə olan nemətini xatırlayın ki, siz bir-birinizə düşmən idiniz, O, sizin qəlblərinizi birləşdirdi və Onun neməti sayəsində bir-birinizlə qardaş oldunuz”[107].

Göründüyü kimi İslam dini ixtilafı qadağan edir, ittifaqı və birliyi isə əmr edir. Bir çox din xadimləri bu ayəyə əməl etmir. Çünki insanlar ixtilaf etdikləri zaman Qurana və peyğəmbərin sabit hədislərinə əməl etsələr, çox ixtilaflardan xilas olardılar.

Lakin ixtilaf qaçınılmazdır. Yuxarıda da qeyd edildi ki, dinlə əlaqəsi olmayan sahələrdə də ixtilaflar mövcuddur. Muhəmməd peyğəmbər ﷺ yəhudilərin 71, xristianların

---

[106] “ən-Nisə” surəsi, 59.
[107] “Ali İmran” surəsi, 103.

72, müsəlmanların isə 73 firqəyə bölünəcəklərini, birindən başqa hər birinin cəhənnəmə gedəcəyini buyurmuşdur. Sonra isə Peyğəmbər yetmiş üç firqədən kimlərin nicat tapacağını bəyan edərək demişdir: “Bu gün mən və səhabələrim hansı yol üzərindəyiksə, o yolla gedənlər nicat tapacaqlar”[108].

Peyğəmbər ümmətindən hər kəs (yetmiş üç firqənin hər biri) əvvəl-axır cənnətə düşəcəkdir. Lakin bu yalnız onlar günahlarından təmizləndikdən sonra baş verəcəkdir. Allaha və Onun elçisinə iman gətirmiş kəslərə zülm edilməyəcəkdir. Hər kəs öz əməlinin qarşılığını alacaqdır. Yetmiş üç firqə arasında nicat tapmış bir firqə isə birbaşa cənnətə girəcəkdir. Onlar peyğəmbərin çatdırdıqlarına xurafat, mövhumat qatmadan onun və səhabələrinin yolu ilə gedənlərdir. Peyğəmbəri ﷺ öz gözləri ilə görmüş əhli-beyti də onun səhabələrindəndir.

**Üçüncüsü:** hər hansı bir sahədə ixtilafların üz verməsi həmin sahənin əlverişsiz, faydasız və ya batil olması anlamına gəlmir.
Məsələn, əgər kimya, riyaziyyat və tibb elmlərinin müxtəlif sahələrində ixtilaf var deyə o sahələri tərk etsək, o zaman gərək bütün elm sahələrini tərk edək. “Biz ixtilafa düşməyən elm istəyirik” desək, ağıl sahibləri buna gülər. Çünki bəzən ixtilaf, tənqid və s. kimi ünsürlər elmi mövzuların daha dəqiq araşdırılmasına xidmət edir. Məsələn, əgər müsəlmanlar arasında “qəzavü-qədər”[109]

[108] “Sünən ət-Tirmizi”, 2641; Abdullah ibn Amrın rəvayəti.

mövzusunda ixtilaf olmasaydı, bu gün İslam alimləri bu mövzularda bizə doğru İslami mövqe sərgiləyən daha az kitablar qələmə almış olardılar. Lakin bu mövzuda ixtilaf edən “qədərilər”[110] və “cəbrilər”[111] kimi firqələr peyda olduqda, alimlər əsl İslamın movqeyini, doğru rəyi ortaya qoyan çoxlu sayda əsərlər yazaraq həqiqəti bəyan etdilər. Bununla da həmin firqələr tarixin qaranlığına qərq oldular və haqq açıq-aydın şəkildə insanlara bəyan

---

[109] **Qəzavü-qədər**: “tale”, “qismət” mənalarını verir. Hər bir müsəlmanın qəzavü-qədərə iman gətirməsi vacibdir.

[110] **Qədərilər firqəsi:** Məabəd əl-Cuhəni, Ğeylan əd-Diməşqinin tərəfdarları, Vasil ibn Atanın, Amr ibn Ubeyd (mötəzilələrdən) və onlarla razılaşanlardır. Adları çəkilən şəxslər qədərilər firqəsinin qabaqcıllarıdır. Onlara “qədərilər” deyilməsinin səbəbini İbn Quteybə izah edərək demişdir: “Çünki onlar qədəri özlərinə nisbət etmişdirlər”. (“Təvilu Muxtələfil-Hədis”, İbn Quteybə, səh. 78). Onların qədəri özlərinə nisbət etməsi Allahın yazdığı qədəri tamamilə inkar etmələri deməkdir.

[111] **Cəbrilər firqəsi:** bu firqə mənsbubları qədəri isbat etmək məsələsində həddi aşanlardır. Onlar qədəri isbat etməkdə həddi o qədər aşmışdılar ki, insan iradəsini, gücünü və seçim haqqını da tamamilə inkar etmişdilər. Cəbrilər deyirdi ki, insan heç bir hərəkəti öz istəyi ilə yerinə yetirmir, əməlləri məcbur olduğu üçün edir. Təbii ki, bu etiqadlar yalnış idi və alimlər hər iki firqənin irəli sürdüyü fərziyyələrin xətalı olduğunu bəyan etmişdilər. (bax: “əl-İman bil-Qadai vəl-Qədər”, doktor Muhəmməd ibn İbrahim əl-Həmd, səh. 269). Doğru olan etiqad isə bu iki firqənin mövqeyi arasındadır: insan nə mütləq iradə sahibi, nə də mütləq ixtiyar sahibi deyil. İnsan varlı və ya kasıb olacağını, xəstəliyə düçar olub-olmayacağını, başına bəlalar gəlib-gəlməyəcəyini və ya öləcəyi tarixi, günü, saatı bilmir və bu onun ixtiyarında deyil. Lakin insan həmçinin bir çox şeyləri öz ixtiyarı ilə edir. Yuxarıda adları çəkilən hər iki firqə məsələnin bir tərəfini qabardıb ifrata düşməklə həddi aşmışdır. Haqq isə bu iki mövqeyin ortasındadır.

oldu. Bu kimi misalların sayı çoxdur, lakin bu qədərilə kifayətlənirik.

**Dördüncüsü: bu dünyada daim bir-birinə zidd olan məfhumlar mövcuddur:**

Bu da dünyanın imtahan qayələrindən biridir. Bu əks məfhumlar olmasaydı, dünyanın marağı qalmazdı. Dünyamıza rəng qatan məhz bu əks məfhumlardır. Bunlara gecə-gündüz, xeyir-şər, acı-şirin, gözəl-çirkin, sevgi-nifrət, varlı-kasıb, yaş-quru, ağıllı-səfeh ağ-qara, doğru-yalan, yaxşı-pis, arıq-kök, uzun-qısa və s. saydıqca bitməyən əks məfhumlar aiddir. İttifaq-ixtilaf əks məfhumlarını da buraya əlavə etdikdə aydın olur ki, ittifaqın qədrini bilməyən kəs ixtilafın zərərini də anlamaz. İnsana dünyada xeyir və şər qismində çoxlu sayda imtahan vəsilələrinin olduğunu anlamağa imkan verən bu əks məfhumların siyahısını uzatdıqca uzatmaq olar. Məsələn, "gənc" və "qoca" kimi bir-birinə əks məfhumlara nəzər yetirdikdə, insan anlayır ki, hər şeyin bir başlanğıcı olduğu kimi, bir sonu da var.

**Yekun olaraq bu məsələdən çıxarılan nəticələr bunlardır:**

● İslam dini ixtilafı qadağan edir.
● Bütün insanlar ixtilafa düşür, bütün peşələrin, bütün ixtisasların və bütün sahələrin mənsubları olan insanlar arasında ixtilaflar mövcuddur. Müxtəlif xarakterə və müxtəlif səviyyəyə malik insanların sayı nə qədərdirsə, ixtilafların da sayı bir o qədərdir.

● İxtilafın səbəblərini dərk etmədən ixtilafı dəlil gətirmək düzgün deyil.
● Hər hansı bir sahədə ixtilafın olması heç də o sahənin bəşəriyyətə faydalı olmadığı anlamına gəlmir.
● Bu dünyada daim bir-birinə əks məfhumlar mövcuddur. Bu da dünyanın imtahan qayələrindən biridir. Bu əks məfhumlar olmasaydı, dünyanın heç bir marağı olmazdı. Bu əks məfhumlar dünyamıza rəng qatır.

## Din hər şeyi haram edir?

Bəzi insanlar dindən uzaq olduqları üçün özlərinə təskinlik vermək və öz həyat tərzlərinə bəraət qazandırmaq üçün deyirlər: "dində hər şey haramdır, din hər şeyi haram edir". Bu insanlar bilməlidir ki, İslam dini yalnız "haramlardan" ibarət deyil. İslam dinində qadağalar olduğu kimi, əmrlər də, bəyənilən əməllər də, bəyənilməyən əməllər də var. Mübah (icazəli) əməllər isə bunlardan qat-qat çoxdur. Əslində şəriətdə bir şeyə qadağa gəlmədikcə onun əsli icazəlidir. Aşağıda qeyd edəcəyimiz ilk ayə də bu barədədir. Bilmək lazımdır ki:

**1.** Din xeyir olanı əmr edir, zərər olanı qadağan edir. Dində hər şeyin haram olduğunu iddia edən insanlar belə deməklə hiyləyə əl atır. Çünki əksinə, Allahın haram etdiklərindən başqa dində hər şeyin əsli mübahdır (icazəlidir). Buna dəlil isə Qurani-Kərimin bu ayəsidir:

**“Məgər Allahın göylərdə və yerdə olanları sizə ram etdiyini, Özünün aşkar və gizli nemətlərini sizə bol-bol verdiyini görmürsünüzmü?”[112].**

Bir sözlə din nə xeyirdirsə, onu əmr edir, nə zərərdirsə, onu qadağan edir. Uca Allah Qurani-Kərimdə buyurur:

“O peyğəmbər onlara yaxşı işlər görməyi buyurar, pis əməlləri isə qadağan edər, onlara pak şeyləri halal, murdar şeyləri isə haram edər. Onların ağır yüklərini yüngülləşdirər və onları buxovlardan xilas edər. Ona iman gətirən, onu dəstəkləyən, ona kömək edən və onunla göndərilmiş nurun (Quranın) ardınca gedənlər isə nicat tapanlardır”[113].

İslam dini insanın dinini, ağlını, namusunu, canını, malını, nəslini qoruyur. Bu, dinin əsas məqsədlərindəndir. İslam dinindən anlayışı olmayan insanlar haramların əsas məqsədlərindən birinin insana zərəri olan şeylərin qadağan edilməsi olduğunu dərk etməkdə acizdirlər. Yəni bu məqsəd əslində insanın xeyrinədir. Zərərli olan şeylərə - insanın ağlını başdan çıxaran, onu nalayiq hərəkətlər etməyə sövq edən, insanlar arasındakı münasibətləri korlayan bir çox şeylər daxildir. Haramlar məsələsində dinə etiraz edənlər əslində bu haramların əksəriyyətinin yolverilməz olduğu ilə razıdırlar. Məsələn, dostun sənə yalan danışdıqda qəzəblənirsən. Yoldaşın sənə xəyanət etsə, bunu qəbul

---

[112] “Loğman” surəsi, 21.
[113] “əl-Əraf” surəsi, 57.

etməzsən. Oğlun oğurluq etsə, onu qınayarsan. Elə İslam da sənə və başqa insanlara bu şeyləri qadağan edir. Səni guya qane etməyən azsaylı haramları isə onlara öyrəşdiyin üçün artıq halal saymağa, hətta "haram olmadığını" iddia etməyə başlamısan. Necə ki, məsələn, sən narkotik maddələrin zərərini bilib onlardan uzaq durursan, uzaq dura bilməyənlər isə min bir bəhanə ilə özünə bəraət qazandırmağa çalışır. "Dində hər şey haramdır" iddiasını edənlər əslində dindəki əksər haramların insanın və cəmiyyətin xeyrinə olduğunu çox gözəl bilir. Anlamaq istəmədikləri məsələlər isə yalnız özlərinin aludə olduqları haram əməllərdir. Məsələn, əyyaş içkiyə görə, zinakar zinaya görə, oğru oğurluğa görə, qumarbaz qumara görə, siqaret çəkən isə siqaretə görə haramlara etiraz edir. Çünki hər biri öyrəşərək adiləşdirdiyi əmələ görə öz nəfsinə üzr axtarır. Bəzi insanlar səhvlərini boyunlarına alıb haram işlədiklərini etiraf etsələr də, bəziləri heç də pis iş gördüklərini düşünmürlər. Pis vərdişlərə daha çox aludə olanlar isə üstəlik dini ittiham edirlər. Qumarbaz insan başqasının bədbəxtliyi hesabına varlanır, din isə bunu qadağan edir. Deməli, varlanmağın asan yolunu tapan bir kəs rahatlıqla dinə qarşı çıxacaq.

**2 -** Din nəyi qadağan edibsə, bunun əvəzində başqa yol da göstərib. Yəni Allah qadağalar göndərməklə insanları heyrət və çaşqınlıq içində qoymayıb. Zina etmə - evlən, evlənməyə gücün çatmırsa - hələlik oruc tut. Sələmçilik etmə - halal ticarətlə məşğul ol. Uca Allah buyurur:

“Halbuki, Allah alış-verişi halal, sələmçiliyi isə haram etmişdir”[114].

Faizlə borca girmə - adi qaydada borc al, borc ver. Bu işi təmənna güdmədən gör. Faizə, sələmə qurşanan neçə-neçə insanlar bunun acınacaqlı nəticələrindən xəbərdardır.

**3 -** Bəzi haramların zərəri açıq-aydın, bəzilərinin zərəri isə illər sonra zahir olur. Bəzilərinin haramlığının hikməti isə insanlardan gizli saxlanılaraq axirətdə bəyan olacaqdır. Əksər haramlar insanın həm bu dünyası, həm də axirəti üçün zərərlidir. İslam dini öz ilahi metodlarıyla cəmiyyətə o haramlardan qurtulmaq üçün yardım edir. Dini əhkamlar günaha aludə olmuş insanın iradəsini gücləndirir və onu günahdan uzaqlaşdırır. Məsələn, narkotik maddələrə qurşanmış, siqaretə aludə olmuş, içki düşkününə çevrilmiş birinə güclü iman, iradə və əzmkarlıq təlqin edilir. Dinin aşıladığı bütün bu insani keyfiyyətlər günahları insana çirkin göstərir və onu bu kimi əməllərdən uzaqlaşdırır. Bu barədə Qurani-Kərimdə deyilir:

“Lakin Allah sizə imanı sevdirmiş, onu qəlbinizə gözəl göstərmiş, sizdə küfrə, günaha və asi olmağa qarşı nifrət oyatmışdır”[115].

---

[114] “əl-Bəqərə” surəsi, 275.
[115] “Hucurat” surəsi, 7.

**4 –** Günahlar kiçik və böyük olmaqla iki qismə bölünür. Böyük günahlar arasında da daha böyük günahlar var. Məsələn, Allaha şərik qoşmaq ən böyük günahdır. Elə günahlar var ki, insan bununla yalnız özünə zərər verir, elə günahlar da var ki, onları işləməklə insan həm özünə, həm də ümumilikdə cəmiyyətə zərər verir. Məsələn, qəsbkarlıq içki içməkdən daha ağır günadır. Amma bəzən də elə olur ki, içki içmək insanı qəsbkarlığa sövq edir.

**5 –** Günahların sayı sonsuz deyil – belə ki, məruf (bilinən, tanınan) günahları barmaqla da saymaq mümkündür. Lakin cəmiyyətdə əksər insanlar günahlara aludə olduğu üçün, sosial şəbəkələrdə və digər kütləvi informasiya vasitələrində dinin sanki hər şeyi haram etdiyi təlqin edilir. Zinakarlıq edən bir kəs bu günahını tərk edə bilmir və - Allah qorusun - əməlinin aludəçisi olubsa, günahı tərk edə bilməsə də, heç olmasa o günahın haram olduğunu etiraf etməlidir! Allaha and olsun ki, günahları halal hesab etmək insan üçün böyük təhlükədir! İnsan "heç nə olmaz" deyib hər hansı bir günahı halal hesab etməklə öz günahını qat-qat artırmış olur!

Günahların növlərinə gəldikdə isə, məsələn dil ilə edilən - yalan, qeybət, böhtan, aravuranlıq və s. kimi günahlar dində haram olduğu kimi, din əleydarları da bu əməllərə qarşı ikrah hissi duyur. Dinə əleyhinə düşmənçilik edənlər anlamalıdır ki, insana haram buyrulan şeylər zərərli və xəbis əməllərdir. Hər ölkədə vətəndaşların rifahına yönəlmiş qayda-qanunlar olduğu kimi, din də

insanın həyat tərzini və ümumilikdə bütün həyatını xeyirlə nizamlayan qanunlardan ibarətdir.

**6 –** Tarix boyunca bəzi firqələr "qəlbitəmiz" günahkarları razı salmaq üçün haramları halallaşdırıb, halalları isə haramlaşdırıblar. İnsanın halal-haram məsələsində özbaşına qərar verməsi icazəli deyil. Çünki Allahın adından yalan danışaraq nəyinsə halal, nəyinsə haram olduğunu deyən insan böyük məsuliyyət və təhlükə altına düşür. Bu barədə Uca Allah Qurani-Kərimdə buyurur:

“Dilinizin uydurduğu yalana əsasən: “Bu halaldır, o haramdır!”– deməyin, çünki Allaha qarşı yalan uydurmuş olursunuz. Şübhəsiz ki, Allaha qarşı yalan uyduranlar nicat tapmazlar”[116].

Bu mövzunu daha geniş şəkildə açaraq təfsilatlı misallarla izahlar vermək olardı, lakin ümid edirəm ki, bu qısa izahlarla da dində hər şeyin haram olduğuna dair iddiaların əsassız olduğu deistlərə və digərlərinə aydın oldu.

Bu həqiqətlərlə tanış olan hər kəsi Allaha dönməyə çağırıram. Özümüzü aldatmayaq. Əslində Allahın dinindən qaçmağınıza səbəb nəfsinizin istəklərinə uymaqdır və din sizə bu yolda əngəl kimi görünür. Məhz bu səbəbdəndir ki, barmaqla sayılacaq qədər az olan haramlar gözünüzdə böyüyür, şeytan isə tutduğunuz

---

[116] “ən-Nəhl” surəsi, 116.

yalnış yolu sizə gözəl göstərir! Allah sizə xeyir istəyir, siz isə ondan üz döndərirsiniz!

## Din insanları idarə etmək üçünmü uydurulub?

Yəqin ki, çoxlarınız bu barədə eşitmisiniz. Xüsusilə də Sovet İttifaqı dövründə bu şübhə ateistlər tərəfindən geniş şəkildə istifadə olunurdu. Bu gün isə deistlər öz təbliğatlarında bu şübhəyə tez-tez əl atırlar. Ümumiyyətlə bu şübhədən bəhs etdikdə iki məsələni parallel şəkildə müzakirə etmək daha doğru olardı:

**1 - İnsanlar dini özlərindənmi uydurublar?**
**2 - Din insanları idarə etmək üçünmü uydurulub?**

İndi isə məsələyə bir qədər geniş prizmadan yanaşaq:

**1 - Dini insanlar özlərindənmi uydurublar?**
**Cavab:** əslində bu mövzu adətən "din və dinsizlik" və ya "teizm, ateizm və deizm" mövzularının müzakirəsi zamanı ortaya atılan əsas mövzulardan deyil. Çünki, insanlardan bəziləri buna inanır, bəziləri isə inanmır və inanmaq və ya inanmamaq barədə qərarlar bir dəqiqəyə verilmir. Müəyyən bir qərara gəlmək üçün insanlar əvvəlcə bir çox məsələləri analiz edir, beyinlərini qurcalayan şübhələrə cavab tapmağa çalışır.
"De: "Haqq Rəbbiniz tərəfindəndir. Kim istəyir inansın, kim də istəyir inanmasın"[117].

---

[117] "əl-Kəhf" surəsi, 29.

Bu mövzunun müzakirəsində bəzən səthi dəlillər gətirilir və əsassız fərziyyələr irəli sürülür. Odur ki, öz fərziyyələrini əsaslandırmaqda aciz qalanların dinin insanlar tərəfindən uydurulması barədə fikirləri sadəcə iddia olaraq qalır. Öz iddialarına haqq qazandırmaq üçün onlar gah Şumer tarixinə müraciət edir, gah Quranda "xəta" axtarışına çıxır, gah da peyğəmbərin şəxsi həyatına müdaxilə edirlər. Çatdırmaq istədiyimiz əsas məqam bu xırdalıqlar deyil. Demək istədiyimiz odur ki, niyyəti ciddi, insaflı, ədalətli və obyektiv bəhs aparmaq olan din əleyhidarları əslində ateizm, deizm və aqnostizmin ziddiyyətli tərəflərini və puç olmuş nəzəriyyələrini də müzakirə obyektinə çevirməlidirlər.

Tarix boyunca müsəlmanların elmə verdikləri yüksək dəyər və elmin inkişafına verdikləri töhfələr, Ərəbistan çöllərində coşqun bir tərəqqi və elmin sürətlə yüksəlişi, bu möcüzəvi sıçrayış və çiçəklənmənin yalnız Ərəbistan yarımadası ilə məhdudlaşmayaraq bütün dünyanı öz təsir dairəsinə alması əslində bizə çox şey deyir. "Uydurma" adlandırılan dinin paytaxtı olan və bədəvi tayfaların məskunlaşdığı bir şəhərin qısa müddət ərzində bütün bəşəriyyətin paytaxtına çevrilməsi kiçik qüvvələrin əldə edə biləcəyi bir nailiyyət deyildi. Görəsən dövrün ən əzəmətli imperiyalarını məğlubiyyətə uğradan müsəlmanların gücü haradan qaynaqlanırdı? Görəsən onları qələbədən-qələbəyə aparan hansı qüvvə idi?

Sovet İttifaqı dövrünün ateistləri bu mövzu ətrafında nağıllar da uydururdular. Onlar insanları dinə təhrik edən

amillərdən danışır, bu məqsədlə müxtəlif fəlsəfəçilərə, tarixçilərə öz ixtisasları olmayan mövzularda dini tənqid etmək və ateizmi müdafiə etmək üçün yazılar yazdırırdılar. Sovet İttifaqı dövründə bir ara tarixçi, fəlsəfəçi və bioloqlar arasında din əleyhinə yazılar yazmaq dəbdə idi. Hətta vəzifəyə gəlmək, vəzifədə olanların gözünə girmək və başqa mənfəətləri naminə bu cür yazıları elmi əsaslardan tam uzaq şəkildə və elm çərçivəsindən kənara çıxaraq öz yazılarına dində olmayan məsələləri əlavə edənlər də az deyildi. Çünki bu kitabların yoxlanılması ilə məşğul olanların da dindən anlayışı elə onları yazanlar qədər idi. Xülasə, onlar bəşər övladını "dinə təhrik edən amil" kimi əsasən "insanların təbiət hadisələrindən qorxmaları" amilini irəli sürürdülər. Bu iddialar Karl Marks və Fridrix Engelsin kitablarında da yer alır və Lenin tərəfindən təbliğ edilirdi. Onların sözlərinə əsasən, insanlar zəlzələ, vulkan, ildırım və digər təbiət hadisələri, vəhşi heyvanlar qarşısında aciz və zəif olmalarını izah edə bilmirdilər. Odur ki, bütün bunların arxasında gözəgörünməz bir qüvvənin dayandığına, dünyada hər şeydən üstün bir gücün olduğuna, həmin gücün onları ətrafdakı vəhşi heyvanların hücumundan, günəşdən, aydan və dənizdən qoruyacağına inanmağa başlamışdılar[118].

Bəzi dinsizlər qorxu amilinə insanın ehtiyaclı və ya kasıb olmasını əlavə etsələr də, dindarlar arasında çoxlu sayda zəngin, imkanlı insanların olması həqiqəti bu

---

[118] Bax: "Dirasəət fil-Ədyən əl-Yəhudiyyəh vən-Nəsraniyyəh", səh. 27; Frenk Bayron Cevons, "Dinlər tarixinə giriş" kitabı.

iddianı alt-üst edir. İslam dini zəngin insanlara zəkatı əmr edir ki, onlar öz kasıb müsəlman bacı və qardaşlarına yardım etsinlər. Peyğəmbər ﷺ öz sahabəsi Muaz ibn Cəbəli Yəmənə göndərdikdə ona kəlimeyi-şəhadət və namaz barədə təlimat verdikdən sonra insanlara zəkat barədə də öyrətməyi əmr edərək buyurmuşdur: "Onlara öyrət ki, Allah onların mal-mülkünə zəkatı vacib etmişdir. Bu zəkat varlılardan toplanıb kasıblara verilməlidir"[119]. Beləcə, dinə təhrik edən səbəb kimi kasıblıq qorxusu amili də batil olur. İslamın ilk günləri kasıb müsəlmanların sayı çox ola bilərdi, lakin müasir dövrdə dünyanın hər yerində yaşayan milyonlarla varlı və ya orta təbəqəyə məxsus ehtiyacsız müsəlmanlar məhz fitrətlərinin, saf mənəviyyatlarının tələbi ilə İslam yolunu seçmişlər.

İnsanaları dinə yönləndirən amillərdən bəhs edən bəzi tədqiqatçılar bunu ictimai ehtiyaclarla, bəziləri ağılla, bəziləri isə yuxarıda qeyd olunan səbəblərlə əlaqələndirsələr də, həqiqi amil insanın fitrətidir. Bu kitabda artıq bəzi tədqiqatçıların həyata keçirdiyi mötəbər araşdırmaların nəticələrini qeyd etdik deyə, təkrara lüzum görmürük. Fitrət amilində ilahi vəhyə və peyğəmbərin sünnəsinə (hədislərə) əsaslanırıq. Çoxsaylı elmi tədqiqatlar və sosial eksperimentlər də fitrət amilini təsdiqləyir. Yəni insanları dinə meylləndirən səbəblər olaraq irəli sürülən faktorlardan elmi cəhətdən ən mötəbər və təcrübi faktlara əsaslananı məhz fitrət amilidir. Hətta insan beynində "ilahi genlərin"

[119] "Səhih əl-Buxari", 1395; Muhəmməd ibn İsməil əl-Buxari.

mövcudluğunu qeyd edən də qeyri-müsəlman alimləri olmuşdur. Bu barədə kitabımızın iki ayrı yerində söhbət açmışdıq.

**İkincisi,** unutmamaq lazımdır ki, təbiət hadisələrinin özü də Allah tərəfindən yaradılıb və bunu bilmək də insanı Allaha iman etməyə yönəldir. Yəni təbiət Ona qarşı deyil, Onun varlığına və Qüdrətinin böyüklüyünə bir dəlil olur.

**Üçüncüsü** isə, bilmək lazımdır ki, insanın Allaha inanması, onu psixoloji cəhətdən sakit, hüzürlu edir və onun ruhuna qida olur.

**Dördüncüsü** isə, dinsizlərin iddia etdiyi “kasıblıq”, “düşüncə darlığı”, “ictimai boşluq” kimi ünsürlərin Allaha imanla heç bir əlaqəsi yoxdur. Əksinə, tarix boyunca dindar nəsillər böyük mədəniyyətlərin əsasını qoymuş, böyük dövlətlərin təsisçisi olmuşlar. Bütün bunlar nə kasıblıq, nə “düşüncə darlığı”, nə də ictimai boşluqdan yaranan səbəblərlə hasil olmur. Bu göstəricilər şəxsdən şəxsə dəyişən bir haldır. Tam əksinə, dinsizlər özləri gözəl bilir ki, girdabına düşdükləri ictimai və mənəvi boşluq, qayda-qanunsuz həyat onları geri dönüşü çətin görünən mənəvi deqradasiyaya sürükləyib.

Həyatın mənasız olduğunu iddia edən, ictimai və əxlaqi dəyərləri puç edən “Nihilizm”, ancaq heyvani həzzlər üçün yaşamağı məqsəd görən “Hedonizm”, qadın və uşaqları dövlətin və insanların müştərək malı elan edən “Sosializm”, insanı heyvanlara bərabər tutaraq vaxtilə

Avropada "insan zooparkları"[120] təşkil etdirən "Sekyularizm"[121], yalnız mənfəəti düşünməyə çağıran "Praqmatizm"[122], Allahın əvəzinə insanların vicdanını meyar təyin edən "Humanizm"[123] və insanların kütləvi şəkildə məhv edilməsinə səbəb olmuş digər azğın cərəyanların hər biri dinsizliyin təkanı ilə meydana gəlmiş və zahirən insanlara gözəl göstərilmiş ideologiyalardan başqa bir şey deyildi. Birinci Dünya Müharibəsindən sonra meydana gəlmiş "Ekzistensializm" (1929) adlı cəryan insana bütün xarici təsirləri inkar edir, ona həyat düsturu və inanc olacaq bir yol göstərmir, özünə və insanlara qarşı inamsız edir, Allah və din məfhumunu inkar edir.

Mənasız həyat tərzini təcəssüm etdirən bu dinsizlik cərayanı insanı cəmiyyətə yararsız bir məxluqa

---

[120] Kitabın sonundakı haşiyələrdən birində bu barədə geniş məlumat verilmişdir.

[121] **Sekulyarizm**: Dini, həyatın bütün sahələrindən uzaqlaşdıran fikir sistemidir. Bütün sahələr cəmiyyətin təbiətinə və əqli-fəlsəfi əsaslarına söykənir, və cəmiyyətin ehtiyacları və istəyi üzərinə qurulur. ("əl-Vaciz fil-Məzəhib əl-Fikriyyə", səh. 198). İlk sekulyarist dövlət 1771-ci ildə Fransada qurulmuşdur. Avropada meydana gəlmiş və kilsəyə qarşı mübarizə aparan fəlsəfi cərəyanların - realizm, demokratiya, humanizm, praqmatizm, kommunizm və s. - demək olar ki, hamısı sekulyarizmi dəstəkləyir.

[122] **Praqmatizm**: Tərcümədə "mənfəətçilik" mənasını verir. Cərəyanın əsası XIX əsrin sonlarında amerikalı Çarlz Pirs (1839-1914) tərəfindən qoyulmuşdur. ("əl-Vaciz fil-Məzəhib Əl-Fikriyyə", səh. 95).

[123] **Humanizm** haqqında bu kitabın sonlarında "*Dinsiz də yaxşı insan olmaq olur*" *şübhəsinə cavab verilərkən ətraflı danışılmışdır.*

çevirmişdi. Bu cərəyan Avropa insanını dəyərsiz, heç bir əhəmiyyəti olmayan, özünə və insanlara qarşı inamsız bir cəmiyyət üzvü olmağa sövq edirdi. Avropada insan beyninin məhsulu olan dinsiz cərəyanlardan əlavə, cəmiyyətdə öz nüfuzunu bərpa etmək üçün mübarizə aparan, təkilahlıq etiqadından uzaq, təhrif edilmiş xristianlığın mövcudluğu da insanlarda dinin uydurma olması barədə düşüncələri daha da gücləndirdi.

**“Din insanları idarə etmək üçün uydurulub” şübhəsinə gəldikdə isə:**

**Cavab:** Bu iddia da Sovet İttifaqı dövründə ortaya atılan fərziyyələrdən biri idi. Hətta onlar dini “xalqların nəşəsi” adlandırır, “din tiryəkdir”, “din xalqların tiryəyidir” kimi vəsflər edirdilər. Sovet İttifaqı dövründə dinin tənqidinə yönəlik kitabların az qala hamısında bu ibarələrdən istifadə olunurdu. Sovet İttifaqında ateizmin təbliğatı mövzusunda oxuduğum kitabların əksəriyyətində “din xalqların nəşəsidir” şübhəsinə rast gəldim[124]. Müasir ateizm və deizm tərəfdarlarının da bu şübhəni kommunist fəlsəfəsindən mənimsədiyi açıq-aydın məsələdir. Çünki Karl Marks (1818-1883) dinin tənqidində bu məsələni çox önə çəkirdi. O iddia edirdi ki, din narkotik vasitə kimi insanları öz təsiri altına alır və hökumətlər dinin köməyilə xalqı özlərinə tabe edir. Guya

[124] Bu mənbələrdən birində deyilirdi: “K. Marks yazmışdır ki, “din xalqın tiryəyidir”. Lenin, dini “ruhani araq”, yəni insanı səfehləşdirən içki adlandırmışdır…”. (“Kommunizm və din”, Y. Yarovslavski, səh. 13. Azərbaycan dilində, latın əlifbası ilə. 1938-ci il).

məzlumların üsyana qalxmamaları, çəkdikləri əzab-əziyyətləri hiss etməmələri, öz acınacaqlı aqibətləri ilə razılaşıb zülmə tabe olaraq yalnız axirətləri barədə düşünmələri üçün onlar din vasitəsilə keyləşdirilir. Bəli, məşhur şübhənin özəyi məhz bu idi.

Həmçinin bu iddianı ortaya ataraq təbliğ edən dövlətin din əleyhinə mübarizə aparan bir imperiya olduğu hamımıza məlumdur. Həmin imperiya insanların müstəqilliyini dar çərçivəyə salmış, xalqın sərvətini öz ideyaları uğrunda sağa-sola xərcləməkdən çəkinməmişdir. Azərbaycan nefti və digər zəngin sərvətlərimiz də Sovet imperiyasının mülkü hesab olunurdu. Bu imperiya Repressiya adlanan qanlı dövrdə Azərbaycanın minlərlə ziyalısının qətlinə bais olmuşdu. Xülasə, bu rejim xalqı müəyyən yollarla itaətdə saxlamağa çalışır və zənn edirdi ki, xalqın idarə edilməsi üçün dinlər narkotik təsir göstərir. Bunu təhrif olunmuş dinlərə və batil dini cərəyanlara şamil etmək doğru olmadığı kimi, İslam haqqında da demək doğru deyil. Çünki əksər dinlər dövlət tərəfindən dəstək görmür, əksinə dövlətlərin təzyiqlərinə məruz qalır. Əslində tarix boyunca var olmuş bir qisim dövlətlərin siyasəti bizə maraqlı deyil, sadəcə olaraq biz bu batil şübhənin İslama nisbət edilməsinə öz cavabımızı vermək istəyirik. Söhbət bu şübhənin İslama nisbət olunmasından gedir ki, bu da doğru deyil.

Əgər söhbət Karl Marksın bunu “Avropa kilsəsi” əleyhinə deməsindən gedirsə, bu söz onlar haqqında keçərli ola bilər. Çünki kilsə həqiqətən də insanlara əziyyət verir,

onların mallarına, torpaqlarına sahib çıxır və onlara yüksək vergilər təyin edirdi. Topaqlar kilsəyə məxsus idi və torpaq sahibi olan feodallar sadə insanlara əziyyət verirdilər. Kilsəyə etiraz edənlər təhdid olunur, onlara olunan zülmlər davam edir, zülmə qarşı üsyana qalxanlar isə cəzalara məruz qalırdılar. Bu məsələdə "kilsə feodalları" xalqın yox, zülmün yanında idi. Dinin gerçəklərini təhrif etmiş xristian kilsəsinin Allahın adından yalanlar uydurmasını nəzərə alsaq, həmin kilsənin Allahın bəndələrinə zülmlər etməsi məntiqi bir nəticədir. Kilsənin xalqa etdiyi zülmlər tarixin səhifələrinə qanlı hərflərlə yazılıb. Belə vəziyyətlərdə din xadimlərinin dindən istifadə etməsi mümkün hal idi. Deməli, söhbət həqiqi dindən deyil, İslamın inkar etdiyi təhrif edilmiş dindən gedir. Karl Marks bu sözləri ilə məhz kilsənin zülmünü din pərdəsi ilə örtərək xristianlıqdan sui-istifadə edən kilsə feodallarını hədəfləmişdi.

Deməli, əslində mövzu belə qoyulmalı idi: "Avropadakı batil dinlər xalqların tiryəyidir". Bir sözlə, bu söz xurafatlara dayanan, batilə göz yuman bütün dinlərə şamil edilə bilər.

Bu şübhəni irəli sürənlər təkcə İslamda xalqla dövlət münasibətlərini deyil, həmçinin digər məsələləri də hədəfə almış ola bilərlər. Sözümüz bunda deyil.

Orta Əsr kilsəsinin elmə müharibə elan etdiyi dövrdə avropalılar İspaniyada müsəlman alimlərindən dünyəvi elmlərin əsaslarını öyrənirdilər.

Xristian alimləri “kilsə inancına zidd” olduğu üçün elmi araşdırmaları qadağan etdiyi halda, müsəlman alimləri X əsrdə planetlər, yer, ay və günəş haqqında bu gün məlum olan bir çox elmi həqiqətləri artıq dilə gətirirdilər. Xristianlardan fərqli olaraq İslam alimləri xurafatlara qarşı ciddi mübarizə aparırdılar.

İslam dini Allahdan gələn haqq dindir və onun bərqərar edilməsi, yaşanılması ilahi əmrdir. Bu din qəlbləri və hissləri cuşa gətirir, insanın hisslərinə, fiziki və mənəvi gücünə xələl gətirmədən onu irəliyə doğru addımlamağa səsləyir. İslam dini insanları zəlillikdən, acizlikdən, tənbəllikdən, qorxaqlıqdan uzaqlaşdırır. Bu naqis sifətlər haqqında peyğəmbər ﷺ buyurmuşdur: “Ey Allahım! Üzüntüdən, kədərdən, acizlikdən, tənbəllikdən, paxıllıqdan, qorxaqlıqdan, borc və insanların zülmü altında əzilməkdən sənə sığınıram!”[125]. Belə bir din necə “tiryək” ola bilər?
İslam dini düşmən qarşısında dik dayanmağı, zülm edənə zülmündə yardım etməməyi, zalıma nəsihət etməklə ona yardım edərək zülmdən uzaqlaşdırmağı əmr edir. İslam dini məzlumun bədduasından (qarğışından) qorxmağı öyrədir. Belə bir din zülm edənin zülmünə yardım etməyə necə təşviq edə bilər? Belə də "tiryəkmi" olar?

İslam dini adil rəhbərin Qiyamət günü ən böyük fəzilətə sahib olacaq yeddi nəfərdən biri olacağını vəd edir. Belə

---

[125] “Səhih əl-Buxari”, 6363.

bir rəhbəri din özü “tiryəkdən” uzaq edir, xalqın qayğısına qalmağı, onun arxasında durmağı, onun dərdinə şərik olmağı əmr edir: “Həqiqətən, Allah sizə əmanətləri sahiblərinə qaytarmanızı və insanlar arasında hökm verərkən ədalətlə hökm vermənizi əmr edir. Allahın sizə verdiyi bu öyüd-nəsihət necə də gözəldir! Şübhəsiz ki, Allah Eşidəndir, Görəndir”[126]. Hökm sahiblərini ədalətə çağıran bir din necə “tiryək” olub zülmə səsləyə bilər ki?!

Burada yalnış anaşılan məsələlərdən biri İslam dinində rəhbərin xalqla rəftarı ilə bağlı hökmlər və tarixdə bəzi rəhbərlərin zülmə əsaslanan hakimiyyətidir. Belə ki, tarixdə bəzi hökmdarların din adı altında xalqa zülm etməsi, dindən sui-istifadə etməsi istisna hallardır. Əgər dinin özü “tiryək olmağı”, dini “şəxsi mənfəətlər” üçün istifadə etməyi əmr etmirsə, tarixdəki müstəsna şəxslərin bunu etməsi heç də dinin mahiyyətini dəyişdirmir. Hətta hər zalım hökmdarın dindən sui-istifadə etdiyini demək də absurd fikirdir. Əksinə, zalımlar dinin həqiqətlərini tapdalayır, onun hökmlərinə qarşı çıxırlar. Çünki din zülmü deyil, ədaləti əmr edir. Bu şübhəni ortaya atanlar tarixdə mövcud olmuş zalım hökmdarların adını dinlə bağlayır və onların öz məqsədlərinə çatmaq üçün dindən istifadə etdiklərini bildirirlər. Halbuki belə şəxslərin həqiqi məqsədləri bu cür əsassız şübhələrlə İslamı gözdən salmaqdır. Zalımlığı dinin ayağına yazanlar dinə ən çox zərər yetirənlərin adını dinə bağlamaqla yanaşı, dinin zülmün yanında olduğunu və

---

[126] “ən-Nisa” surəsi, 58.

sadəcə olaraq insanları idarə etmək üçün uydurulduğunu demək istəyirlər. Halbuki İslam tarixində elə bir zalım hökmdar olmamışdır ki, ona alimlər, salehlər və yaxın ətrafı nəsihət etməmiş olsun. Zalımın əlindən tutmaq, ona öyüd-nəsihət etməyə_əsaslanan bu nəsihət məktəbi məhz peyğəmbərin ﷺ tövsiyələrindən qaynaqlanır. Muhəmməd peyğəmbər ﷺ buyurmuşdur: "Zülm etməkdən çəkinin. Çünki, zülm Qiyamət günü özüylə zülmətlər gətirər"[127].

Digər bir hədisində isə: "Öz qardaşına zalım və ya məzlum olsa da yardım et. Bir nəfər dedi: Ey Allahın Elçisi! O məzlum olduqda ona yardım edərəm (bunu bildim). Bəs o zalım olduqda ona necə yardım edə bilərəm? Onun zülm etməsinin qarşısını alar və ya zülmə mane olarsan, beləcə ona yardım etmiş olarsan!"[128] – deyə buyurmuşdur.

Onu da qeyd edək ki, qərb ölkələrində də xalq adil, işini bacaran rəhbərlərin arxasında durur. Xalqın rəhbərə arxa durub dəstək verdiyi kimi, dindarların və din xadimlərinin də bunu etməsi normal haldır. Çünki ədalət dövlətin təməl prinsipi olmalıdır. Müsəlmanların öz adil rəhbərlərinə dəstək verməsi ehtimalı daha böyükdür. Qərb dünyasında rəhbərə bu dəstəyi qeyri-müsəlmanlar və ya ateistlər göstərdikdə niyəsə "tiryək" ifadəsindən istifadə edilmir. Bu cür misalları çoxaltmaq olar.

---

[127] "Səhihi Muslim", 2578
[128] "Səhih əl-Buxari", 6952.

İdarəçilikdəki ədalətin əhəmiyyəti barədə ibn Teymiyyə (Allah ona rəhmət etsin) demişdir: “Allah kafir dövlət olsa belə ədalətli olan dövləti davamlı edər. Allah zalım dövləti davamlı etməz, hətta müsəlman dövləti olsa belə. Çünki, ədalət küfrlə bərabər davamlı olur, lakin zülm İslamla bərabər davamlı olmur”[129].

Müxtəlif İslam ölkələrində din və dövlət münasibətlərinə nəzər yetirdikdə, bu şübhə ilə vəsf olunan din xadimlərini görə bilmirik. Din ümumilikdə insanları axirətə rəğbətləndirsə də, din xadimləri ya həqiqi şəkildə xalqa xidmət göstərməyə çalışır, ya da onların passiv fəaliyyətinin insanlara müsbət bir təsiri olmur. İslam dini öz qanunlarında “asilikdə itaət olmadığını” bəyan etməklə yanaşı, ölkələrin viran qalması, əmin-amanlığın pozulması, xaosun hökm sürməsi ilə nəticələnəcək halların qarşısını alır. İslam dinində xristian feodallarında olduğu kimi ölkə rəhbərlərinə “*heç cür nəsihət edilmir”* anlayışı yoxdur, lakin rəhbərə nəsihət aşkarda deyil, gizli şəkildə edilir, alimlər və saleh dövlət məmurları tərəfindən məktublar yazılır, söz göndərilir və s. Lakin onun heybətdən salınması və nəticə etibarilə ölkənin xarabaya çevrilməsi təhlükəsi olduqda, bu işlər daha ehtiyatla edilməlidir.
İslamda həqiqi din xadimləri, alimlər kilsə feodalları kimi xalqı xurafatlarla aldatmır, əksinə, xurafatlara qarşı mübarizə aparırlar. Onlar bu dinin həqiqi daşıyıcıları kimi insanları təkilahlığa və sonuncu peyğəmbərin yoluna dəvət edir. Onların zülmə etiraz və islah metodları

---

[129] “Məcmuul-Fətəva”, 28/63.

xristian kilsəsi və Avropa sevərlərin metodlarıyla eyni deyil. İslam dini zülm və fəsad hallarının islahını özünəməxsus üsullarla aradan qaldırır ki, bu da bəzilərinin düşündüyü kimi heç də "zülmə susqunluq" deyil. Alimlərə ehtiram göstərilən İslam ölkələrindən birində dahi alimlərdən birinə: "Siz ölkə rəhbərinə nəsihət etmirsiniz" deyildikdə, o: "Nəsihət etmədiyimizi hardan bilirsiniz?" deyə cavab vermişdir. Nəsihət gizli olduqda həm rəhbərin heybəti qorunur, həm də nəsihət edilən şəxsin bu nəsihəti qəbul etmə ehtimalı çoxalır.

"*Din tiryəkdir*" sözü elmə əhəmiyyət verməyən, insanların kölə kimi işlədilməsinə, köləlik sinfinin saxlanmasına həris olan kilsə feodalizmi haqqında deyilmişdi. Onlar din vasitəsilə əlləri altındakı kölələrə təskinlik verməyə çalışırdılar. İslam dini isə quldarlıq rejimini, köləliyi tədricən ləğv etmiş və kölə azad edənlərin böyük savaba nail olacaqlarını vəd etmişdi. Qurani-Kərimdə qul azad etmək barədə çoxlu sayda ayələr vardır[130]. Bu haqda varid olan hədislərdən birində Peyğəmbər ﷺ buyurur: "Kim bir müsəlman qulu azad edərsə, Allah onun hər bir (bədən) üzvünü cəhənnəmdən azad edər və onu Öz xilası ilə xilas edər"[131]. Varlı səhabələr qul azad etməkdə bir-birilə az

---

[130] Həmin ayələrdən: "ən-Nur" 33, "ən-Nisa" 92, "əl-Mucədələ" 3, "əl-Maidə" 89, "əl-Bələd" 11-17, "ət-Tövbə" 60, "əl-Bəqərə" 177 və başqa ayələr. Bu ayələrdə günahlara kəffarə (dinin qadağalarını pozan şəxsin bağışlanmağı üçün etməli olduğu əməllər) və ya sədəqə olaraq qul azad etməyə rəğbətləndirmə vardır.

[131] Buxari, Muslim.

qala yarışırdılar. Köləliyin rəsmi cəhətdən ləğvinə gəldikdə isə, müsəlman ölkəsi olan Tunisdə “qul almaq və satmaq” 1846-cı ildə qadağan olunduğu halda, bu tarix Amerikada 1865-ci ilə təsadüf edir. Dünyanın əksər ölkələrində isə qul alqı-satqısının qadağan edildiyi il 1926-cı il olaraq tarixə yazılmışdır. İslam dini Orta Əsrlərdə dünyanın bütün ölkələrində hökm sürən quldarlıq quruluşunu tədricən aradan qaldırdığı halda, qullar haqqında deyilmiş hansı “tiryəkdən” söhbət gedə bilər?

İslam dini elmə, ağıla yüksək dəyər verir, elm sahiblərini yüksəldir, ağılın, biliyin inkişafına əngəl törətmir. Bu dinin təlimlərindən biri “De: “Əgər doğru deyirsinizsə, dəlilinizi gətirin!”[132] ayəsi, qayələrindən biri isə “Allah sizdən iman gətirənlərin və özlərinə elm verilmiş kimsələrin dərəcələrini ucaldar”[133] ayəsidir. Necə ola bilər ki, belə bir din insanların islahına aparan icazəli yolları qadağan etsin! Bu yollar məhz şəriət çərçivəsində mümkün olur! Müqəddəs kitabı “Oxu!”[134] əmri ilə başlayan, insanları oxumağa, elmlə məşğul olmağa təşviq edən bir dinin adını “tiryək” sözü ilə yan-yana gətirmək heç bir məntiqə sığmır. Tiryək istifadəçisinin ağlını, şüurunu və mənliyini dünyəvi və keçici bir həzz

---

[132] “əl-Bəqərə” surəsi, 111.
[133] “Mucədələ” surəsi, 11.
[134] Qurani-Kərimin ilk nazil olan ayəsi "Aləq" surəsinin ilk ayəsidir. Həmin surə “Oxu!” əmri ilə başlayır. İslam dininin elmə verdiyi dəyər, Quranda yer alan məhz bu ilk əmrdən aydın olur.

keyləşdirir. Oxuyan insan, elm sahibi isə oxuduqca, dərk etdikcə oyanır, aydınlanır və aydınlandırır!

## Xurafatlar barədə

İslam peyğəmbərinin xüsusiyyətlərindən biri də insanlara əsl dini öyrətmək, onları həm "din" adı altında yayılmış batil inanclar və xurafatlardan, həm də ictimailəşmiş digər batil inanclar və xurafatlardan uzaqlaşdırmaqdır. Allah Qurani-Kərimdə bu böyük Peyğəmbər ﷺ haqqında buyurmuşdur: "Onların ağır yüklərini yüngülləşdirər və onları buxovlardan xilas edər"[135]. İslam dininin həqiqətlərindən xəbərdar olan bir insan dinin heç də çətin olmadığını, əksinə, həqiqi iman əhli üçün asan, hətta şirin olduğunu anlayar: "Allah sizin üçün çətinlik deyil, asanlıq istəyir"[136].

İslam dininin gəlişi ilə ərəblər və qeyri millətlər İslamdan əvvəlki xurafatların yalnış olduğunu anlayaraq "din" adı altında iman gətirdikləri batil inanclardan uzaqlaşdılar. Onlara Allah qatından nazil olan xalis din öyrədildi. Bu din, Allahın nazil etdiyi əvvəlki kitabların din xadimləri tərəfindən təhrif olunmasını insanlara bəyan edir və buna şiddətlə qarşı çıxırdı. Hədislərdən birində Peyğəmbər ﷺ buyurmuşdur: "Dində çıxarılan hər bir yenilik bidətdir. Hər bir bidət də zəlalətdir"[137]. İslam dini təhrifdən, batildən, xurafatdan, mövhumatdan və

---

135 "əl-Əraf" surəsi, 157.
136 "əl-Bəqərə" surəsi, 185
137 "Səhihi Muslim", Kitəbul-Cumə, bəbu Təxfifus-Saləh, 2/592; hədis, 43

dəyişikliklərdən qorunmuş bir dindir. İslam dini digər səmavi dinlərin təhrif olunması nəticəsində meydana gəlmiş xurafatları bəyan etmiş, Tövrat və İncildə yer alan çoxsaylı xətalara bir növ düzəliş vermişdir.
Deizmin məhz xristianlığın daxilində yarandığı bir çoxlarına məlumdur. Tədqiqatçılar hesab edir ki, “xristian deistlərin”[138] ilkin mərhələdə əsas fəaliyyəti dinə qarşı döyüş yox, xristianlıqdakı xurafatlara qarşı mübarizə və xristianlığı təhriflərdən təmizləmək cəhdləri idi. Lakin zaman keçdikcə deizmin mahiyyəti dəyişdi və deizm ateizmə keçid mərhələsini yaşadı. "Xristian deistlərin” xristianlıqda inkar etdikləri xurafat və batillərdən ən birincisi “təslis (“üçüqnum”) inancı" – yəni Allahın bir deyil, üç olması inancı idi. Bundan əlavə, kilsələrin sadəlikdən çıxaraq təmtəraqlı hal alması, şəkillərlə bəzədilməsi və s. kimi bir çox məsələlər də deistlərin tənqid obyektinə çevrilmişdi. Dinlərin göndərilmə səbəbi olan “təkilahlıq” inancının xristian kilsəsi tərəfindən təhrif olduğunu görən deistlər xristian din xadimlərindən bu xətaların düzəldilməsini tələb etmiş və İslam haqqında yetərincə maarifli olmadıqları üçün axtarışında olduqları əzəmətli tövhid inancının (təkilahlıq etiqadı) İslamın özəyi olduğundan xəbərsiz qalmışdılar.

---

[138] Xristian deizminin məşhur nümayəndələrindən olan D. Con Toland (1670-1722) da xristianlığın tamamilə ağıl dini olduğunu, lakin II əsrdə rahiblər tərəfindən xristianlığa bütpərəstlik inanclarının daxil edildiyini iddia edirdi. O, "Sirli Olmayan Xristianlıq" (“Christianity not Mysterious”) kitabının müəllifi idi. O, bütpərəstlikdən xristianlığa keçən bir çox xurafatlara da etiraz edirdi. (Hristiyan Batı Efsanesi, Batıda Din, Bilim ve Felsefe tartışmaları, dr. Piter Pikkert, bax: Con Toland).

Beləliklə, bütün cidd-cəhdlərinə və batil inanclarla mübarizəsinə baxmayaraq, deizm cərəyanının nail olduğu nöqtə hədəfsizlik olmuşdur.

Düşünürük ki, "xurafatlar" mövzusundan bəhs edərkən xurafatların iki növ olduğunu qeyd etmək məqsədəuyğundur:

**Birincisi**: həqiqi xurafatlar - bu növ xurafatların əksəriyyəti İslam ruhu ilə uzlaşmır və İslami dəlillərə əsasən həmin əməllər xurafat, mövhumat və cəfəngiyyat hesab olunur. Lakin özlərini İslama nisbət edən bəzi "din xadimlərinin" savadsızlığı, sıravi dindarların elmsizliyi və digər səbəblərdən müsəlman cəmiyyətlərində batil əməllər ayaq açır.
**İkincisi:** əslində xurafat olmayıb deistlərin və qeyri din əleyhidarlarının xurafat kimi qələmə verdikləri həqiqi qeybi xəbərlər - bura cənnət və cəhənnəmə, mələklərin və cinlərin varlığına, günahların yazılmasına və Quranda və mötəbər hədislərdə varid olmuş bütün qeybi xəbərlərə iman gətirmək daxildir. Deistlər və qeyriləri bütün məsələlərə insan ağlı və məntiqi prizmasından yanaşdıqları üçün, gözləri ilə görmədikləri əksər məfhumları inkar edir və bunları insan təxəyyülünün məhsulu hesab edirlər. Halbuki dünyada gözlərin görmədiyi, lakin həqiqət olan çoxlu sayda məfhumlar var. Elə deistlərin özlərinin qəbul etdikləri "ruh" anlayışı da bəzi dinsizlərə görə xurafat sayılır.

Xurafatların yayılma arealı dinlərə, etiqad fərqliliyinə və hətta müxtəlif ərazilərdə yaşayan insanların

adət-ənənələrinə görə dəyişə bilir. Ölkəmiz Azərbaycanda da batil inanclar və xurafatlar geniş vüsət almışdır. Lakin bir sıra müsəlman ölkələrində insanlar bu əməllərin dinə zidd olduğunu yəqinliklə bilirlər. Ölkəmizdə də xurafatlardan uzaq şəkildə dini yaşamaq istəyən dindarlar az deyil.

"Həqiqi İslam" deyildikdə niyəsə deistlər və qeyriləri narahatlıq keçirir, bu ibarəni sadəcə müsəlmanların "dinin xurafatlardan uzaq olduğunu sübut etmək", "dini təmizə çıxarmaq" cəhdləri kimi qiymətləndirirlər. Bu "qiymətləndirmənin" elmi cəhətdən nə dərəcədə doğru olduğunu deistlər özləri düşünsələr yaxşı olar. Çünki məhərrəm ayında baş yarmağın, qan tökməyin İslamla yaxından-uzaqdan əlaqəsi olmadığını və İslamın bu cür batil əməlləri əmr etmədiyini bilə-bilə dini tənqid edirlər. Dində olmayan bir şeyə görə dini tənqid etmək isə ədalətli və qərəzsiz tənqiddən çox uzaqdır. Yaxud da təkilahlıq dini olan İslamda qəbirləri təzim etməyin, qəbirdəkilərə ibadət etməyin haram olduğunu, qəbir başında "Yasin" oxumağı peşə seçərək biznes qurmağın, pirləri "müqəddəs" obyektlərə çevirməyin[139], məhərrəmlikdə kənd yerlərində "ələm uçurmaqla" eləmə bağlanan pulları cibə doldurmağın, qapılara "at nalı" asıb onun bədbəxtlikdən qoruyacağına və ya bəlanı uzaqlaşdıracağına etiqad etməyin və çoxsaylı_digər batil

---

[139] **Pirlər**: İslam peyğəmbərinin vəfatından bir neçə əsr sonra dini elmdən bixəbər olan kəslərin xüsusiləşdirdikləri qəbirlər üzərində tikilən yerlərdir. İnsanlar həmin yerləri heç bir dini dəlilə əsaslanmadan müqəddəsləşdirirlər.

əməllərin İslama aidiyyatı olmadığını bilmək çox da çətin deyil.
Deistlərlə söhbət aparmağa və ya deistlərin müsəlmanlarla söhbət aparmasına ciddi zərurət yaranarsa, Allahın varlığı və kainata təsirinin hüdudu, kainatı başlı-başına buraxmaması, nə üçün məhz İslam, peyğəmbərlərə olan ehtiyac və s. kimi əsas mövzuların müzakirəsindən sonra dinin məğzi barədə söhbətə vaxt qalarsa, ilk öncə müzakirə ediləcək mövzuların xurafat olub-olmaması dəqiqləşdirilməlidir.
Bu məqamda vurğulamaq lazımdır ki, **xurafatlarla bağlı mühüm məsələlərdən biri də** odur ki, bir çox deistlərin "İslamla tanışlığı" məhz elə İslama aidiyyatı olmayan xurafatlarla başlayıb. Onlar həmin xurafatların İslamdan olduğunu zənn edərək dindən qorxmuş və ondan uzaqlaşmışlar. Hətta bəzi deistlərin ölkəmizdə yayılmış bir sıra xurafatlarla bağlı xatirələri və ya əhvalatları da olur. Onlar dindən danışarkən bu əhvalatları nəql edir və ya İslamda olan, lakin mahiyyətinə varmadıqları əməlləri qabardırlar.
İslam dininin iki ana məsdərinin - Quran və sünnənin (hədislərin) qarşı çıxdığı bir çox əməllər vardır ki, bu əməllər din adı altında icra olunur. Belə olduğu halda İslamın məğzindən və mahiyyətindən xəbərsiz deistlər bu əməllərin dindən olduğunu zənn edirlər.
Dinin özündə mövcud olub deistlərə görə "ağıla müvafiq olmayan"[140] ayə və hədislərin isə mənasını izah etmək

---

[140] hədislərdə varid olmuş "ağıla zidd" məsələlər barədə sualları olan oxucularımıza "Hədislər ağıla ziddir" şübhəsinə cavab" adlı məqaləmizi oxumağı tövsiyə edirəm:

mümkündür. Lakin müsəlmanların hansı qaydalara əsaslandığını, hansı elmi üsullara dayanaraq hərəkət etdiklərini bilmədən hər hansı bir dini hökmü "ağıla müvafiq olmadığı" üçün inkar edənlərə bir neçə sualımız var: "ağıl" deyildikdə, hansı insanın ağlı nəzərdə tutulur? Hansı insanın ağlı daha üstündür? Axı ağılların sayı çoxdur. Elə isə həyati qərarlarımızı kimin ağlına, hansı ağıla əsasən verməliyik?

İslamla əlaqəli olmayıb xalq tərəfindən formalaşdırılmış xurafatların da sayı az deyil[141]. Məsələn, gecə vaxtı güzgüyə baxmağın, qapı ağzında görüşməyin bədbəxtçiliyə səbəb olacağı, qabağından qara pişik keçənin işlərinin nəhs gətirəcəyi, yola çıxanın arxasınca su tökülərsə sağ-salamat mənzil başına çatacağı,

---

www.senxatirlat.com/hedisler-agila-ziddir-subhesine-cavab/ Daxil olma tarixi: 22.07.2020.

[141] Bu cür xurafatlar İslam dininin gəlməsi ilə qadağan edilmişdir. Cahiliyyə (İslamdan əvvəlki dövr) dövründə ərəblər səfərə çıxmaq istədikdə quş uçurardılar. Quş sağ tərəfə uçduqda həmin səfəri uğurlu hesab edər, sol tərəfə uçduqda uğursuz hesab edərdilər. Peyğəmbər ﷺ isə onların bu əməlini inkar etmişdir: "Quş uçurmaq şirkdir. Quş uçurmaq şirkdir" - bunu üç dəfə dedi". (Hədisi Abdullah İbn Məsud rəvayət etmişdir, Sünən Əbu Davud: 3910). Bu əməlin qadağan olunmasının səbəbi odur ki, insan Allaha təvəkkül etmir, heyvanın uğursuzluq gətirəcəyindən qorxur – bu isə insanın qəlbini Allaha deyil, həmin xurafata bağlayır. Bəzi insanlar qarşılarndan qara pişik keçdikdə yolunu dəyişir, narahatlıq keçirir, yaxud da digər faydasız hərəkətlər edir. Son illər el arasında işlənən məzəli, lakın haqqı ehtiva edən deyimlərdən birini qeyd etmək istəyirəm: "Səhər tezdən işə gedərkən qarşınızdan qara pişik keçərsə, bilin ki, o pişik də harasa gedir".

qorxanın başına duz hərlədikdə qorxusunun keçib gedəcəyi kimi batil inanclar cəmiyyətimizdə geniş şəkildə yayılıb. Bu misalların sayını çoxaltmaq olar.

## İslam dini Şumerlərdən götürülüb?

Təqribən bir il öncə elektron ünvanıma sual göndərildi. Oxucu qeyd etmişdi ki, ünvanladığı sual deistlərin şübhəsidir. Müəyyən araşdırmalardan sonra sualda qeyd olunan şübhənin həm deistlərin, həm də İslamı qəbul etməyən aqnostik və ateistlərin şübhəsi olduğu ortaya çıxdı.

**Sual belə idi:** "Bəzi aqnostiklər, deistlər və ateistlər: "Şumerlər haqqında qədim yazılar oxunduqdan sonra İslam dininin guya Şumerlərdən gəldiyinin məlum olduğunu" deyirlər. Bu nə dərəcədə doğrudur? Onlar həmçinin yerin yaşı və peyğəmbərlərin yer üzündə yaşadığı müddət barədə şübhələr gətirməyə çalışır və şumerləri, babilliləri və digər xalqları yer üzündə ilk sivilizasiya kimi təqdim etməyə çalışırlar. Peyğəmbərlər və İslam barədə isə iddia edirlər ki, guya şumerlərin qədim yazılarında dini biliklər barədə eyni məlumatlar yer alır. Nəticə etibarilə demək istəyirlər ki, İslam dini bu qədim sivilizasiyaların dini etiqadlarından götürülüb. Buna nə cavab verə bilərsiniz?

**Cavab:** Bu deyilənlər yalnışdır və həqiqəti əks etdirmir. Bu cür iddiaları yalnız dindən anlayışı olmayanlar irəli sürə bilər. Qədim "Şumer" yazıları oxunduqdan sonra onların dini görüşləri və ayinləri barədə dolğun

məlumatlar əldə edilmişdir. Bu dini bilgilərin araşdırılması zamanı qəribə faktlar meydana çıxmışdır. Din barədə cüzi də olsa məlumatı olan insan bu bilgilərlə tanış olarsa, irəli sürülən iddiaların yalnış olduğunu anlayar. Bu yazılarda Nuh Peyğəmbərin dövründə baş vermiş tufandan, dünyann suya qərq olmasından danışılır. Ən qəribəsi isə, şumerlərin və babillilərin çoxilahlıq (politeist) inancına sahib olduğu qeyd olunur. Bunu bilənlər buna rəğmən yenə də təkilahlıq (monoteist) dini olan İslama qarşı əsassız iddialar irəli sürməkdə davam edirlər.
Digər iddiaları da irəlidəki səhifələrdə cavablandıracaq və Nuh peyğəmbərin dövründə baş vermiş tufan haqqında daha ətraflı bəhs edəcəyik inşəAllah.

Əsassız iddialara ən əsas cavabımız isə odur ki, İslami mənbələrdə yer üzündə bütpərsətlik meydana gəlməzdən on əsr əvvəl təkilahlıq dövrünün hökm sürdüyü qeyd olunur. Bu məlumatlar təfsir kitablarında da yer alır.

Məsələn, İbn Abbasdan rəvayət olunan hədisdə peyğəmbər Adəmlə Nuhun peyğəmbərliyi arasında nə qədər vaxt keçdiyini xəbər verərək deyir: “Adəmlə Nuh arasında on qərn (əsr və ya nəsil) olmuşdur. Onların hamısı haqq şəriət üzərində olmuşdular. Bundan sonra onlar (insanlar) ixtilaf etdilər. Beləcə, Allah müjdəçi və qorxudan peyğəmbərlər göndərdi”[142].

---

142 “Silsilətus-sahihə”, Nasiruddin əl-Albani, 7/854, hədis səhihdir.

Yəni, Adəm peyğəmbərlə Nuh peyğəmbərin dövrü arasında “on qərn (əsr) keçmişdir” . Bəzi tədqiqatçılar hədisdə “qərn” sözünü "əsr" deyil, "nəsil" kimi başa düşmüşlər - yəni on nəsil. Adəmin dövründən Nuhun dövrünə qədər insanların ömrü təxminən min il olurdu. Əgər on nəsil müddəti bu amil nəzərə alınaraq hesablanarsa, o zaman bu müddət çox uzun olardı. Uzun sözün qısası, bu müddətdə insanlar yalnız Allaha ibadət etmiş və ona şərik qoşmayaraq bütpərəstlikdən uzaq olmuşlar. Haqqında danışdığımız zaman dilimi Şumerlərdən əvvəlki zaman dilimidir. Şumerlər isə bütpərəstlik inancında olmuş və bütlərə sitayiş etmişlər. Odur ki, mötəbər İslami mənbələrə əsasən əminliklə deyə bilərik ki, Şumerlər Nuh peyğəmbərdən sonra yaşayıb. Yəni Nuh peyğəmbərin zamanında yaşayan yalnız onların əcdadları ola bilərdi. Çünki İslami mənbələr bizə Nuh Peyğəmbərin dövrünə qədər yer üzündə bütpərəstliyin olmadığını xəbər verir. İki peyğəmbərin dövrü arasında ötən müddət barədə dəqiq rəqəmlərə gəldikdə isə, bununla bağlı mötəbər bir İslami mənbə olmadığına şahidlik edirik. Yəni apardığımız elmi araşdırmalar zamanı belə bir mötəbər mənbə ilə rastlaşmadıq.

*Bəs Şumerlər kimlərdir? Hansı dövrdə yaşayıblar? Mühüm bir girişdən sonra bu suala cavab verəcəyik inşəAllah.*

Əldə etdiyimiz məlumatlara əsasən Şumerlər b.e.ə. VIII minillikdə yaşayıblar. Təbii ki, bu, dünyəvi alimlərin dəqiqliklə deyil, təxmini olaraq hesabladıqları bir rəqəmdir. Bu rəqəm dörd min, beş min, on min və bundan daha artıq ola bilər. Sözümüz bunda deyil. Məsələ burasındadır ki, mütəxəssislər arasında daim çaşqınlığa səbəb olan iki məsələ mövcuddur: o da yerin yaşı ilə, ən qədim insanın yaşıdır. İslami mənbələrə müraciət etdikdə insanın yerin yaranışından sonra yarandığına dəlil olduğunu görürük. Bu iki hadisə arasındakı müddət isə bizə məlum deyil.

Əgər Adəm peyğəmbərlə Muhəmməd ﷺ peyğəmbərin yaşadığı dövr arasında zaman dilimini hesablamaq alimlər üçün qəliz bir məsələdirsə, o zaman düşünün ki, yerin yaşını hesablamaq nə dərəcədə çətindir. Bu haqda irəli sürülən ehtimallar həqiqətə yaxın ehtimallar kimi görünmür. Bu müddəti dəqiq və yəqinliklə hesablamaqdan isə söhbət belə gedə bilməz. Çünki yerin yaranmasından günümüzə qədər olan müddət barədə də dünyəvi alimlər müxtəlif fərziyyələr irəli sürürlər; onlardan bəziləri yerin yaşının “üç milyon” il, bəziləri isə “dörd milyon yarım” il olduğunu deyir. Bəziləri isə daha da irəli gedərək yerin yaşının 13 milyondan çox olduğunu deyirlər. Təbii ki, bütün bu təxmini rəqəmlər fərziyyədən başqa bir şey deyil. Eləcə də insanın yaranması və bəşər övladının yaşı barədə məlumatlar də bu qəbildən olan təxminlər və fərziyyələrdir.

Bəşər övladının yer üzündəki mövcudluğunun neçə il davam etdiyi məsələsinə gəldikdə isə, bəzi kitablarda

7000, bəzilərində 4300, bəzilərində isə 5000-dən yuxarı müxtəlif rəqəmlər qeyd olunmuşdur. Bəzi tədqiqatçılar müxtəlif metodlarla hesablamalar apararaq bəşər övladının bu dünyada mövcudluq müddəti barədə müxtəlif rəqəmlər irəli sürmüşlər: bəziləri bu rəqəmin 10.000-ə yaxın, bəziləri 19000, bəziləri isə 100.000 olduğunu demişdir. Lakin İslam alimləri bu rəqəmlərdən heç birini mötəbər hesab etməyiblər. Bu rəqəmlərdən hər biri müxtəlif hesablama metodları və üslublarının tətbiqi ilə əldə edilib. Həqiqət isə odur ki, insanın yer üzündə həyat sürdüyü müddət qeybi bir məsələdir. Bu müddəti bizə bəyan edən aydın və mötəbər heç bir dəlil mövcud deyil. Bizə məlum olan isə odur ki, Nuh peyğəmbər Şumer və Babilistan əhlindən daha əvvəl yaşamışdır. Bunu deməyə bizə əsas verən[143] səbəb isə Adəm peyğəmbərdən sonra on əsr boyunca təkilahlıq dininin mövcud olmasıdır. Bu zaman kəsimindən sonra isə ilk dəfə olaraq Nuh peyğəmbərin dövründə bütpərəstlik meydana gəlmişdir. İnsanlar yollarını azdıqda, Allah onlara Nuh peyğəmbəri elçi göndərmişdir.

Babil və Şumer tayfaları arasında bütpərəstliyin yayılması üçün isə xeyli vaxt tələb olunurdu. Yəni, babillilər və Şumerlərdə bütpərəstlik çox geniş vüsət almışdı və bunun Nuh peyğəmbərin zamanında baş verməsi mümkün deyildi. Çünki arada uzun zaman fərqi var idi. Şirk - Allaha ibadətdə ortaq qoşmaq Nuh

---

[143] **Qeyd**: bu barədə yuxarıda da mötəbər rəvayət qeyd edilmişdir.

peyğəmbərin dövründə həddən artıq yayılsa da, babillilərə və şumerlərə çatacaq səviyyədə deyildi. Çünki Nuha qədər yer üzündə insanlar tövhid (təkilahlıq dini) üzərində olmuş bir müddət sonra yenidən bütpərəstliyə qayıtmışlar.
Nuhun tufanı barədə  məlumatlar ilk olaraq onlardan sonra yaşamış şumerlərin mənbələrində yer alır. Odur ki, Şumer mənbələrində Nuhun tufanı barədə keçdiyi iddia olunan xəbərlər təkcə dini məlumat kimi deyil, həm də bəşər tarixinə dair çox mühüm bilgilər kimi dəyərləndirilər və isbatlanarsa, Qurandakı məlumatların həqiqəti inkar etmədiyi, əksinə, təsdiqlədiyi məlum olacaq. Heç bir tarixi mənbədə ətraflı şəkildə təsvir olunmayan Nuh tufanı Qurani-Kərimdə ən xırda detallarına qədər, təfsilatı ilə bizə vəsf etmişdir. Qurani-Kərim hətta digər səmavi kitablarda yer alan yanlışları, təhrifləri düzəldərək bizə çoxsaylı tarixi hadisələr barədə dəqiq məlumatlar vermişdir. Yəni Qurani-Kərimin bu və digər bir çox mövzularda Tövrat və İncildəki[144] təhrifləri bəyan etməsi onun ilahi bir kitab olduğunu bir daha sübut edir.

Onu da qeyd edək ki, ***Nuhun tufanı barədə məlumatlara yalnız qədim dini kitablarda və şumer yazılarında yox, bir sıra digər tarixi mənbələrdə də rast gəlmək mümkündür.*** Bu isə bir neçə anlama gəlir:

---

[144] **Qeyd**: istər Nuhun tufanı, istər Musa və İsa peyğəmbərlər barədə, istərsə də digər mövzularda.

**Birincisi:** bəşər tarixi üçün böyük önəm daşıyan bir hadisənin bir çox mənbələrdə qeyd olunması normal bir haldır. Bu adətən həmin hadisənin gerçəkliyinin təsdiqlənməsi anlamına gəlir.

**İkincisi:** Qədimdə baş vermiş bir hadisənin bir deyil bir çox mənbələrdə yer alması, xüsusən də sonrakı mənbələrdə daha geniş və daha dəqiq şəkildə izah olunması və digər mənbələrdəki təhrifləri vurğulaması isə yalnız həmin mənbənin nüfuzuna və mötəbərliyinə dəlalət edir.

**Üçüncüsü:** Şumer yazılarında Nuhun tufanı barədə məlumatların yer alması təbii bir haldır. Çünki hadisələr baş verdikcə tarixə həkk olunur. Heç bir hadisə baş verməzdən əvvəl tarixə çevrilmir. Tarixi bilgilərin mövcudluğu Qurandakı xəbərləri inkar etmir, əksinə, təsdiqləyir.

**Qayıdaq mövzumuza; Şumerlər kimlərdir? Hansı dövrdə yaşayıblar?** Şumerlilərin inancı olan bütpərsətlik və dünyada yaşadıqları zaman dilimi ilə bağlı dünyəvi alimlərin hesabladığı müddət (b.e.ə. VIII minillik) barədə artıq məlumat verdik.
Mesopotamiya dini isə qədim zamanlarda, Xristianlıq və İslam dövrünün başlanmasına qədər Yaxın Şərq regionunda yayılmış dini inanclardan ibarət idi. Bu inanclar o dövrdə həmin ərazidə yaşayan bütün xalqlar arasında geniş yayılmışdı. Şumerlərin dini görüşlərindən qaynaqlanan bu inanclar daha sonra digər xalqlar arasında yayılmışdır.

Şumer, Akkad, Babil, Assuriya kimi dövlətlərin dinlərinin mənşəyi birdir. Onların hamısı “Mesopotamiya dininə” əsaslanır.
“Mesopotamiyanın digər ərazilərində olduğu kimi, Babil dini də çoxtanrılı (politeist) din olmuşdur. Babildə də Şumer-Akkad tanrılarılarına ibadət edirdilər, lakin orada bu inanclar bir qədər mürəkkəbləşdirilmişdi. Eyni zamanda Babil əhalisi öz məhəllə, tayfa, ailə, şəhər, milli tanrı və tanrıcıqlarına ibadət etmişlər”[145].

Bu dinləri bir araya gətirən amil isə şəkk yoxdur ki, bütpərəstlik faktorudur. Şumerlilər bütpərəstlik inancında idilər, yəni onlar müsəlmanlar kimi bir Allaha deyil, onlarla, yüzlərlə tanrıya ibadət edirdilər.

Bütpərəst (politeist) bir inancı təkilahlıq prinsipinə əsaslanan dinlə müqayisə edib eyniləşdirmək nə məntiq, nə də ədalət çərçivəsinə sığmaz. Lakin, bu iddiaları dəlil kimi irəli sürənlər çəkinmədən imanla şirki, küfrü bir arada cəm etmək istəyirlər. **Tək olan Allaha ibadətə çağıran İslam dini ilə yüzlərlə tanrılara iman gətirməyi məqbul görən dinlərin eyni kökə malik olduğunu dilə gətirmək bəlkə də tarixdə irəli sürülən ən gülünc iddiadır.** Təbii ki, bu iddia məntiqdən uzaq,

---

[145] Bax: Aydın Əlizadə, “Qədim Babil dini” adlı məqalə, ikinci abzas. www.alizadeh.narod.ru saytı. Məqalənin linki: http://alizadeh.narod.ru/meqaleler/12.html Daxil olma tarixi: 2020.07.25.

əsassız və batildir. Çünki, yer üzünə təyin edilən bütün peyğəmbərlər məhz bütpərəstlik əleyhinə mübarizə aparmış və tövhid – təkilahlıq missiyası daşımışlar. Qurani-Kərim də bunu ifadə edir: "Biz Nuhu öz xalqına elçi göndərdik. O dedi: "Ey qövmüm! Allaha ibadət edin. Sizin Ondan başqa məbudunuz yoxdur. Mən sizə üz verəcək Böyük günün əzabından qorxuram"[(146)(147)]. Xülasə odur ki, təkilahlıq dini ilə bütpərəstlik qətiyyən eyniləşdirilə bilməz. Ona görə də deyirik ki, şumerlərin, babilistan əhlinin və ümumilikdə mesapatomiyadakı bütpərəst dinləri  şübhəsiz ki, İslam dinindən uzaqdırlar.

Qədim Şumer yazılarında mövcud olan rəmzlərdən biri "üstəgəl" işarəsidir. Bu cür simvollara digər qədim yazılarda da rast gəlinir. Misir yazılarında da yer alan bənzəri işarələrin xaç simvolu ilə əlaqəli olub-olmadığını demək çətindir. Çünki qədim xalqların yazıda istifadə etdikləri işarələrdən görünüşcə oxşar olub fərqli mənalar verən simvolların sayı az deyil. Elə günümüzdə rast gəlinən bir simvola dair misal deyək: "Chevrolet" markalı avtomobillərin loqotipi olan "üstəgəl" işarəsinə bənzər işarəni kimlərsə xaça da bənzədə bilər. Lakin şirkət rəsmilərinə müraciət etdikdə, bu işarənin xaç deyil, fərqli məna daşıyan bir simvol olduğu məlum olur.

---

[146] "Əraf" surəsi, 59

[147] Eyni sözləri Hud peyğəmbər də "Əraf" surəsi, 65, Saleh peyğəmbər də "Əraf" surəsi, 73, Şueyb peyğəmbər də "Əraf" surəsi, 85. Öz qövmünə xitabında dilə gətirmişdir. Bütün digər peyğəmbərlər də yalnız və yalnız insanları təkAllahlığa dəvət etmişlər.

Digər bir versiya isə şumerlərdə "çarmıxa çəkmək" adətinin qədim cəza növü olması versiyasıdır. Çarmıx xaç simvolunun mahiyyətini daşısa da, bu o demək deyil ki, şumerlərdəki çarmıxın xristianlıqla bir əlaqəsi var. Bu sadəcə bir ehtimaldır və dəlil hesab olunmur. Şumer yazılarında xaçabənzər simvolların olması müsəlmanlar üçün heç bir əhəmiyyət daşımır. Çünki, qədim xalqlarda çarmıxa çəkmək məşhur bir cəza növü olmuşdur. Odur ki, bu simvol onlar üçün tamamilə fərqli bir məna daşıya və ya sadəcə əlifbada yer alan bir hərf ola bilərdi.

Şumerlərin inancında mühüm yerə malik məsələlərdən biri də "cadugərlik və sehrbazlıq" idi. Hətta Quranda keçən və sehr barədə bəhs edilən ayədə “Babil” sözü keçir və məhz həmin ayədə sehr və cadu pislənir. Ayə belə başlayır:

“Onlar Süleymanın səltənətində şeytanların oxuduqlarının ardınca getdilər. Süleyman kafir olmadı. Lakin şeytanlar sehri və Babildə Harut və Marut adlı iki mələyə nazil olanı insanlara öyrədərək kafir oldular”[148].

Çoxlarına məlumdur ki, cadugərlik və sehrbazlıq İslam dinində qadağan və haram hesab edilən əməllərdəndir. İslamdan xəbəri olmayanlar isə əslində İslama zidd olan mövzuları, İslamın qadağan etdiyi məsələləri sırf müsəlman balalarını dinlərində şəkk-şübhəyə salmaq üçün şübhə kimi ortaya atırlar. Şumer və Babil əhalisi

[148] “əl-Bəqərə” surəsi, 102

haqqında doğma dilimizdə olan mənbələrdə də qədim sivilizasiyaların İslam dini ilə yersiz şəkildə əlaqələndirilməsinin dəfələrlə şahidi olmuşuq. Baxmayaraq ki, şumerlərin bütpərəstlik inancında olmaları bu şübhəni alt-üst etməyə kifayətdir.

Babillilər və şumerlər arasında cadugərliyin yayılması və təşviq edilməsi bizə çox mühüm bir ipucu verir - bu da sehrbazlığın, cadugərliyin Süleyman peyğəmbərdən sonra vüsət alması həqiqətini ortaya qoyur. Çünki Qurani-Kərim sehrbazlığın Süleymanın səltənətində yayıldığını bizə xəbər verir. Süleyman peyğəmbər isə Nuh peyğəmbərdən çox-çox sonralar yaşamışdır. Onlar arasındakı müddətin neçə yüz və ya min il olması bizə məlum olmasa da, bu bir daha sübut edir ki, Nuhun tufanını xatırladan hadisə barədə şumerlərin mənbələrində olan məlumatlar onların mövcudluğundan əvvəl baş vermiş tarixi həqiqətləri göstərir. Bu da Nuh peyğəmbərin şumerlərdən əvvəl yaşadığına dəlalət edir.

Yuxarıda qeyd olunmuş ayəni oxuyan hər kəs Quranın cadugərliyi açıq-aydın şəkildə pislədiyinin və sehri qadağan etdiyinin şahidi olur. Lakin istər bu məlumatlar, istərsə də İbrahim peyğəmbərin bütpərəstliyə qarşı mübarizəsi doğma dilimizdə olan Vikipediyada təhrif edilərək oxuculara təqdim olunur. Belə ki, adı çəkilən mənbədə tövhidin (təkilahlığın) təbliğatçısı olan peyğəmbərlərin zamanında bütpərəstliyin yayıldığı barədə məlumat verilsə də, onların bütpərəstlik əleyhinə mübarizəsi barədə məlumat verilmir. Məqalədə hadisələrin dini cəhətdən izahının və təfsilatlarının

verilməməsi oxucuda yalnış təsəvvürlər oyadır və oxucuya elə çatdırılır ki, sanki səmavi dinlər qədim mədəniyyətlərin məhsuludur.

Hətta həmin yazıda şumerlərin istifadə etdiyi bəzi rəqəmlər barədə bilgilər verilir və 12 rəqəmindən bəhs edərkən, yəhudilikdə və yəhudilikdən təsirlənən şiəlikdə 12 rəqəqminin önəmi (12 imam) vurğulanır və 12 rəqəmi İslami bir rəqəm kimi qələmə verilir. Bütün bunlar məqalə sahibinin İslamdan xəbərsiz olduğunun göstəricisidir. Halbuki, bu əsassız əlaqələndirmə əvəzinə, şumerlərin istifadə etdiyi bu rəqəmin məsələn ilin 12 ayı ilə əlaqəli olduğunu qeyd etmək olardı.

Vikipediyanın azərbaycandilli versiyasında Babil barədə verilmiş məlumatlar əslində çox məkrli bir məqsədə xidmət edərək yığılmışdır. Son cümləsinə qədər qərəzli bu məqalənin sonunda bu cümlə yer alır: “Yəni, bu yəhudi mətnlərinin məzmunu Quranla üst-üstə düşür”. İslamı gah şumerlər, gah babillilər, gah da yəhudi və xristianlarla əlaqələndirmək məqsədi güdən bu tipli məqalələr yalnız dindən xəbəri olmayan insanları çaş-baş sala bilər. Çünki həmin məqalədə İslam dini yəhudilik və xristanlıqla əlaqələndirilir, lakin bu dinlər arasında olan böyük fərqlər qeyd olunmur. Şumer və Babil barədə də eyni qəribə metodun şahidi oluruq: onların bütpərəst olmasına baxmayaraq, oxucuya eyni qəribə üslubda, şüuraltı şəkildə yalnış bilgilər yeridilir. Bunları deməkdə məqsədimiz odur ki, sualı bizə ünvanlayan şəxsin bu məlumatları əldə etdiyi məqaləni oxuduq və həmin yazının elmi əmanətə zərbə vuran

qərəzli bir yazı olduğunun şahidi olduq. Bütün bunları göz önündə tutaraq bu qənaətə gəldik ki, Vikipediya və bir sıra digər mənbələrdə babillilər və şumerlərlə bağlı verilən məlumatlar yenidən işlənməlidir. Bu işi isə dindən anlayışı olan mütəxəssislərin köməyi ilə etmək məqsədəuyğundur.

## Peyğəmbərlərə niyə inanmalıyıq?

Peyğəmbərlərin göndərilməsində hansı hikmətlər var? Hansı səbəblərə görə biz peyğəmbərlərin Allah tərəfindən göndərilməsini təsdiqləməliyik? Deist inancına malik hər bir kəs özünə bu sualları verməlidir. Allahı qəbul edib peyğəmbəri inkar etmək aşağıda qeyd edəcəyimiz əsaslara görə doğru deyil: ilk öncə yəqin olaraq bilmək lazımdır ki, *peyğəmbərlərə* ***iman gətirmək*** *əqli və məntiqi dəlillərə əsaslanır.* Allahın varlığını qəbul etmək peyğəmbərlərin göndərilməsini bir neçə aspektdən zəruri edir:

**Birincisi:** Yaradanı səthi şəkildə qəbul edib Onun qüdrətini, əzəmətini başa düşməmək, onun insanları başlı-başına buraxmasına inanmaq Böyük Yaradanın onlara qanunlar qoya bilməyəcəyinə və peyğəmbərlər göndərməyəcəyninə inanmağa səbəb olur.

**İkincisi:** Öncə də deyildiyi kimi Yaradanı qəbul etmək, onun yaradılmışları unutmamasını, onları Öz diqqət və ehtimamından kənarda qoymamasını labüd edir. Hər

şeyi yoxdan Yaradan ilahi qüvvə kamil olduğu üçün, Onun Öz yaratdıqlarını başlı-başına buraxması kamilliyə ziddir və qeyri-mümkündür[149].

**Üçüncüsü:** Kainatdakı dəqiq nizam bizə bunu göstərir; hər kim Allahın mütləq qüdrətini və iradəsini qəbul edirsə, Allahın Qüdrəti baxımından Ona iman gətirməsinə heç bir maneə qalmır. Eyni zamanda da bu möhtəşəm yaradılışın yalnız şərəfli hikmət və qayəyə müvafiq şəkildə ərsəyə gətirilməsi danılmazdır.

**Dördüncüsü:** Din insanın yaradılış qayəsini izah etməkdə ən doğru yolu göstərir - bu da Allaha ibadət etməkdir. Elm isə bu məsələdə xüsusən “Niyə?”, “Nə üçün?” sualları kimi böyük suallar qarşısında bir-birini inkar və təkzib edən nəzəriyyələr irəli sürməkdən başqa bir şeyə qadir deyil. Elm öz çərçivəsindən kənara çıxmadıqda bəşəriyyətə faydalı olur. XXI əsrdə yaşamağımıza baxmayaraq, elm bu gün də çoxsaylı mühüm suallar qarşısında acizdir. İnsanla Allahın əlaqəsini, insanın yaradılış qayəsini ən gözəl şəkildə izah edən din İslam dinidir. Ağlı, əzaları və elmi məhdud olan insan əzəmətli yaradılış məqsədini necə anlaya bilər? İnsanın gözü, qulağı, əli, ayağı öz fəaliyyətində müəyyən həddi aşa bilmir, beyni müəyyən çərçivədən o tərəfə düşünə bilmir. Belə olduğu halda məgər qeyb aləminə yol göstərən bir bələdçi peyğəmbərə, şəriətə ehtiyac yaranmırmı?[150].

---

[149] “Cilədul-İlhəd”, Muhəmməd ibn Ibrahim əs-Səidi, səh.134
[150] Eyni mənbə, səh.147 (kiçik dəyişikliklərlə).

**Beşincisi:** Öz məhdud imkanları ilə müxtəlif iradəli, bir-biri ilə müharibə aparan, fərqli düşüncə tərzi və mədəniyyətlərə malik insanların yaradılaraq başlı-başına buraxılması ilahi hkmətə və ədalətə ziddir. Odur ki, insanlar həqiqi yaradılış qayəsini, dünyaya gəliş məqsədini bilmələri üçün mühüm bir məsdərə ehtiyac duyurlar. Bu məsdər isə hər şeyi sonsuz hikməti ilə xəlq etmiş Uca, Qüdrətli bir Allah tərəfindən göndərilə bilərdi.

**Altıncısı:** Müasir dövrdə istənilən məşhur istehsalçı şirkətlərin fəaliyyətinə nəzər yetirsəniz, onların istehlakçılara istehsalın məqsədi və istifadə qaydalarına qədər lazımi bütün məlumatları çatdırmaqda maraqlı olduqlarını görərsiniz. Bu, primitiv bir misaldır və Allah ən kamil misala layiqdir. Sizcə kainatı Yaradan bizi niyə yaratdığını və dünyada necə yaşamalı olduğumuzu bizə xəbər verməyibmi? Uca Allah buyurur: "Ən Uca sifət isə Allaha məxsusdur. O, Qüdrətlidir, Müdrikdir"[151]. Allah da Elçilərini bəndələrinə nəyin yaxşı, nəyin pis, nəyin haqq, nəyin batil, nəyin onlar üçün xeyirli, nəyin zərərli olduğunu bildirməsi, dünya və axirətlərinə fayda verən şeyləri bəyan etməsi, Allaha dəvət etmək, Allaha aparan yol ilə tanış etmək və bu yola çatdıqdan sonra nə etmək lazım olduğunu bəyan etmək üçün göndərmişdir.

**Yeddincisi:** İnsan Allaha gedən yolu nəzəri şəkildə (teoretik olaraq) bilsə də, öyrənsə də, yenə də özünə nümunə olacaq və onu bu yolda irşad edəcək ilahi elçiyə

---

[151] "ən-Nəhl" surəsi, 60.

ehtiyac duyur. Məhz bu səbəbdən də son peyğəmbər haqqında Quranda belə deyilmişdir: “Həqiqətən də, sən böyük əxlaq sahibisən!”[152]. Başqa bir ayədə isə: “Allahın Elçisi sizlərə – Allaha və Axirət gününə ümidini bağlayanlara və Allahı çox zikr edənlərə gözəl nümunədir”[153].

**Bütün bunları bildikdən sonra** bir anlıq Yaradan və yaradılmışlar haqqında düşünək: bir tərəfdə Yaradıcı tərəfindən yoxdan var edilən və göylərin, yerin və bu ikisinin arasında olan mövcudatın ixtiyarı və hökmranlığı verilmiş bir varlıq, digər tərəfdə isə isim, sifət və fellərində mütləq kamilliyə malik bir Yaradan. Bəs bu Yaradan ilə yaradılan arasında əlaqə forması necə olmalıdır? İnsan üçün Yaradana qulluqdan daha şərəfli bir rabitə ola bilərmi? Yaradanla yaradılmış arasındakı qarşılıqlı əlaqədə yaradılmış məxluq öz Yaradanına daha çox ehtiyac duymalı deyilmi? Bu əlaqənin məhz insan üçün zəruri olduğunu nəzərə alsaq, bu qarşılıqlı əlaqə ilə bağlı qanunları kim qoymalıdır? Bu qanunları müəyyən edən insan özümü olmalıdır?! Bunun əksini deməsi, həyatda yaşamaq fürsəti verilmiş bir məxluqun Öz Yaradanına qarşı nankorluq etməsi deyilmi?! Heç görülübmü ki, ölkə başçılarının öz rəiyyətləri və ya vətəndaşları ilə görüş qaydalarını, görüş üçün münasib vaxtları, rəsmi qərərgaha giriş-çıxışı və bu kimi digər məsələləri xidmətçilər rəhbərin xəbəri olmadan özləri təyin etsinlər? Yoxsa bütün bu qaydaları bunu rəhbərin

---

[152] “əl-Qələm” surəsi, 4.
[153] “əl-Əhzab” surəsi, 21.

özünün təyin etməsi daha doğru olar? Rəhbər özündə münasib olmayan qaydaları o təsdiqləyərmi? Öz istəyinə müvafiq qaydaları özü daha yaxşı müəyyən edə bilməzmi? Belə olan halda xidmətçilər onu uyğun olmadığı vaxtlarda xoşlamadığı, gəlməsinə icazə vermədiyi insanlarla görüşdürər və s.

Bəs elə isə özü kimi bəşər cinsindən olan digər varlıqlarla münasibətlərdə çoxsaylı xətalara yol verən insan özü və Allah arasında qanunları müəyyənləşdirməyə necə cürət edə bilər? Məgər bu qanunları onu yoxdan var edən Allah özü müəyyən etməli deyilmi? Bu Allaha aid olan bir haqq deyilmi? O zaman deistlər Allahla insan münasibətlərinin necə olması gərəkdiyini necə rahat şəkildə təyin edə bilərlər? Yaradılmış bir məxluq onu Yaradanla münasibətlərin sərhədlərini necə bu qədər arxayın şəkildə təyin edə bilər axı? Məgər burada bir ziddiyyət görünmürmü?

**Səkkizincisi:** İnsanla Allah arasındakı əlaqə (rabitə) insanın günaha meylli olan fitrəti səbəbilə öz saflığını çirkləndirir. Çünki insan çox unutqan, şəhvət və ehtiraslara meyl edəndir. Şeytan isə insanları azdıracağını vəd etmiş və Qiyamət gününədək Allahdan möhlət istəmişdir: “Mən də Sənin düz yolunun üstündə oturub insanları tovlayacağam. Sonra onların yanına önlərindən və arxalarından, sağlarından və sollarından gələcəyəm və Sən onların əksəriyyətini şükür edən görməyəcəksən”[154].

---

[154] “əl-Əraf” surəsi, 16-17.

Bu hallarda ilahi rəhmət təcəlli edir və qəflətini tərk etməsi üçün insana yol göstərir. Allah Quranda buyurur:

“Biz müjdə verən və qorxudan elçilər göndərdik ki, insanların elçilərdən sonra Allaha qarşı bir bəhanəsi olmasın. Allah Qüdrətlidir, Müdrikdir”[155].

Bütün insanlar yolunu azmadan cənnətə girməyə qadir olsaydı, Allah peyğəmbərlər göndərməzdi. Peyğəmbərlər gəlibsə, deməli bəşər övladına doğru yolu göstərənlərə ehtiyac olmuşdur. Çünki insanlar haqq yolu təhrif etməyə və dəyişməyə meyllidirlər.

**Əmin olun ki,** əgər peyğəmbərlər gəlməsəydi, o zaman da dinsizlər deyəcəkdilər ki, “Allah bəşər övladına yol göstərərək doğru yola gəlməyini istəyirsə, onlara qarşı şəfqətlidirsə, onda niyə onlara insanlar arasından elçilər göndərmədi?!” Halbuki Allah elçilər göndərib, lakin inadkarlar onları qəbul etmirlər!

İlahi hikməti və ilahi lütfünə müvafiq olaraq Allah Özü ilə bəndələri arasındakı əlaqəni asanlaşdırmağı və müəyyən çərçivəyə salmağı lazım bilib.

**Doqquzuncusu**: kamillikdən deyilmi ki, rəhbər seçilmiş və xalqını sevən hər hansı ölkə başçısı özü ilə xalqı arasındakı münasibətlərə, ölkədəki qayda-qanunlara aid bütün məsələləri xırdalıqları ilə bəyan etsin? Məgər bu

---

[155] “ən-Nisə” surəsi, 165.

rəhbər öz xalqına nəyi sevib nəyi sevmədiyini, ölkəsində hansı prinsiplərə riayət edilməsini istədiyini bəlli etməzmi?! Əksinə, hikmət və adillik tələb edir ki, o bütün bu məsələlərlə bağlı açıqlama versin! Çünki xalq öz rəhbərinin istəklərindən, qayda-qanunlarından agah olub onlara müvafiq şəkildə davranmalıdır. Rəhbər isə məhz müəyyən etdiyi qanunlara əsasən rəiyyətini hesaba çəkir. Ən gözəl nümunə və misallar isə Öz sifətlərində kamil olan Allaha məxsusdur. O buyurmuşdur :
"Ən Uca sifət isə Allaha məxsusdur"[156].
Allah belə bir kamilliyə məxluqlardan daha çox layiqdir. Həmçinin ilahi hikmətdəndir ki, Allah onlara Öz sevgisini qazanmağın və Ona yaxınlaşmağın yollarını bəyan etsin və onlar da bunun üçün səy göstərsinlər; və sevmədiyi şeyləri bəyan etsin ki, onlar da həmin əməllərdən uzaq olsunlar. Uca Yaradan da məhz belə etmişdir: O, elçilərini göndərmiş və bəşər övladından nə tələb etdiyini onlara bəyan etmişdir. Allah buyurur: "Müşriklərin xoşuna gəlməsə də, İslamı bütün dinlərdən üstün etmək üçün Öz Elçisini doğru yol göstəricisi və haqq din ilə göndərən Odur"[157].

Başqa bir ayədə isə O buyurur: "Sizə özünüzdən elə bir Elçi gəldi ki, sizin əziyyətə düşməyiniz ona ağır gəlir. O sizə qarşı qayğıkeş, möminlərə şəfqətli, rəhmlidir"[158].
Beləliklə, anlamış oluruq ki, peyğəmbərlərin göndərilməsi aləmlərə bir rəhmətdir.

---

[156] "ən-Nəhl" surəsi, 60
[157] "Tövbə" surəsi, 33.
[158] "Tövbə surəsi", 128.

**Onuncusu:** həqiqətən də insan çox sual verməyə hərisdir, öyrənməyi və işlərin aqibətini bilməyi sevir. İnsanı xüsusilə yaşadığı həyat və ölümündən sonrakı həyat barədə suallar maraqlanır. Fəaliyyət istiqamətindən asılı olmayaraq bir çox şirkət və müəssisələr də işə qəbul zamanı kadrların çoxlu sual verməsini bir üstünlük kimi dəyərləndirirlər. İşçi sual verməklə işləmək istədiyi şirkətin nizamnaməsi ilə tanış olur, iş yerində inkişaf etmək yollarını və cərimələnməsi ilə nəticələnəcək qayda pozuntularını öyrənir.
Əgər kainatda zərrə qədər yerə malik hər hansı bir şirkət də işçiləri ilə bağlı nizamnaməyə (nəyin icazəli, nəyin qadağan olması, iş qaydalar və s. haqda) sahibdirsə, o zaman Allahın hikmətinin və ədalətinin kamilliyindəndir ki, insanlara Ona tabe olmağın mükafatını və müxalif olmağın cəzasını bəyan etsin! Beləcə insan hər iki halda onu hansı aqibət gözlədiyini bilmiş olur.

**On birincisi:** insan psixologiyasına nəzər yetirsək, onun ibadətə meylli olduğunu görərik. Tarixi arqumentlər, psixoloji, ictimai hətta, təcrübi elmlərin bir çox sahələrində həyata keçirilən araşdırmalar göstərir ki, ibadətə və dinə meyl insanın daxilində əsaslı, köklü surətdə mövcuddur. İnsan xromosomları, sinir sistemi və beyni ilə əlaqəli aparılan araşdırmalar bu meyllərin mövcudluğunu göstərirsə, deməli, insan bu fitri hissləri düzgün məcraya, düzgün istiqamətə yönləndirməlidir. Bu yönləndirmə isə peyğəmbərlər sayəsində mümkündür.

İnsanların batil dinlərə yönəlməsini, Allahdan qeyrilərinə ibadət etməsini inkar edən son və yeganə haqq din İslam dinidir. Odur ki, "Bu qədər dinlər var" deyərək İslamın həqiqi mahiyyətini dərk etmədən onu ittiham etmək ən böyük cəhalətdir. İnsan fitrətində ibadətə meyl olsa da, ibadətin layiq olana deyil, layiq olmayana edilməsi böyük müsibətlərə yol açır. Abdullah Aciri "Şumuun-Nəhər" kitabında deyir: "Bu müsibət insanlar öz nəfsi istəklərinə uyduğu zaman baş verir: batil dinlərin əhlindən daşa, ağaca, şeytana və heyvana ibadət edənləri görə bilərsiniz. Hətta siçovula və qadın cinsi orqanlarına ibadət edənlər də var"[159]. Bütün bunların baş verməsi o demək deyil ki, bizim ibadətə ehtiyacımız yoxdur. Necə ki, müxtəlif ölkələrdə işə yaramayan, səmərəsiz müxalif partiyalar olduğu üçün "rəhbərə, prezidentə ehtiyac yoxdur" deyə bilmərik. Ağıl sahibi olan hər bir deist üçün bu misal kafi bir cavabdır.

**On ikincisi:** Peyğəmbərlərin rəhbərliyinə olan ehtiyacımızı hələ də dərk etməyən kəs öz halına diqqətlə baxmalı və özünə sual verməlidir ki, hər bir şeydə kamilliyi (və ya gözəlliyi) axtarırmı? Məgər insan kamilliyi sevmək fitrəti üzərində deyilmi və bu məqsədə böyük bir həvəslə can atmırmı? İnsanın nəzərində bir şeyin ucalığı və kamilliyi artdıqca, onun həmin şeyə bağlılığı və rəğbəti artır. Belə olan halda Uca Allah hər cəhətdən mütləq kamilliyə malikdir və bu kamillik Onun isim, sifət və fellərində də təcəlli edir. Uca Allah bəşər

---

[159] "Şumuun-Nəhər", Abdullah Aciri, səh 32

övladının tanıyacağı ən Əzəmətli varlıqdır. Onu tanımağa aparan yol isə peyğəmbərlikdən keçir.

**On üçüncüsü:** Dünyada üstün varlıq olan insanın sərbəst iradə sahibi olması, kamilliyə can atması, səbəb və məqsədlərinin axtarışına çıxması, amal və qayələrinin müxtəlif olması onun əməl və davranışlarının da müxtəlif olmasını gərəkdirir: yəni xeyir və şər, yaxşı və pis, faydalı və zərərli məfhumları təzahür edir. **Bu halda isə bizim bu əməlləri ölçüb hökm verməyimiz lazım olur.** Bəs biz bunu nəyə əsasən və necə edəcəyik? İnsan bunu öz ağlı ilə edə bilərmi? İnsan ağlının məhdud imkanlara malik olduğu hər kəsə məlumdur. Həmçinin dünyəvi əməllərin ölçülməsi və hökm verilməsi üçün elə bir fövqəbəşər qüvvə tələb olunur ki, o qüvvə öz havasına, kefinə və nəfsi istəklərinə bağlı olmasın, lazımi məsələlərlə bağlı hökm verməyə qadir olsun. Bu keyfiyyətlərə isə (məxluqlara bənzəməyən) yalnız mütləq Kamilliyə malik bir Yaradıcı xas ola bilər və Onunla insan arasında əlaqə isə məhz peyğəmbərlər vasitəsilə gerçəkləşmişdir.

**On dördüncüsü**: Bu dünyada bəzi heyvanlara elə özəlliklər verilmişdir ki, bunlar biz insanların diqqətindən yayına bilər və ya bu özəlliklərdən xəbərsiz ola bilərik. Hələ söhbət müxtəlif canlı növlərinin hər birinin özünəməxsus xüsusiyyətlərindən yox, ümumi bacarıqlarından gedir. Məsələn itlərin güclü iybilmə qabiliyyətinə malik olması, arıların kilometrlərcə uzaqlıqdakı güllərin yerini asanlıqla tapması, bəzi həşəratların yarım mil məsafədən bir-birinin eşidəcəyi

səslər çıxarması və bunun kimi çoxsaylı misalları bilmək bizə kifayət edir ki, bu xüsusiyyətlərə xas canlıları Yaradan Allahın öz peyğəmbərləri ilə danışmağa və onlara öz qatından mələk göndərməyə qadir olduğunu anlayaq.

**On beşincisi:** Bildiyimiz qədərilə deistlər ruhlar aləminə iman gətirirlər. Ruhlar aləminin varlığını qəbul edən deistlərin şəriəti inkar etmələri ateizm inancından daha qəribədir. Çünki hədəfsiz bir Yaradan inancına malik olub sonra ruhun varlığında da ilahi məqsədi dərk etməyən deistlər ümumilikdə hədəfsizlik sindromu ilə yaşamalı olurlar. Ruhun varlığı haqqında Qurani-Kərimdə buyurulmuşdur:

“Səndən ruh haqqında soruşurlar. De: “Ruh Rəbbimin əmrindəndir. Sizə yalnız az bir bilik verilmişdir”[160].

Ruhun mövcudluğu isə hədəfi olan, yaratdıqlarını başlı-başına buraxmayan bir Yaradanın varlığına işarədir.

**On altıncısı:** bəşər övladının bir çox elm sahələrini inkişaf etdirməsinə, kainatın tərkib hissəsi olan maddələri ətraflı şəkildə öyrənməsinə, atom bombasına qədər mürəkkəb mexanizmli silahlar işləyib hazırlamasına, kosmik fəzaya yol almasına baxmayaraq təcrübi (praktiki) elmin əsaslarının bu günə kimi müəyyən olunmaması və əksər məsələlərdən qafil

[160] “əl-İsra” surəsi, 85

qalması, dünyada mövcud olan çoxsaylı sirlərin açılmaması, anomaliya və fenomenlərin izah edilməməsi insanın Allahın yol göstəriciliyinə nə qədər ehtiyacı olduğunu göstərən ən böyük arqumentlərdəndir.

**On yeddincisi:** bəşər övladının təcrübi elmin əhatə dairəsi çərçivəsində yaradılış sirrini çözə bilməməsi, bu haqda bir-birinə zidd olan nəzəriyyə tərəfdarları arasında mübahisələrin bitməməsi və bu nəzəriyyələrin qaneedici olmaması bizim vəhyə olan şiddətli ehtiyacımızın ən bariz göstəricisidir. Dünyaya gəlmə sirrinin mühümlüyü və bu sirrin insanın qüdrəti dairəsindən kənara çıxması bir daha ona dəlalət edir ki, insanın dünya xaricindən gələn bilgi və müdaxiləyə ehtiyacı var. Günəşin istisi və işığı olmasaydı, yer üzərində həyat mümkün olmazdı – yəni, günəş və dünyamıza təsir göstərən bir sıra digər ünsürlər ekzogen xarakter daşıyır. Biz bu təsirləri görür və müşahidə edirik. Təcrübi elm bizə vəhy vasitəsilə çatdırılan bilgiləri təsdiqləmək və həyatın əsas qayəsini anlamaqda yardımçı rolunu oynayır.

*Bütün bu deyilənlərdən sonra onu da qeyd edim ki, bizim cəmiyyətdə deistlər insanlara peyğəmbərlərin "öz dövrünün ideoloqları" olduqlarını və buna görə peyğəmbər qəbul edildiklərini, peyğəmbərlərin çox zəkalı və uzaqgörən adamlar olduqlarını aşılayır, buna nail olduqdan sonra isə öz zəhərli şübhələrini yaymağa cəhd edirlər. Yəni, vəhyi ilahi rabitə ilə deyil, insan zəkası ilə bağlamağa çalışırlar. Yuxarıda deyilənlərin hamısı məhz onların öz dinindən xəbərsiz olan*

*insanların qəlbinə saldığı şübhələrə cavabdır. Ümumilikdə bu kitabın istər Muhəmməd Peyğəmbər, istərsə də bütün digər peyğəmbərlər barədə bəhs edən ümumi qisimləri özündə bu şübhələrin ətraflı cavablarını ehtiva edir. "Quranı Muhəmməd yazıb" deyənlərə cavab" adlı kitabçamızda isə deistlərin və qeyrilərinin peyğəmbərin sadəcə dövrünün ideoloqu olması, Quranın onun təxəyyülünün bəhrəsi olması kimi əsassız şübhələrə ətraflı cavab verilmişdir. Deistlər haqda bu kitabın müqəddiməsinin (giriş) sonlarında həmin kitab barəsində məlumat vermiş və kitabı əldə etmək üçün keçidə işarə etmişdik.*

## Dünyada bu qədər din var ikən, niyə məhz İslamı seçməliyik?

Tez-tez dinsizlərin bu tipli suallar səsləndirdiyinin şahidi ola bilərik: "Niyə məhz İslamı seçmək tələb olunur?", "Nə üçün İslamın haqq din olduğuna inanmalıyam?" və ya "Dünyada bu qədər dinlər ola-ola mən niyə məhz İslamı seçməliyəm?!"

**Bu suallara iki aspektdən cavab verəcəyik:**
*Birinci cavab daha qısa və konkret, ikinci cavab isə daha təfsilatlıdır.*

**Verilən sualların qısa cavabı:** Ümumilikdə İslam dini də daxil olmaq bütün dinlərə nəzər yetirməklə bu suala cavab tapa bilərik; ilk olaraq qeyd edək ki, **dinlər iki qismə bölünür:**

**a)** Kainatı Yaratmış, özü isə yaradılmamış bir Rəbbə ibadət etməyə çağıran dinlər (İslam, xristianlıq, yəhudilik).
**b)** Heyvan, insan və cansız bütlər kimi yaradılmış şeylərə ibadətə çağıran dinlər (buddizm, hinduizm, sintoizm və s.).

Əslində sağlam ağıl və məntiq yaradılmışlara (heyvana, insana, bütə və s.) ibadətə çağıran dinlərin yalnış olduğunu qəbul etməli və insan təxəyyülünün bəhrəsi olan bu batil dinlərdən uzaq durmağa çalışmalıdır.

Yerdə qalan dörd dinə gəldikdə isə: **xristianlığın** "ata, oğul və müqəddəs ruh" və ya "üçuqnum" (təslis) inancından ibarət olması bütün peyğəmbərlərin təkilahlıq missiyasına müxalifdir. Bu da xristianlığın təhrif edildiyinin açıq-aydın sübutudur. Üstəlik üç ilahın mövcudluğu [161] özü-özlüyündə ziddiyyətli bir inancdır və çoxsaylı fəsadlara səbəb olur. Hətta təhrif olunmuş bu din tək bir ilaha ibadətə çağırsaydı belə, İsa peyğəmbərin surətində təmsil olunan bu ilahın yemək yeməsi, təqiblərə məruz qalması, çarmıxa çəkilməsi və s. kimi yaradıcıya xas olmayan zəifliklərə malik olması xristianlığın təkilahlıqdan uzaqlaşmış, təhrif edilmiş, batil bir inanc olduğunun açıq-aydın sübutudur. Düşünürük

---

[161] Kitabın əvvəlində də qeyd etmişdik ki, "xristian deistlər" eramızın II əsrində xristianlığa bütpərəstlik inanclarının daxil edilməsinə etiraz etmişdilər. "Təslis inancı" da bu inanclardan biri idi.

ki, Allahın bir və ya üç olması məsələsində ixtilafa düşən bir din haqqında çox danışmağa ehtiyac yoxdur.

**Yəhudiliyə** gəldikdə isə, bu din qövmçülüyə və irqçiliyə dəvət edir və yəhudilərin bütün millətlərdən üstün olduğunu təbliğ edirlər. Yəhudiliyə iman gətirənlər etiqdar edir ki, yəhudilər ağa, başqa millətlər isə onların köləsidir. Yəhudiliyə daxil olmaq istəyən kəsin ya anası yəhudi olmalıdır, ya da o, yəhudilərin ən üstün millət olduğu fikrini qəbul etməlidir. İrqçiliyi ön plana çəkən bir din barədə söhbətə burada nöqtə qoyur və düşünürük ki, bu dinin batil olduğuna dəlil olaraq artıq sözlərə ehtiyac yoxdur.

**Zərdüştlük** dini: Bu din iki ilahın - xeyir ilahı Hörmüz və şər ilahı Əhrimanın varlığına əsaslanır. Odur ki, dinlərin araşdırılması ilə məşğul olan bəzi tədqiqatçıların Zərdüştlük dinini monoteist (təkilahlıq) dinlərə bərabər tutaraq eyni kateqoriyaya ayırmaları elmi cəhətdən doğru deyil[162].

---

162 Zərdüştün yaşadığı dövr barədə böyük ixtilafların mövcudluğu səbəbilə bəzi tədqiqatçılar əslində Zərdüştlüyün Zərdüştlə əlaqəsinin olmadığı, onun sadəcə saleh bir insan və ya təkilahlığa dəvət edən bir şəxs olduğu ehtimalını da qeyd etmişlər. Tədqiqatçıların fikrinə əsasən, yazılı mənbələrdə Zərdüştün yaşadığı dövr barədə e.ə. VI minillik, II minillik, 1500-cü və 600-cü illər kimi fərqli rəqəmlər qeyd olunubsa, o zaman onun özü haqqında məlumatların da təhrif edilməsi ehtimalı çox böyükdür. Üstəlik nəzərə almaq lazımdır ki, eramızdan əvvəlki dövrdə məlumatların olduğu kimi tarixə həkk olunması ilə bağlı böyük problemlər yaşanmışdır.

Zərdüştlük etiqadını nəql edən və onun banisi hesab edilən Zərdüşt haqqında isə əlimizdə heç bir tutarlı məlumat yoxdur. Lakin zərdüştilərin odu müqəddəs hesab edərək atəşpərəstliyin əsasını qoymaları, atəşə sitayiş ayinləri, dünyanı xeyri və şəri təmsil edən iki ilahın idarə etdiyini deməleri bu dinin Allaha deyil, oda sitayişə xidmət etdiyini, ilahi bir din deyil, bəşəri bir icad olduğunu göstərir.

**Bu qısa təhlildən sonra yerdə yalnız həqiqətən tək ilaha ibadətə və itaətə çağıran İslam dini qalır:** İslam dini ağıla, məntiqə və sağlam fitrətə müvafiq bir dindir.

**Nəyə görə məhz İslam?**

**Birincisi**: Ona görə ki, İslam tək bir millətə, xalqa və ya qövmə deyil, bütün bəşəriyyətə xitab edir;
**İkincisi**: İslamı təbliğ etmək üçün göndərilmiş Muhəmməd peyğəmbər ﷺ özünə peyğəmbərlik verilməzdən əvvəl sadiqliyi və doğruluğu ilə tanınmış, istər öz qövmündəki, istərsə də qeyri qəbilələrdəki bütün insanların etibarını qazanmışdır.
**Üçüncüsü**: İslami məsdərlərdən Qurani-Kərim hərfbəhərf, nöqtəsinə, vergülünə qədər Allahın nazil etdiyi şəkildə qorunmuş, hədislər isə hədis alimləri tərəfindən hədis elminin mötəbər üsulları ilə hərtərəfli şəkildə mühafizə edilmişdir[163]. İslamın əsası olan bu iki

[163] Uca Allah İslam ümmətinə özünü hədis elminə həsr etmiş, hədislərin isnadını, sənəd zəncirində yer alan ravilərin (hədis rəvayət edənlərin) nəsəblərini, həyatlarını, doğumları və ölümlərini, kimdən hədis rəvayət etdiklərini, hətta hədis

mənbənin toxunulmazlığının 14 əsr boyunca qorunması ilahi qüvvənin yardımı olmadan mümkün deyil[164]. Hədislərin necə qorunması haqda şübhələrə ətraflı şəkildə "Quranilərin 13 məşhur şübhəsinə cavab" adlı kitabımızda cavab verilmişdir. Kitabı internet üzərindən axtarışla PDF formatda endirmək mümkündür.

**Dördüncüsü**: İslamın kainatı Yaradan qüvvə barəsində təqdim etdiyi təsəvvürlər kifayət qədər aydın və dolğun

---

rəvayət edənlərin nə qədər güclü hafizəyə malik olduğunu belə araşdıran alimlər bəxş etmişdir.

Bəşər tarixində "nəsəb elmi" üzrə ən böyük və ən mötəbər kitabları məhz İslam alimləri qələmə almışlar. Bu kitablara misal olaraq əs-Sədusinin "Cəməhirul-Qabəil", ibnus-Səib əl-Kəlbinin "Nəsəb Muid vəl-Yəmən Kəbir", İbn Hişamın "Ənsəbul-Himyər və Mulukuhə" kimi kitablarını sadalamaq olar. Hər hansı bir avropalı və ya amerikalı əksər hallarda öz soyunu üç-dörd nəsil əvvəldən artıq bilmədiyi halda, ərəblər öz soy-köklərini on dörd əsr və bundan daha əvvələ qədər bilirlər. Nəsəb elminə xüsusi diqqət peyğəmbərimizin dövründə yaşayan ərəblərdə mövcud idi. Xəlifə Əbu Bəkr əs-Siddiq (Allah ondan razı olsun) nəsəb elmini ən yaxşı bilənlərdən idi.

164 Vaxtilə mötəbər hədislər İslam alimləri, xüsusən də hədis alimləri tərəfindən əzbərlənirdi. Alimlər isnadı zəif və uydurma "hədisləri" bəyan edir, onları isnadı sağlam, mötəbər hədislərdən ayırırdılar. Beləcə yeni "hədislərin" uydurulması cəhdlərinin qarşısı alınırdı. Mötəbər hədislər kitablara salınmışdı və isnadlarındakı bütün rəvayətçilərin adları, yaşadıqları dövr, rəvayət etdikləri hədislərin sayına qədər bəlli idi. Yeni "hədis" uydurmağa cəhd edən şəxslər bu elm sayəsində dərhal ifşa olunurdu. Alimlər uydurma və zəif "hədisləri" bəyan edən xüsusi kitablar da qələmə almışdılar. Bu kitablar arasında ən məşhurlarından biri İbnul-Cövzinin "əl-Movduat minəl-Əhadis əl-Mərfuat" əsəridir.

məlumatlara əsaslanır. Sağlam düşüncə və məntiq də bu məlumatları qəbul edərək təsdiqləyir.
**Beşincisi**: Qurani-Kərimi düzgün anladığımız müddətcə Quranda heç bir ziddiyyətin olmadığını görərik. Əgər Quran Allahdan qeyrisi tərəfindən nazil olsaydı, orada çoxlu ziddiyyətlər olardı.
**Altıncısı**: İslam dini kainatın yaranması barədə də dolğun, asan və məntiqi izahlar təqdim edir. Halbuki kainatın yaranması müasir elmin qarşısında duran ən çətin və qəliz mövzulardan biridir.

**Yeddincisi**: İslam dini insanın yaranması, bu dünyadakı missiyası barədə aydın məlumatlar versə də, İslama aid olmayan fikir cərəyanlarının mənsubları bu mövzuda daim böyük sıxıntı çəkmişlər.

**Səkkizincisi**: Bütün dinlər arasında ən üstün əxlaqa, şərəfli həyata dəvət edən, məsdərləri bu barədə dəlillərlə dolub-daşan ikinci bir din yoxdur. Bu isə ağıl sahiblərinə görə yalnız həqiqi, ilahi bir dində mümkün ola bilər.

Belə olduğu halda bütün bunları bilən və asanlaşdıran bir Yaradan vardır ki, O, bizi yaradıb və Ona ibadət etməyimiz üçün yer üzünə göndərib.

**Sualın təfsilatlı cavabı isə belədir:**

**Birinci məsələ:** *İslam peyğəmbərinin ﷺ doğruluğu, sadiqliyi* – bu peyğəmbər elə bir insan idi ki, peyğəmbərlikdən öncə onu artıq "Muhəmmədul-Əmin"

(yəni “Etibarlı Muhəmməd”) və ya “Sadiqul-Əmin” (yəni “doğru sözlü”, “etibarlı”) adlandırırdılar. İnsanlar heç vaxt onun yalan danışdığının şahidi olmamışdılar. Yaşadığı cəmiyyətdə onun özü kimi doğru sözlü və etibarlılığı ilə məşhurlaşmış ikinci bir adam yox idi. Hətta, o ﷺ ilk dəfə peyğəmbərliyini elan etmək istədikdə: “Ey insanlar! Əgər mən desəm ki, bu vadinin arxasında bir ordu var və onlar bizə hücum etmək istəyirlər, məni təsdiqləyərsinizmi?!” – dediyi zaman: “Bəli (inanarıq), ey Muhəmməd, biz sənin heç bir zaman yalan danışdığının şahidi olmamışıq – dedilər”[165].

Həmçinin o ﷺ, peyğəmbər olmamışdan öncə Kəbənin təmiri zamanı qara daşı kimin daşıyacağı barədə ixtilaf düşdükdə, bu işi görmək ona həvalə olunmuşdu. Çünki o, sadiqliyi, vəfalılığı, doğruluğu ilə kiçik yaşlarından tanınmışdı. Onun ﷺ necə doğru sözlü olduğu barədə çoxlu sayda tarixi hadisələri misal gətirmək olar. Bir insanın öz iddiasında doğru olub-olmadığını bilmək üçün ilk növbədə onun insanlar arasında doğrusözlü, yoxsa sözünə etibar edilməyən birisi kimi tanındığını bilmək labüddür. Odur ki, ilk olaraq məhz bu mühüm amili qeyd etməyi məqsədəuyğun gördük.

**İkinci məsələ:** İslam dini insan təxəyyülünün bəhrəsi olan bir firqə və ya inanc sistemi deyil. Əksinə, İslam bütün peyğəmbərlərin gətirdiyi dinlərin əsli olmuş, haqq əqidənin və düzgün ibadətlərin əsasını təşkil etmişdir.

[165] Bax: “Səhih əl-Buxari”, 4770.

İslam təkilahlıq (tövhid) missiyası daşıyan dinlər arasında ən sonuncusu və ən safıdır.

İslam təhrifə məruz qoyulmuş səmavi dinlərin (xristianlıq və yəhudilik) xətalarının düzəldilməsini hədəfə alan son ilahi din olaraq qarşımıza çıxır. İslam Adəmdən İsaya qədər[166] gəlib keçmiş bütün peyğəmbərlərin təkilahlıq inancını geri qaytarır. Tövrat və İncildə də bütün peyğəmbərlərin əqidəsinin təkilahlıq olduğu ifadə edilir. Bu saf əqidə nə bir olan Allahı "üç" hesab etmir, nə Allahı hər hansı bir təsvirlə vəsf etmir, nə insanın intihar edərək ölən ilahları tərənnüm etməsindən, nə bir qrup ilahın digər ilahlarla ixtilafından bəhs etmir, nə də müqəddəs ruhun atadan ayrılmasını təbliğ etmir. Uca Allah buyurur:

“Allah Nuha tövsiyə etdiyini, sənə vəhy etdiyimizi, İbrahimə, Musaya və İsaya tövsiyə etdiyimizi sizin üçün də dində qanun etdi: “Dinə doğru-düzgün etiqad edin və onda bölünüb firqə-firqə olmayın!” Sənin dəvət etdiyin tövhid (təkilahlıq etiqadı) müşriklərə ağır gəldi. Allah istədiyi kəsi Özü üçün seçər və Ona üz tutanı Özünə tərəf yönəldər”[167].

Həmçinin Allah buyurmuşdur: “Biz Nuha və ondan sonrakı peyğəmbərlərə vəhy etdiyimiz kimi sənə də vəhy etdik. Biz İbrahimə, İsmailə, İshaqa, Yaquba və

---

166 Adəm, Nuh, Saleh, Eyyub, Hud, İbrahim, Musa, Davud, Yunus, Harun və İsa - onlara Allahın salamı olsun.
167 “əş-Şura” surəsi, 13

onun nəslinə, İsaya, Əyyuba, Yunusa, Haruna və Süleymana da vəhy etdik. Davuda da Zəburu verdik”[168].

Digər bir ayədə isə belə buyurulur: “İbrahim də, Yaqub da bunu oğullarına vəsiyyət etdilər: “Ey oğullarım! Həqiqətən, Allah bu dini sizin üçün seçmişdir. Siz də ancaq müsəlman olaraq ölməlisiniz!”[169].

Bir sözlə, İslam digər dinlər kimi deyil, peyğəmbərlərə vəhy edilən bütün dinlərin əslidir. Lakin insanlar sonradan o dinləri təhrif etmişlər. Peyğəmbərlərin dilə gətirmədiyi sözlər onların adından deyilmiş, etmədikləri şeylər onların adından edilmişdir. Xüsusən də yəhudi və xristian din xadimləri öz dinlərini qəsdli şəkildə təhrif etmişlər. Halbuki onlara İslam üzərində olan peyğəmbərlər göndərilmişdi. Həmin peyğəmbərlər onlara tək Allaha ibadət etməyi, Ona ortaq qoşmamağı, Allahı inkar etməməyi, Ona inanmağı əmr edirdilər. Qurani-Kərimdə onların öz dinlərini təhrif etmələri təsdiqlənərək belə buyrulur:

“Vay o şəxslərin halına ki, onlar öz əlləri ilə kitab yazır, sonra da: “Bu, Allah tərəfindəndir!”– deyirlər ki, onunla cüzi miqdarda pul əldə edə bilsinlər. Öz əlləri ilə yazdıqlarına görə vay onların halına! Qazandıqları şeyə görə vay onların halına!”[170].

---

[168] “ən-Nisa surəsi”, 163
[169] “əl-Bəqərə” surəsi, 132
[170] “əl-Bəqərə” surəsi, 79

Qurani-Kərim onların öz əlləriylə kitab yazaraq o kitabı yalandan Allaha nisbət etmələrini necə də gözəl vurğulamışdır. Heç bir şəkk-şübhə yoxdur ki, Allah İslam dinini göndərməklə bizi yəhudi və xristianların təhriflərindən qorumuş və bizə doğru yolu göstərmişdir. Qurani-Kərimin doğru yolu göstərən və şəkk-şübhə dogurmayan bir ilahi kitab olduğunu Allah elə Quranın girişində buyurur: "Bu, qətiyyən şübhə doğurmayan, müttəqilərə doğru yol göstərən bir Kitabdır"[171].

**Üçüncü məsələ:** İslamdan qeyri bütün dinlərdə şirk elementləri mövcuddur, İslam isə şirkdən və küfrdən qorunmuş yeganə dindir. Məsələn, xristianlar İsa peyğəmbəri "Allahın oğlu" adlandırır, onu peygəmbərlik çərçivəsindən çıxararaq ilahi sifətlər verirlər. Bu isə həm Allaha şərik qoşmaq, üstəlik də İsa peyğəmbərin gətirdiyi dini təhrif etməkdir. Yəhudilər də həmçinin "Üzeyir Allahın oğlu", mələklər isə Allahın "qızlarıdır" demişlər.
Quranda Allah buyurur: "Yəhudilər: "Üzeyr Allahın oğludur"– dedilər. Xaçpərəstlər də: "Məsih Allahın oğludur"– dedilər. Bu onların ağızlarından çıxan sözlərdir"[172].

Bütün bunlar şirk və küfr eleməntləridir ki, xalis və həqiqi dində bu şeylərin olması qeyri-mümkündür. Hinduizm kimi Allahın vəhyi sayəsində yox, insanların nisbi fikirləri əsasında gerçəkləşən və səmavi kitabları olmayan

[171] "əl-Bəqərə" surəsi, 2
[172] "ət-Tövbə" surəsi, 30.

inancların mənsubları da Allaha şərik qoşur və bütlərə ibadət edirlər. Ümumiyyətlə, bütpərsətliyi din kimi qəbul etmək və məğzi təkilahlıq olan dinlərə bərabər tutmaq doğru deyildir. Xülasə, istər səmavi Kitab verilmiş dinlər, istərsə də öz-özünə formalaşmış digər inanc sistemləri olsun, İslamdan başqa istənilən əqidədə şirk və küfr elementləri mövcuddur.

**Dördüncü məsələ**: Allah qatında haqq din yalnız İslamdır. Uca Allah buyurmuşdur: "Həqiqətən, Allah yanında qəbul olunan din, İslamdır! Kitab verilənlər ancaq özlərinə elm gəldikdən sonra aralarındakı zülm və həsəd üzündən ixtilafa düşdülər. Kim Allahın ayələrini inkar edərsə, bilsin ki, Allah tez haqq-hesab çəkəndir"[173].

Başqa bir ayədə isə buyurmuşdur: "İslamdan başqa bir din axtaran şəxsdən, o din heç vaxt qəbul olunmaz və o, axirətdə ziyana uğrayanlardan olar"[174].

**Beşinci məsələ:** İslam Allahın nazil etdiyi sonuncu din və ilahi şəriətlərin (qanunlar toplusunun) tamamlayıcısıdır. İslam dininin ehtiva etdiyi hökmlər Qiyamət gününə qədər insanlara din olaraq kifayət edir. Allah öz Kitabında Muhəmməd peyğəmbəri ﷺ "sonuncu" peyğəmbər adlandırmışdır. Yəni onun şəriəti və yolu da son şəriət və son yoldur. Uca Allah Quranda buyurur: "Muhəmməd aranızdakı kişilərdən heç birinin

---

173 "Ali İmran" surəsi, 19.
174 "Ali İmran" surəsi, 85.

atası deyildir. Lakin o, Allahın Elçisi və peyğəmbərlərin sonuncusudur. Allah hər şeyi bilir"[175].

Bu o deməkdir ki, onun dəvəti sadəcə hər hansı bir nəsli və ya qəbiləni əhatə etmir, dünyadakı bütün yoxsulları, zənginləri, güclüləri və zəifləri, zalımları və ədalətliləri, insanları və cinləri öz əhatəsinə alır.

.

**Altıncı məsələ:** İslam bütün bəşəriyyətə xitab edir; Allah Quranda buyurur: "Səni də aləmlərə ancaq bir rəhmət olaraq göndərdik"[176].

Peyğəmbər bəşəriyyətə rəhmət olaraq göndərildiyi kimi, Qurani-Kərim də bir xatırlatma və rəhmət olaraq göndərilmişdir. Allah Quranda buyurur: "Bu Quran aləmlərə ancaq xatırlatmadır"[177]. Yəni Qurani-Kərim bütün bəşəriyyətə ünvanlanmış öyüd-nəsihətdir.

**Yeddinci məsələ:** İslam dinində adil olmaq əmr edilir; İslam dinində dost və ya düşmən, yaxın və ya uzaq bütün insanlarla ədalətli davranmaq əmr edilmişdir. Uca Allah Quranda buyurur: "Allah ədalətli olmağı əmr edir"[178]. O həmçinin buyurmuşdur: "Söz söylədiyiniz zaman, qohumunuz olsa belə, ədalətli olun"[179].

---

[175] "Əhzab" surəsi, 40
[176] "əl-Ənbiya" surəsi, 107
[177] "Sad" surəsi, 87
[178] "ən-Nəhl" surəsi, 90
[179] "əl-Ənam" surəsi, 52

İslam dinində yalnız insanın sevdikləri ilə deyil, hətta düşmən belə olsa, onunla ədalətli davranmaq əmr edilir: “Hər hansı bir camaata qarşı olan kin-küdurət sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun!”[180].

Xüsusən dövrümüzdə bəzi insanlar özləri ilə eyni fikrə sahib olmayanları çox rahat və ədalət prinsipini qorumadan insafsız şəkildə təhqir edirlər. İslam isə insanları təmkinli olmağa çağırmış və insanlara qarşı ədalətsizlik edərək həddi aşmaqdan çəkindirmişdir.

**Səkkizinci məsələ:** İslam elmə, oxumağa, inkişafa səsləyir: İslamın müqəddəs kitabı olan Qurani-Kərim elmə, oxumağa, öyrənməyə səsləyir. Quranın ilk nazil olan ayəsi məhz “Oxu!”[181] əmridir. Bu əmr peyğəmbərin Cəbrayıl adlı ilahi vəhy mələyindən eşitdiyi ilk ayədir.

O cümlədən də, elm öyrənmək insanların dərəcələrinin yüksəlməsi və Allahın razılığını qazanmaları üçün bir vasitədir. Necə ki, Qurani-Kərimdə buyrulmuşdur:

“Allah sizdən iman gətirənlərin və özlərinə elm verilmiş kimsələrin dərəcələrini ucaldar”[182].

Muhəmməd peyğəmbər ﷺ demişdir: “Elm tələb etmək (öyrənmək) hər bir müsəlmana vacibdir”[183].

---

[180] “əl-Maidə” surəsi, 8
[181] “əl-Aləq” surəsi, 1.
[182] “Mücadilə” surəsi, 11.

Başqa bir rəvayətdə Məhəmməd peyğəmbər ﷺ buyurmuşdur: “Sizin yanınıza elm öyrənmək üçün qövmlər gələcəklər. Əgər onları görsəniz, peyğəmbərin vəsiyyətinə uyğun şəkildə: “Xoş gəlmişsiniz!” deyin və onları öyrədin”[184].

Bu gün biz əcnəbi bir dil öyrənməkdə çətinlik çəkirik; dil öyrənmək bəzən bir neçə ayımızı və hətta ilimizi alır. Halbuki səhabələrdən biri peyğəmbərin tapşırığı ilə 21 gün ərzində İbrani dilini öyrənmişdir.

Başqa bir hədisdə isə peyğəmbər ﷺ buyurur:

“İnsan öldüyü zaman onun əməli kəsilir. Yalnız üç şeydən başqa: Davamlı sədəqə vermək və ya faydalı bir elm qoyub getmək və ya ona dua edən övlad qoyub getmək”[185].

Hədisdə keçən “Faydalı bir elm qoyub getmək” cümləsi elmə necə böyük önəm verildiyinin göstəricisidir. Bu elmə - insanın özü və cəmiyyəti üçün faydalı olan elm də daxildir. İslam dini cəmiyyətə faydalı olan, insanların faydalı inkişafına aparan yollara rəğbətləndirir.

---

[183]“Səhihul-Cami”, 308-309. Şeyx Albani səhihləşdirmişdir.
[184] “Sunəni ibn Macəh”, 247; “əs-Sahiha” 280-ci səhifədə şeyx Albani “həsəndir” demişdir.
[185] “Səhihi Muslim”, 1631.

İslamın 14 əsrlik tarixi boyunca mövcud olmuş nəhəng İslam dövlətləri daim elmi nailiyyətlərə imza atmış və elmi tərəqqinin təcəssümü olmuşlar. Əməvilər, Abbasilər, Osmanlılar, Məmlukilər, Əndəlüs dövləti və digər böyük İslam dövlətlərinin inkişafında alimlərin xüsusi rolu olmuşdur. Məhz İslam alimlərinin coğrafiya, kimya, cəbr və həndəsə elmi, tibb və digər elm sahələrində imza atdığı mühüm uğurlar və heyrətamiz kəşflər Qərb dünyasında elmin inkişafı üçün əsas rolunu oynamışdır. Müsəlmanların dünyəvi elmlərin əsasını qoymaqda və inkişaf etdirməkdə Qərb dünyasını əsrlərlə qabaqlamasından bəhs etsək, cildlərlə kitab ərsəyə gələr. Bütün bu nailiyyətlər İslam təlimindən qaynaqlanır. Müsəlmanların son əsrdə hərtərəfli şəkildə zəifləməsinin başlıca səbəbi ideoloji deyil, siyasi amillərlə bağlıdır. Çünki son nəhəng İslam dövləti olan Osmanlı imperiyası Qərbin böyük dövlətləri tərəfindən təklənmiş və nəticədə çökdürülmüşdür. Çünki Osmanlı dövləti 6-7 əsr boyunca Avropaya gözdağı verən qocaman bir dövlət olmuşdur. Onu sadəcə siyasi və hərbi arenada təkləmək yoluyla çökdürən Avropa ölkələri 100 ildir ki, müsəlmanların elmdən uzaq düşməsi üçün çalışıb-vuruşurlar. Onlar azğın firqələrin inkişafına yardım etməklə müsəlmanların başını daxili savaşlar və ixtilaflarla qatmaq istəyir, bütün vasitələrlə İslam ümmətinin elmi inkişafına mane olmağa çalışırlar. Hal-hazırda Qərb aləmində müsəlmanlara qarşı istifadə olunan əsas psixoloji silahlardan biri də "islamofobiya" təbliğatıdır. Lakin İslam düşmənlərinin bütün cidd-cəhdlərinə baxmayaraq, müsəlmanların elmə olan

marağı İslami təlimlərdən qaynaqlandığı üçün bu ümmət gec-tez öz izzətini qaytaracaqdır inşəAllah.

## Deistlərin bəzi iddialarına cavablar!

**1 -** ***Biz kimik, haradan gəlmişik, hara gedirik? Nə üçün buradayıq?*** Deistlərə görə ruh varsa, ruhun başlanğıc nöqtəsi də olmalıdır və tanrı anlayışı məhz bu məqamda ortaya çıxır.

Deistlərin bu iddiasının məntiqi ardıcıllığı olaraq belə bir sual meydana gəlir: heç bir məqsədi və şəriəti olmayan tanrı? Yoxsa sizin haşa, iradəsiz hesab etdiyiniz, lakin əslində öz yaratdıqlarını nəzarətsiz qoymayan, onları haqq-hesab etməyə Qadir olan Allah?! Sizi bu batil qənaətə gətirən məhz hədəfsiz deizm təfəkkürüdür. Yoxsa qəbul etdiyiniz bu "tanrının" hər şeyi yaradıb sonra kənara çəkilməsinə niyə inanarsınız ki?! Yaradıcı qüvvəni bu qədər acizləşdirimək absurd bir düşüncə deyilmi? Bu cür əsassız fikirlərdən xilas olmaq üçün bu haqda dərin düşünün və Qurana qulaq verin, Quranın sizə sözü var: "Yoxsa elə hesab edirdiniz ki, sizi əbəs yerə yaratmışıq və siz heç vaxt Bizə qaytarılmayacaqsınız?"[186].

***2 - Sual: deistlər hesab edir ki, hal-hazırda yer üzündə ən az 5000 fərqli inanc mövcuddur.***

---

[186] "əl-Muminun" surəsi, 115.

***Bunlardan 4999-u haqq deyilsə, niyə məhz İslam haqq olmalıdır?***

**Cavab:** suala sualla cavab veririk: bəs nəyə görə deizm həqiqət olmalıdır? Əksər insanlar axirətə ya iman gətirir, ya iman gətirmir. Amma deizm nəzəriyyəsi hədəfsiz bir inancdır: Yaradan qəbul edilir, lakin axirətə iman gətirilmir, Yaradana iman gətirilir, lakin Onun insanlar üçün qanunlar müəyyən etməsi qəbul edilmir. XVII-XVIII əsrlərdə yaranmış və yayılmış bir fəlsəfi nəzəriyyə necə bütün inancların ötəsində ola bilər?!

Ateistlər də dinləri inkar etmək üçün eyni sualı irəli sürürlər. Onların bu sualı verməsi qəribə səslənsə də, Yaradanın varlığına iman gətirən deistlərin bu cür sual verməsi daha qəribədir. Cavab budur ki, bəli, Allah qatında yeganə din İslamdır. Bunu Allah tərəfindən göndərilmiş bir Elçi bizə xəbər vermişdir. Siz də o Elçinin Rəbbinin varlığını qəbul edir, lakin Rəbbinin Ona kitab nazil etdiyini qəbul etmirsiniz. Çünki siz Yaradanı aciz və kainatı yaratdıqdan sonra onu başıboş, nəzarətsiz buraxan, qullarına qarşı biganə qalan bir qüvvə kimi vəsf edirsiniz. Həqiqəti əks etdirməsi qeyri-mümkün olan, böyük ziddiyyətlərdən ibarət olan və inkar edilməsi labüd olan elə məhz deizm fəlsəfi nəzəriyyəsidir.

Deistlərə tövsiyyə edirik ki, bel bağladıqları təcrübi elmə dayanaraq dinlərin sayını daha dərindən araşdıraraq bu sayı dəqiqləşdirsinlər. Çünki bəzi deistlər dinlərin sayının 3000, bəziləri 4000, bəziləri isə 5000 olduğunu iddia edir.

***3 - Sual: deistlər belə bir şübhə gətirir ki, "Allahın göndərdiyi dörd kitabdan üçünü insanlar təhrif edibsə, Allah niyə bu təhriflərə izn verib?"***

**Birincisi:** Allah Qurani-Kərimi qoruyacağı kimi əvvəlki kitabları da qoruyacağına vəd verməmişdir. Allah Qurandan əvvəl nazil etdiyi Kitabları qorumağı həmin dinlərin alimlərinə və din xadimlərinə həvalə etmişdir. Buna dəlil isə Quranın bu ayəsidir: *"Şübhəsiz ki, Tövratı Biz nazil etmişik. Onda hidayət və nur vardır. Allaha təslim olan peyğəmbərlər yəhudilər üçün bununla, din xadimləri və baş keşişlər isə Allahın Kitabından qorunub saxlanılanlarla hökm verirdilər. Onlar hamısı buna şahid oldular. İnsanlardan qorxmayın, Məndən qorxun! Ayələrimi ucuz qiymətə satmayın. Allahın nazil etdiyi ilə hökm verməyənlər – məhz onlar kafirlərdir"*[187]. Allah Qurani-Kərimin təhriflərdən qorunmasına vəd vermiş, lakin İslamdan əvvəl nazil etdiyi Kitablar barəsində bu öhdəliyi götürməmişdir. Bu məsələ bizim bildiyimiz və bilmədiyimiz çoxlu sayda hikmətlərə dayanır:

**1 -** Uca Allah Qurani-Kərimi Qiyamətə kimi qüvvədə qalacaq, davamlı şəriət etmək istəmişdir. Uca Allah buyurur: "Biz sənə, özündən əvvəlki kitabları təsdiqləyən və onları mühafizə edən Kitabı haqq olaraq nazil etdik"[188]. Bu ayəyə əsasən əvvəlki səmavi Kitabların

---

[187] "əl-Maidə" surəsi, 44.
[188] "əl-Maidə" surəsi, 48.

qorunmasına və davamlı bir şəriət olaraq bərqərar edilməsinə ehtiyac qalmır.

**2 -** Qurandan əvvəl nazil edilmiş Kitablar həmin ümmətlər üçün imtahan vəsiləsi olmuş və onların bu əmanəti qoruyacağı, yoxsa təhrif edərək dəyişikliyə uğradacağı sınanmışdır. Həmçinin onların özlərinə həvalə edilmiş məsuliyyəti dərk edərək bu kitablara iman gətirib-gətirməyəcəkləri imtahan olunmuşdur.

**3 -** İslamdan öncəki ümmətlər özlərinə nazil edilmiş ilahi mətnlərin təhrif olunduğunu bildikdən sonra təhrifdən qorunmuş Qurani-Kərimə və onu bəşəriyyətə çatdıran son peyğəmbərə iman gətirib-gətirməyəcəkləri ilə imtahan olunmuşlar. Allahın nazil etdiyi sonuncu kitab olan Qurani-Kərim ən mötəbər və ən güclü isnad yolları ilə bizə gəlib çatmışdır. Odur ki, Quranın mötəbərliyinə və təhriflərdən qorunduğuna heç bir şəkk-şübhə yoxdur.

**İkincisi:** İslamdan əvvəlki dövrdə insanların əksəriyyəti təkilahlıq dinindən uzaqlaşmış, bütpərəstliyə qayıtmışdı. İnsanların tabe olduqları heç bir şəriət mövcud deyildi. Qurani-Kərim kimi Qiyamətə qədər Allah tərəfindən qorunacaq bir kitaba ehtiyac var idi. Bilmək lazımdır ki, Yaradan tərəfindən nazil edilmiş sonuncu dinin Kitabı bütün təhriflərdən qorunmağa daha layiqlidir.

**Üçüncüsü:** Qurani-Kərimin möcüzələrindəndir ki, o, özündən əvvəlki kitablara edilmiş təhrifləri və dəyişiklikləri bəyan etmiş və insanları doğru yola istiqamətləndirmişdir. Bu da Quranın ilahi bir mətn

olduğunun çoxsaylı dəlillərindən sadəcə biridir. Uca Allah buyurur: “Vay o şəxslərin halına ki, onlar öz əlləri ilə kitab yazır, sonra da: “Bu, Allah tərəfindəndir!”– deyirlər ki, onunla cüzi miqdarda pul əldə edə bilsinlər. Öz əlləri ilə yazdıqlarına görə vay onların halına! Qazandıqları şeyə görə vay onların halına!”[189].

***4 - Sual: İslama görə yer üzünə bir daha peyğəmbər göndərilməyəcək. Artıq on dörd əsrdir ki, peyğəmbərlər göndərilmir. Yeni peyğəmbərlərin göndərilməsi daha ədalətli olmazdımı? Peyğəmbərlərin gəlməsi bəşər övladı üçün bu qədər böyük əhəmiyyət kəsb edirsə, onda niyə daha peyğəmbər göndərilmir?***

**Birinci məsələ:** ibrət nə peyğəmbərlərin göndərildiyi vaxtda, nə də peyğəmbərliyi daşıyan şəxslərin kimliyində deyil; ibrət, peyğəmbərliyi təsdiqləməkdə və onun sadiqliyinə, doğruluğuna dair dəlillərdədir. Peyğəmbərliyin sadiqliyini və doğruluğunu yəqinliklə vəsf edən dəlil mövcud olarsa, bu zaman nə dövrdən, nə məkandan, nə də peyğəmbərliyi daşıyan şəxsin kimliyindən asılı olmayaraq həmin məlumatı təsdiqləmək lazımdır. Çünki əqli dəlillər zamana və məkana görə dəyişmir, daim sabit olaraq qalır. Əqli dəlillərin işlək və qeyri-işlək olduğu zamanlar, dəlil olduğu və olmadığı məkanlar olmur. Bir sözlə əqli dəlillər hər zaman və hər məkan üçün keçərli olan sabit qaydalardır.

---

[189] “əl-Bəqərə” surəsi, 79

**Əgər soruşulsa ki: “**Nə üçün birinci peyğəmbərlə kifayətlənilməyib? Niyə peyğəmbərlərin göndərilməsi davamlı olub? Məgər hüccətin qalxması üçün ilk peyğəmbərin dəlilləri insanlara kifayət deyildirmi?”

**Cavab verərik ki:** Qeyd olunan məsələləri səbəb gətirərək etiraz bildirmək doğru deyil. Çünki insanların azğınlıqları növbənövdür. Odur ki, insanlıq təfsilat tələb edən və birtərəfli səciyyə daşımayan qanunlar toplusuna ehtiyac duyub. Məhz bu səbəbdən peyğəmbərlərin gətirdiyi qanunlar müxtəlif olmuş, əmr edilən ibadət növləri isə forma etibarilə bir-birindən fərqlənmişdir.

Həmçinin insanların hisləri, emosiyaları da fərqlidir. İnsanlar əxlaqlarından yaxşı mənada təsirlənəcəkləri kəslərlə bir cəmiyyətdə yaşamağa ehtiyac duyurlar. Cəmiyyətlər isə müxtəlifdir. Odur ki, tam əksinə, bircə peyğəmbərlə kifayətlənmək ədalətli olmazdı.

Risalətin niyə məhz Muhəmməd ﷺ peyğəmbərlə sona çatması və onun peyğəmbərlərin möhürü, sonuncu Elçi olmasına gəldikdə isə cavab veririk ki, Muhəmməd peyğəmbərin digər peyğəmbərlərə xas olmayan fərqli cəhətləri olmuşdur. Kitabın irəliki səhifələrində bu barədə daha ətraflı məlumat veriləcəkdir inşəAllah.

**İkinci məsələ:** Allah Elçisinin ﷺ peyğəmbərliyinə dair dəlillər xüsusi bir zamanla məhdudlaşmır, keçərliliyi baş verdiyi dövr keçdikdən sonra zəifləmir və ya sona çatmır. Peyğəmbərlik dəlilləri bütün zamanlara şamil olunmaq və bütün məkanlarda keçərli olmaq kimi xüsusiyyətlərə malikdir. Bəşər övladı mövcud olduğu müddətcə bu dəlillər keçərli olaraq qalacaqdır.

Bəşəriyyətə göndərilmiş sonuncu Peyğəmbərin ﷺ ən böyük möcüzəsi isə Qurani-Kərimdir. Bu kitab insan və cin tayfasının qüdrətinin fövqündə olan möcüzəli bir kəlamdır.

Peyğəmbər ﷺ özü öz peyğəmbərliyinə dəlalət edən mühüm metodiki məsələ barədə xəbər verərək buyurmuşdur: “Elə bir peyğəmbər olmamışdır ki, ona bəşər övladının iman gətirdiyinin bənzəri verilməsin. Mənə verilən isə yaınız Allahın mənə vəhy etdiyidir. Ümid edirəm ki, Qiyamət günü onların ən çox tərəfdarı olanı mən olum”[190]. Peyğəmbərimizin peyğəmbərlik dəlilləri qalıcıdır və bu dəlillərin qalıcı olması onun peyğəmbərliyinin qalıcı olmasını zəruri şəkildə gərəkli edir.

**Üçüncü məsələ:** Zaman və məkandan asılı olmayaraq peyğəmbərin ﷺ peyğəmbərlik dəlillərinin xüsusiyyətlərinin qalıcı olmasından əlavə Uca Allah Öz Elçisinə göndərdiyi vəhyi müxtəlif yollarla qorumuşdur. O, Qurani-Kərimi zay olmaqdan, təhrifdən, dəyişdirilməkdən, mətnlərinin artırılması və azaldılmasından qorumuşdur. Bununla yanaşı Quranın ləfzi bu ümmətə şəkk-şübhə qəbul etməyən qəti, mütəvatir[191] yolla nəql edilmişdir.

---

[190] “Səhih əl-Buxari”, 4981; “Səhihi Muslim”, 239

[191] **Mütəvatir**: Bu, hədis elminə xas terminlərdən biridir. “Yalan üzərində ittifaq edilməsi mümkün olmayan (etibarlı) camaatın (çoxlu şəxslərin) hissi yollarla rəvayət etdikləri xəbərdir”. (“Mustalah əl-Hədis”, İbn Useymin, səh. 6). Yəni rəvayətin isnadını hər təbəqədən çoxlu rəvayətçi rəvayət etmişdir. Əqli

Peyğəmbərin ﷺ həyatının xəbərləri (sirası) qorunmuşdur. Beləcə onun əxlaqı, felləri, ümumi həyatı barədə bilgilər sanki O bizim aramızda yaşayırmış və bizim yollarımızda yeriyirmiş kimi bizə nəql edilmişdir. Həmçinin, İslam dininin qanunları qorunmuşdur. İslamın dəlillərinin qorunması və məsələlərinin araşdırılması üçün dahi alimlər xidmət göstərmişdir. Onlar bu məsələləri cəmləmiş, tərtib və korrektə etmiş, dəlil və hüccətlərə nəzər yetirmişlər[192].

Bütün bu və digər qoruma yolları peyğəmbərin hədislərinin, nişanələrinin, dəlillərinin dəyişilməz şəkildə bu günümüzə qədər gəlib çatmasına səbəb olmuşdur. Peyğəmbərin əxlaqı, həyat hekayəsi, təbliği və doğruluğunun dəlillərindən ibarət olan bu elmi irs hələ uzun dövrlər boyunca qalmaqda davam edəcəkdir

---

cəhətdən mümkün deyil ki, hər təbəqədən çoxlu sayda hədis rəvayətçisi özündən tamamilə eyni hədisi rəvayət etsin. Belə bir şey mümkün olsa, o, mütəvatir sayıla bilməz. “Hissi yollarla rəvayət etdikləri” isə o deməkdir ki, hədis “eşitdik”, “gördük”, “toxunduq”, “danışdıq” və s. sözlərlə nəql olunmalıdır.

[192] Söhbət İslami əhkamlarla əlaqədar məsələlərdən gedir ki, alimlər bu məsələləri fiqh kitablarında və digər elmi kitablarda xüsusi mövzu başlıqlarına, bab və fəsillərə ayıraraq təqdim etmiş, müxtəlif ictimai mövzulara əsasən Quran və hədislərdən ibarət dəlilləri bir arada cəm etmiş, Quran ayələrinin nazil olma səbəbləri, mənaları açıqlanmış, anlaşılmayan sözlərə izahlar vermiş, hədisləri şərh edən xüsusi qələmə alınmışdır. Hətta hədisləri rəvayət edən şəxslərin etibarlı və ya etibarsız olması barədə cildlərlə kitablar yazılmışdır. Bütün bunlar İslami mənbələrin mötəbərliyinin qorunmasına xidmət etmişdir.

inşəAllah. Odur ki, “peyğəmbərliyin 14 əsr əvvəl sona çatması onun sabitliyinə və kamilliyinə xələl gətirir” kimi əsassız iddialar irəli sürmək doğru elmi əsaslandırma metodikasına və sağlam düşüncəyə ziddir[193]. Çünki, bir iddianın doğruluğu onun deyildiyi zamana görə deyil, deyilənin həqiqət olub-olmadığı məlum olduğu zaman baş verə bilər!

***5 - Şübhə belə səslənir: dinsiz də yaxşı insan olmaq olur. Biz də yaxşılıq edirik, nə olsun ki!***

**Birincisi:** yaxşılıq etmək mücərrəd şəkildə “mən yaxşılıq edirəm” deməklə olmur. Əgər insan Allaha ibadət etmir və üstəlik Allahın kainatı hədəfsiz şəkildə yaratdığını iddia edirsə, onun etdiyi “yaxşılıqlar” insanlıq baxımından “yaxşı” görünsə də, həqiqi yaxşılıq anlamını tam mənasilə vermir. Dinsiz yaxşılıq etmək insanı axirətdə xilas etmir. İslamda olmayan kəsə axirət savabı çatmır. Dinsiz (İslamsız) insana yaxşılıqlarının əvəzi bu dünyadaca verilir. Bu, Allahın ədalətindəndir. Lakin həmin kəs axirət savabından məhrum olur. Çünki, o, axirətə inanmır. Uca Allah buyurur: “Ayələrimizi və axirətə qovuşmağı yalan sayanların əməlləri puç oldu”[194]. Bundan əvvəlki ayədə isə[195] deyilir: “Haqsız olaraq yer üzündə təkəbbürlük göstərənləri ayələrimdən uzaqlaşdıracağam. Onlar bütün möcüzələri görsələr də

---

193 “Müasir Qərb düşüncəsində dinin tənqidi məsələsi”, dr. Sultan əl-Umeyri, səh. 339 (ərəbcə)
194 “əl-Əraf” surəsi, 147
195 Həmçinin, bax: “əl-Maidə”, 5, “əl-Bəqərə”, 217, “əl-Furqan”, 21-22

onlara inanmazlar. Onlar doğru yolu görsələr, ora yönəlməz, azğınlıq yolunu görsələr, onu özlərinə yol seçərlər. Bu ona görədir ki, onlar ayələrimizi inkar edir və onlara məhəl qoymurdular”[196]. Bunu qeyd etməkdə məqsədimiz odur ki, “biz də yaxşılıq edirik” deyənlər bu yazını oxuduqda öz vəziyyətlərinə şahidlik edərək hansı halda olduqlarını xatırlasınlar. Çünki, yer üzündə yaxşılıq etməyi, fəsad törətməməyi Allah buyurmuşdur. Axirətə inanmayanların etdikləri yaxşılıqlar barədə isə bir səhih hədisdə belə buyrulur:

“Allah möminə etdiyi yaxşılığa görə mükafatlandıracaq və onu bu dünyada əvəzi verilər, axirətdə də buna görə mükafatlandırılar. Kafirə gəldikdə isə Allah yolunda bu dünyada etdiyi yaxşı əməllərə görə bu dünyada qarşılığı verilər, axirət yurduna gəldikdə isə onun qarşılığında mükafat alacağı bir yaxşı əməli olmaz”[197].

**İkincisi:** Din insanın yaxşılıqları məqsədyönlü və Allahın razılığını qazandıracaq şəkildə etməsinə vəsilə olur. Bu o qədər möhkəm rabitədir ki, insanı xəlvətdə də yaxşılıqlar etməyə sövq edir və onu riyakarlıqdan uzaqlaşdırır. Sadəcə “insanlar üçün” yaxşılıq edən kəs isə insanları razı salmağa niyyətlənir, onu öz əməllərini gizlətməyə, riyakarlıqdan uzaq olmağa və minnət etməməyə sövq edən mənəvi keyfiyyətlərə malik olmur. Çünki din yaxşılıqdan əvvəlki mərhələni də, yaxşılıq əsnasında olan mərhələni də, yaxşılıqdan sonrakı

[196] “Əraf” surəsi, 146
[197] “Səhihi Muslim”, 17/428

mərhələni də tənzimləyir. Dini təhrik olmadan edilən yaxşılıq isə kor-koranə olduğu üçün səmimiyətdən uzaqlaşmağa daha çox yaxın olur.

Əgər deyilsə ki, bəzən başqa insanları da təşviq etmək üçün yaxşılıqları açıq-aşkar etməyə ehtiyac olur, cavabında deyərik ki, bəli, din bu məqamlara da toxunmuş və izah vermişdir. Məsələn, Uca Allah Qurani-Kərimdə buyurur:

“Sədəqələri aşkarda verirsinizsə, bu çox gözəl. Əgər onu yoxsullara gizlində versəniz, bu sizin üçün daha yaxşı olar. Allah sizin bəzi günahlarınızdan keçər. Allah nə etdiklərinizdən xəbərdardır”[198].

Alimlər bildirir ki, əgər insanlar müəyyən yaxşı əməlləri unudub və ya tərk ediblərsə, həmin gizlədilməsi tərcih edilən yaxşı əməlləri onlara öyrətmək və nümunə olmaq üçün bu əməlləri açıqdan etməkdə heç bir problem yoxdur. Bu məsələlər barədə əsrlər öncə də danışılmış və istisna hallar alimlər tərəfindən bəyan edilmişdir. Lakin dindən uzaq olan adamlarda_əksər hallarda yaxşı əməlləri gizlətməyə, riyakarlıq etməməyə, öyünməməyə, minnət qoymamağa sövq edən amillər və zəruri zəmin olmur. Çünki, onlar əməlləri ilahi bir əsasa dayanaraq Allahın razılığını və ya savab qazanmaq üçün deyil, insanların razılığını qazanmaq üçün edirlər. Beləcə bu

[198] “əl-Bəqərə” surəsi, 271

gün bir insanın razılığını qazanmaq üçün ona yaxşılıq edən kəs sabah riyakarlığa qapıla bilər, O, özü ilə öyünə və əməllərini yaxşılıq etdiyi insanların başına qaxaraq onlara minnət qoya bilər. O, əməlinin qarşılığında axirətdə mükafat gözləmədiyi üçün, bu dünyada ilk olaraq yaxşılıq etdiyi adamın razılığına niyyətlənir, sonra isə başqalarına yaxşı insan olduğunu göstərmək üçün ya bu əməlini reklam edir, ya da daha dərinə gedərək özüylə öyünür, özünü başqalarından üstün sayır, hətta riyakarlıq və lovğalıq edir, ən sonda isə yaxşılıq etdiyi şəxsə minnət qoyur.

Allah üçün və axirətə imanla edilən yaxşılıqlar isə insana mükafatın axirətdə olduğunu xatırladır. Beləcə insan dindən uzaq olan kəslərin etdiyi "yaxşılıqlar" əsnasında meydana gələn əxlaqi xətalara düşmüş olmur.

**Üçüncüsü:** bu məsələni ictimai sferada qaldıranlar əsasən humanizm ideologiyasını təbliğ edənlərdir. "Humanizm" sözü zahirən gözəl səslənsə də, bu ideologiya Allahın varlığını inkar edir, Allahı insanla əvəz edir. Humanizmdə insana xidmət məsələsi həddən artıq şişirdilir və hər şeyin insan üçün olması gərəkdiyi ifrat bir mövqe ilə ifadə edilir. Humanizmin "xoş", "insanpərvər" siması bizi aldatmamalıdır. "Amerika Humanistlər Assosasiyası" humanizmə aşağıdakı tərifi vermişdir:

“Humanizm - ali varlığa inamın köməyi olmadan, özünü reallaşdırmaq və bəşəriyyətə daha çox fayda vermək məqsədilə etik həyat tərzi keçirməyə qadir olduğumuzu və buna məcbur olduğumuzu iddia edən mütərəqqi həyat mövqeyidir”[199].

Göründüyü kimi “Ali varlığa inamın köməyi olmadan” fikri, “dinə ehtiyac olmadan yaxşılıq etmək” fikri ilə tam uzlaşır. Artıq bu kimi fikirlərin haradan qaynaqlandığı və nəyə əsasən deyildiyi aydın olur. Avropada yaranan “Humanizm” cərəyanı kilsə zülmünə qarşı mübarizə məqsədi daşımış və yalnış dini təsəvvürlər fonunda meydana gəlmişdir. “Humanizmin” təşəkkül tapdığı dövrdə Qərbdə “din problemi” daha da qabarıq şəkil almışdı. Bu “dinə ehtiyacsızlıq” əvvəl də qeyd etdiyimiz kimi Avropanın digər dinsiz cərəyanlarının əsas prinsiplərindən biri idi. Çünki təhrif olunmuş xristianlıq insanların dini ehtiyaclarını ödəmək əvəzinə, onlarda mənəvi boşluqlara yol açır, batil inanclar onları dindən uzaqlaşdırırdı. Nəticə etibarilə isə Qərb insanları “dinə ehtiyac olmadan da yaxşılıq edilə biləcəyi” qənaətinə gəlib çıxdılar. Halbuki İslam dinində bütün yaxşı əməllərin əhkamları şəriət prizmasından izah edilmiş, əməllərin qəbul olunma və rədd olunma səbəbləri bəyan edilmişdir. İslam dininə görə bütün əməllərin qəbul olunması üçün iki vacib şərt var: İxlas[200] və peyğəmbərin

---

[199] Məqalə: “Humanizm nədir? Allahsızlıq çağırışı, yoxsa, “insanpərvərlik?” Sahib Əsədov, 7-ci sətir. www.senxatirlat.com Daxil olma tarixi: 21.07.2020.

sünnəsinə (yoluna) müvafiqlik, yəni əməli peyğəmbərin öz ümmətinə öyrətdiyi kimi etmək.

***6 - Şübhə belədir: əgər bütün bəşəriyyət Adəmdən törəyibsə və təkamül nəzəriyyəsi yalandırsa, onda insanlar necə və nə üçün fərqli irqlərə bölünüblər?***

**Cavab: birincisi,** bütün insanlar yalnız insan növünə aiddirlər. Yer üzündə müxtəlif xalqların və qəbilələrin olmasının sirri Qurani-Kərimdə belə izah olunur: “Ey insanlar! Biz sizi kişi və qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız Ondan ən çox qorxanınızdır. Həqiqətən, Allah Biləndir, Xəbərdardır”[201].

Başqa bir ayədə deyilmişdir: “Göylərin və yerin yaradılışı, dillərinizin və rənglərinizin müxtəlifliyi də Onun dəlillərindəndir. Həqiqətən, bunda bilənlər üçün ibrətamiz dəlillər vardır!”[202].

Qurani-Kərim insanların dil və rəng fərqliliklərinin Allahın varlığının dəlillərindən olduğunu bizə xəbər verir.

---

[200] Yəni əməli xalis şəkildə, sırf Allah rizası üçün etmək, insanların razılığını qazanmağa niyyətlənmədən yaxşılıq etmək.
[201] “əl-Hucurat” surəsi, 13
[202] “ər-Rum” surəsi, 22

İnsan övladı Adəm və Həvvadan yaranmış, Nuhun tufanından sonra isə onun oğulları və ona iman gətirən möminlərin nəslindən insanlar çoxalmışdır. İnsanların rəng, dil və s. fərqləri nə onların xromosomlarında, nə də insani xüsusiyyətlərində ciddi bir fərqlilik (yeni əzalar və s.) yaratmır. Yəni dərinin rəngi, dil fərqliliyi, zahiri görünüş kimi fərqlər nəticəsində yeni növ insan meydana gəlmir. Bütün bu fərqliliklər vahid insan cinsinə aiddir. İrəlidə bunun izahı veriləcəkdir inşəAllah.

Tədqiqatçı alimlər insanın rəng və s. kimi irqi fərqlərinin xromosomlarla əlaqəsi olmadığını isbat etmişlər.

**İkincisi:** bir çox insanlar bəşər övladını sülalələrə, soylara və ya irqlərə bölərkən həqiqətdən uzaqlaşır və bu bölgünü bioloji amillərə (rəng və bədən quruluşu, üz cizgiləri və s.) əsasən aparırlar. Bəziləri isə bu bölgünü zahiri bioloji amillərə görə deyil, etnik amillərə (mədəni amillər, dil, din, mədəniyyət, adət-ənənə və s.) əsasən edirlər.
İnsanların bu cür xətaya yol verməsi heç də qəribə deyil. Bir sıra tədqiqatçı və sosioloqlar insanları müxtəlif irqlərə və etnik qruplara bölmək istiqamətində araşdırmalar həyata keçirmişdir. Nəticədə onlardan bəziləri insanları cəmi 4-5 qrupa, bəziləri isə 30-dan çox qrupa bölmüşdür.

İnsanları irqlərə və qruplara bölmək istiqamətində ilk elmi cəhdlər XVIII əsrin sonları, XIX əsrin əvvəllərinə təsadüf edir. Bu cəhdlər ümumilikdə müstəmləkəçiliyin əhatə dairəsinin genişləndirilməsinə və Avropanın digər

xalqları öz hökmranlığı altına almasından sonra meydana gələn ictimai quruluşu haqlı çıxarmağa hesablanmışdı.

İrqçilik məktəbinin rəhbəri Cozef Artur De Qobino (1816-1882) bu barədə irəli sürdüyü nəzəriyyədə dünya xalqlarını üç əsas irqə bölmüşdü: Avropoid, Monqoloid və Neqroid. Bu şəxs Avropoid irqini, yəni "ağ irqi" digər irqlərdən üstün hesab edirdi. O hesab edirdi ki, bu irq üstün zəkası, yüksək əxlaqı və iradəsi ilə bütün irqlərdən üstündür. Bu "üstün irsi xüsusiyyətləri" qabartmaqda məqsəd Avropanın digər xalqlar üzərində olan hökmranlığını, müstəmləkəçilik siyasətini dəstəkləmək idi. De Qobino iddia edirdi ki, Neqroid (qaradərililər) irqi öz bacarıqlarına görə daha aşağı səviyyəli irqdir və bu irqə mənsub olan insanlar guya əxlaqi dəyərlərə möhtaclıqları və emosionallıqları səbəbilə heyvanların mərtəbəsinə yaxındırlar. XX əsrin əvvəllərində müstəmləkəçi dövlətlər "İnsan zooparkları"[203] təsis etmiş və bu "zooparklardan" geniş şəkildə istifadə etmişlər. Digər irqlərdən və etnik qruplardan olan insanlar həmin "insan zooparklarında" təkamüldən geri qalmış maddi eksponatlar və heyvanlardan az fərqlənən canlılar kimi yerlilərə sərgilənirdi. Bu "zooparklar" Amerikada[204] və bir

---

[203] Bax: "Vaxtilə Avropa qəfəslərində insanların nümayiş olunduğu "insan zooparkları". Mənbə: www.alarabiya.net saytı, müəllif: Taha Əbdülnasir Ramazan,. Məqalənin ərəbcə adı: حدائق الحيوان البشرية.. يوم عرض البشر في أقفاص بأوروبا

[204] Yuxarıda qeyd etdiyimiz məqalənin orijinal versiyasında (internetdən axtarış etmək mümkündür) 1904-cü ildə Amerikanın Missuri ştatında çəkilmiş şəkillərdən biri yer alır.

çox Avropa ölkələrində geniş vüsət almışdı. Xüsusilə vurğulamaq lazımdır ki, Avropa və Amerikada "insan zooparkları" məhz təkamül nəzəriyyəsini isbat etmək üçün ortaya çıxarılan "üstün irq", "zəkalı insan və inkişafdan qalmış insan" obrazını canlandırmaq üçün təsis edilmişdi.

**Üçüncüsü:** Dərinin rəngi, üz quruluşu və s. kimi fiziki fərqliliklər nisbi xarakter daşıyır. Məsələn, isti ölkələrdə yaşayan insanların dərisi daha qara, soyuq ölkələrdə yaşayan insanların dərisi isə daha ağ olur. Hətta bu fərqlər yaxın şərqdən soyuq şimal qütbünə köç etmiş və uzun müddət orada yaşamış insanların dərisi və üz quruluşunda da büruzə olunur. Lakin həmin insanlarda təkamül baş vermir, yəni bir canlıdan fərqli, yeni növ bir canlı əmələ gəlmir və ya həmin insanların yeni bir orqanı

---

Həmin şəkildə "insan zooparkında" Amerikanın əsl sakinləri olan yerli xalqın mənsubları görüntülənir. Həmçinin məqalədə eyni ildə Luiziana ştatında çəkilmiş şəkillərdən birində "insan zooparkında" Filippin meşələrində yaşayan, övrət yerləri istisna olmaqla bütün bədənləri çılpaq olan qadın və kişilər təsvir edilir. 1906-cı ildə Amerikanın Nyu-York şəhərində çəkilmiş bir şəkildə isə taxta qəfəsə bənzər bir yerdə əlləri bağlı filippinli qız uşağı və yanında yerə çökdürülmüş iki qadın təsvir olunur. Qəfəsin kənarında isə bahalı geyimlər geymiş avropalılar sanki zooparkda heyvan seyr edərmişcəsinə onlara baxırlar. 1897-ci ildə Belçikada, 1914-cü ildə isə Norveçin Oslo şəhərində "insan zooparkı" inşa edilmişdir. 1887-ci ildə Parisdə inşa edilmiş "insan zooparkında" Afrika müstəmləkələrindən gətirilmiş 400 qaradərili insan qəfəslərə salınaraq heyvan kimi nümayişə çıxarılmışdır. Məqalədə Almaniya kralı II Vilhelmin 1909-cu ildə Almaniyadakı "insan zooparkını" ziyarət etməsi təsvir olunan şəkil də yer alıb.

formalaşmır. Əsli insan olan varlıq elə insan olaraq da qalır. Əsrlər boyunca öz iqlimlərində həyat sürən insanlar da başqa məxluqlara çevrilmirlər. Sadəcə olaraq uzun müddət isti bölgələrdə yaşayan insanların dərisi günəş şüalarının təsiri ilə qaralmış və bu qaralıq nəsildən-nəslə ötürülmüşdür. Bu dəyişkənliklər əsla təkamülə dəlil deyildir. Çünki dəri rəngi məhz istinin şiddəti ilə əlaqəlidir. Gün boyunca və ya həftələrlə qızmar günəş şüalarının təsirinə məruz qalmış bir insanın dərisi də fərqli hal alır. Bir neçə ay boyunca az qala fasiləsiz olaraq günəşin altında çalışan insanlar da şiddətli qaralmaya məruz qala bilirlər. Bu qaralıq faizləri isti ölkələrdə "zil qara", "açıq qara" kimi vəsf olunur və hətta ağ insanların çoxluq təşkil etdiyi ərazilərdə el arasında "qarabuğdayı" adlandırılan dəri rəngi müşahidə olunur.

Ümumiyyətlə bu gün yer üzündə yaşayan insanlar arasındakı irqi müxtəlifliyin səbəbini anlamaq üçün əvvəlcə bu məsələ ilə yaxından əlaqəli olan "variasiya" [205] haqqında ümumi məlumatlara yiyələnmək lazımdır.

---

[205] **Variasiya** genetika elmində istifadə edilən bir termindir və "müxtəliflik" mənasını verir. Bu genetik hadisə bir canlı növündəki fərdlərin və ya qrupların bir-birlərindən fərqli xüsusiyyətlərə malik olmasına səbəb olur. Variasiyaların mənbəyi isə o növün daxilindəki fərdlərin malik olduğu genetik məlumatlardır. Bu fərdlərin cütləşməsi nəticəsində həmin genetik məlumatlar yeni nəsillərdə fərqli kombinasiyalarda birləşir. Ana və atanın xromosomları arasında genetik maddələr mübadiləsi baş verir. Nəticə etibarilə genlər bir-birilə qarışmış olur və fərdlərin fiziki xüsusiyyətlərində müxtəliflik meydana gəlir. (Mənbə: www.biologiya.az saytı, "İrqlərin

İnsan irqləri və insanları bir-birindən fərqləndirən fiziki xüsusiyyətlər də insan növünə aid “variasiyalardır”. Mahiyyət etibarilə yer üzündə yaşayan insanların hamısı eyni genetik bazaya sahibdir. Lakin bu genetik bazanın malik olduğu “variasiya” potensialı sayəsində bəzi insanlar qıyıqgözlü, bəziləri sarışındır, bəzilərinin burnu sivri, bəzilərinin isə boyu qısadır.
Bunu da qeyd etmək yerinə düşər ki, 2002-ci ildə Stenford Universiteti əməkdaşları tərəfindən aparılmış bir araşdırma nəticəsində istər qaradərili, istər ağdərili, istər eskimos, istərsə də avropalı olsun, yer üzündəki bütün insanların genetik cəhətdən 99,9% bir-birinin eynisi olduğu məlum olmuşdur[206].

Tədqiqat bir insanın genetik cəhətdən yer üzündəki hər hansı bir digər insanla heyratəmiz dərəcədə oxşarlığını üzə çıxarmışdır. Araşdırmanın rəhbəri, Stenford Universitetinin professoru Mark Feldman belə deyir:
“…İnsan qrupları arasında sezilə bilən fərqliliklər, məsələn, dəri rəngi və kəllə qutusu forması genetik xüsusiyyətlərin olduqca kiçik miqyaslarda göstərdiyi fərqliliyin nəticəsidir”[207].
Əslində alimlər uzun müddət idi ki, fiziki müxtəlifliklərə baxmayaraq bütün insan populyasiyalarının genetik cəhətdən bənzər olduqlarını bilirdilər. Lakin araşdırma

---

müxtəlifliyi nə üçün təkamülə dəlil deyil?”. Məqalənin linki: www.biologiya.az/post/151/ Daxil olma tarixi: 22.07.2020).
[206] Roger Highfield, “DNA survey finds all humans are 99.9pc the same”, The Telegraph, 20 Dec 2002
[207] Roger Highfield, “DNA survey finds all humans are 99.9pc the same”, The Telegraph, 20 Dec 2002.

nəticəsində dünyanın müxtəlif bölgələrindən olan populyasiyaların əvvəl zənn edildiyindən daha çox genetik bənzərliklərə malik olduqları məlum olmuşdur. Yəni genetik cəhətdən bütün insanlar 99,9% bir-birlərinin eynisidir. Yerdə qalan cüzi 0,1% fərqliliyə isə 94% eyni populyasiyaların fərdləri arasında, sadəcə 6% isə müxtəlif populyasiyaların nümayəndələri arasında rast gəlinir. Bu o deməkdir ki, öz yaşadığınız bölgədəki insanlardan fərqlənmə ehtimalınız, dünyanın hər hansı bir digər nöqtəsindəki insanlardan fərqlənmə ehtimalınızdan daha çox ola bilər[208].

## Deizm xilas yoludurmu? Bəlkə bir daha düşünəsən?

Deizm əsla xilas yolu deyil! Çünki deizmin yaranması XVII əsrdə Avropada din və dinsizlik arasında gedən çəkişmələr əsnasında ortaya çıxmış, ixtilaflardan qurtulmaq cəhdlərindən biridir. Dinsizlər öz yollarını nə qədər "orta yol", "çıxış yolu" kimi təqdim etməyə, iman və imansızlıq arasında qalmağa cəhd göstərsələr də, bu yol dinə deyil, dinsizliyə yaxındır. Hətta dinsizliyin özüdür. Yalnız yaradıcı qüvvəni, öz ibarələri ilə desək "tanrı" məfhumunu qəbul etməklə din olmur. Yaradıcını hədəfi, qayəsi olmayan bir qüvvə kimi təsəvvür edən deistlər əslində teizm və ateizm arasında olan ixtilaflardan "çıxış yolu" tapmaq istəyi ilə daha ziddiyyətli bir yol icad etmiş, bununla da ixtilafları daha da artırmışlar. Əslində deizm həqiqətdən çox uzaq, kilsəyə

---

[208] Roger Highfield, "DNA survey finds all humans are 99.9pc the same", The Telegraph, 20 Dec 2002.

qarşı mübarizə zəminində meydana gəlmiş çoxsaylı fikir cərəyanlarından sadəcə biridir. Tarixin müəyyən bir zaman kəsiyində baş qaldırmış "Narazılıq tendensiyasının" təzyiqi altında formalaşmış, heç bir dinin əsaslarını dərindən bilməyən, İslamla tanışlığı olmayan, təhrifə uğramış xristianlıqla tanış olduğu halda xristianlığa qarşı psixoloji etiraz nümayiş etdirən bir fəlsəfi cərəyan heç bir zaman dindən qaçmaq istəyənlərə nə xilas yolu ola, nə də qəlb rahatlığı verə bilməz. Çünki deizmin "hədəfsiz tanrı" obrazından qaynaqlanan fəlsəfi fikir sistemi kainat və həyat barədə böyük suallara cavab verməyə mərkəzlənməyib, sadəcə dinlə dinsizlik arasında çıxış yolu ola biləcək fikirlər toplusu kimi ərsəyə gəlmişdir. Deizmin yaranmasını daha çox bir ixtiraçının öz dünyəvi peşəsindən bezib dində yeni bir yol ixtira etmək cəhdinə bənzətmək olar. Deizm mənsubları "filan qədər din var, bunlar hamısı necə düz ola bilər?" desə də, deizmin özünü "batil dinlər kateqoriyasına" aid etmirlər. Əslində isə deizm də bir fəlsəfi nəzəriyyədir. Odur ki, o da sayı yüzlərlə olan "batil dinlər kateqoriyasından" sadəcə bir batil fikir cərəyanıdır. Yəni onların dinlərə qarşı iddiaları eyni şəkildə özlərinə_qaytarıla bilir. Lakin istənilən halda Allah qatında yeganə haqq dinin İslam dini olduğu bizə məlumdur. Sadəcə olaraq bu əks dəlili irəli sürməkdə məqsədimiz deizmin özünün də batil dinlər və batil fəlsəfi nəzəriyyələrdən heç də fərqlənmədiyini vurğulamaq idi. "Dünyada 3000 din var, bir sənin yolunmu düz olacaq?" deyən deistlərə səmimi şəkildə bu sualları ünvanlayırıq: "Bu qədər fəlsəfi nəzəriyyələr olduğu halda bir deizmmi doğru olacaq? Hədəfsiz və

əsassız bir nəzəriyyəyə görə dünyanızı və axirətinizi məhv etməyə dəyərmi?!” Məgər siz nəticə hasil etmək üçün İslam barədə kifayət qədər araşdırma aparmısınızmı? İslam haqqında dərin biliklərə yiyələnmək üçün kifayət qədər vaxt sərf etmisinizmi? İslamı daxili, yoxsa xarici mənbələrdən öyrənmisiniz? Heç ağlınıza gəlibmi ki, bəlkə ölkəmizdə və dünyada İslam adı ilə təqdim olunan xurafat sistemlərini Muhəmməd peyğəmbərin təbliğ etdiyi həqiqi, saf və xalis İslamla səhv salmısınız? Düşünürük ki, araşdırmalarınızın əsas hissəsini məhz bu xətalar təşkil edir. Bəlkə din barədə bir daha düşünə, yenidən götür-qoy edəsiniz? Unutmaq lazım deyil ki, birtərəfli və qərəzli araşdırmalar və ya din adı altında batil əməllərlə məşğul olan şəxslərə qarşı qəzəb və intiqam hissilə aparılan araşdırmalar heç vaxt ədalətli, insaflı və həqiqi araşdırmalar hesab oluna bilməz.

# Son söz

Hörmətli oxucu! “Deizmin hədəfsizliyi” adlı bu kitabda deizm daxilindəki ziddiyyətləri və uyğunsuzluqları üzə çıxarmaqla, deistlərin məşhur, ümumi şübhələrinə cavab verməklə onların fəlsəfi ideologiyasındakı hədəfsizliyi nəzərinizə çatdırmağa çalışdıq. Allahın dinini, peyğəmbərləri və axirəti inkar edərək naməlum bir yaradıcı qüvvəyə iman gətirmək həqiqi Yaradana iman hesab oluna bilməz. Üstəlik bu Yaradan gah “enerji” kimi, gah kainatı yaradıb özü kənara çəkilən bir qüvvə kimi, gah da dünyanı nəzarətsiz qoyan, əzəmətli adları və sifətləri inkar edilən üstün bir ağıl olaraq vəsf edilib. Bu inancın ümumi mənada ateizmlə heç bir fərqi yoxdur. Çünki hər iki yol dinsizlik və Allahın inkarından ibarətdir. Deizmdə təsvir olunan və kainatı yaratmaqda heç bir hədəfi olmayan qayəsiz bir yaradıcı qüvvəyə inanmaq - aləmlərin Rəbbi olan, sonsuz güc və qüvvət sahibi Allahı inkar etmək, Onu lazımınca dəyərləndirməmək və tanımamaqdır! Necə ki, Qurani-Kərimdə buyurulur: “Onlar: “Allah insana heç bir şey nazil etməmişdir”– deməklə Allahı layiqincə qiymətləndirmədilər”[209]. Kainatdakı saysız-hesabsız müəmmalı və əsrarəngiz hadisələri qavradığını iddia edən deistlər əbəs yerə yaradıldıqlarını necə iddia edə bilərlər? Qurani-Kərimdə bu məsələ belə ifadə olunur: “Yoxsa elə hesab edirdiniz ki, sizi əbəs yerə yaratmışıq və siz heç vaxt Bizə qaytarılmayacaqsınız? Haqq Hökmdar Allah hər şeydən ucadır! Ondan başqa ibadətə layiq olan heç bir məbud

[209] “əl-Ənam” surəsi, 91.

yoxdur. O, şanlı Ərşin Rəbbidir”[210]. İstər dinə aid bəzi vacib məqamları qəbul edib bəzilərini inkar edənlər, istərsə də deizmlə “orta yol” tutduğunu zənn edib Allaha və peyğəmbərlərə iman gətirməyənlər kafir olmaqdan qurtula bilməzlər. Cəhənnəmdən qurtulmaq üçün Uca Allahı bütün ad və sifətləri ilə qəbul etmək, Ona həqiqi və səmimi imanla ibadət etmək lazımdır. Qurani-Kərim Allahın dininə yalnız yarım-yamalaq iman gətirən və ya dində yalnız öz məntiqlərinə uyğun gələn məqamları qəbul edən bütün insanlara xəbərdarlıq edərək buyurur:

“Allahı və Onun elçilərini inkar edənlər, Allahı Onun elçilərindən ayırmaq istəyib: “Biz o elçilərin bəzisinə inanır, bəzilərinə isə inanmırıq!”– deyənlər və bunun arasında bir yol tutmaq istəyənlər – məhz onlar əsl kafirlərdir. Biz kafirlər üçün alçaldıcı bir əzab hazırlamışıq”[211].

Eçilərdən bəzilərini qəbul edib digərlərini inkar etmək bu qədər təhlükəlidirsə, bəs elə isə elçilərin hamısını inkar edən, Yaradanı doğru-düzgün tanımayan, axirətə və Allahın bütün insanları hesaba çəkəcəyinə inanmayanlar necə də böyük təhlükə üzərindədir!  Deizm inancı insana fərqli heç nə bəxş etmir. Cəhənnəmə aparan yol necə təsəlli ola bilər axı? “Nəhayət, onlardan birinə ölüm gəldiyi zaman deyər: “Ey Rəbbim! Məni geri qaytar. Bəlkə, tərk etdiyim yaxşı əməlləri indi edəm”. Xeyr! Onun bu dedikləri ancaq boş bir sözdür. Onların

---

[210] “əl-Muminun”, 115-116.
[211] “ən-Nisə“ surəsi, 150-151.

arxasında diriləcəkləri günə qədər bərzəx həyatı vardır”[212].

Sonda isə deizm girdabına düşmüş, “hədəfsizlik” uçurumuna yuvarlanmış kəsləri gec olmadan, həyatda ikən Allaha dönüb ona həqiqi şəkildə iman etməyə dəvət edirəm! *Allahın salamı və salavatı Peyğəmbərimiz Muhəmmədin, onun əhli-beytinin və səhabələrin üzərinə olsun!*

[212] "əl-Muminun" surəsi, 99-100

## İstifadə olunmuş ədəbiyyat:


1. Qurani-Kərimin Azərbaycan dilinə mənaca tərcüməsi.
2. “Səhih-əl-Buxari”, Muhəmməd İsmayıl əl-Buxari.
3. “Səhihi-Muslim”, Müslim ibnil-Həccəc əl-Quraşi.
4. “Sünəni Əbi Davud”, Süleyman ibnil-Əş’as əl-Əzdi.
5. “Sünən ibn Macəh”, Muhəmməd İbn Yəzid ibn Macəh.
6. “Sünən ət-Tirmizi”, Muhəmməd ibn İsa ət-Tirmizi.
7. “Fəthul-Bəri”, ibn Həcər əl-Asqalani.
8. Nəsiruddin əl-Albani, “Səhih Sünən Tirmizi”.
9. “Musnədi Əhməd”, İmam Əhməd ibn Hənbəl.
10. “Mustalah əl-Hədis”, Saleh İbn Useymin.
11. “Təfsirut-Təbəri”, İbn Cərir ət-Tabəri.
12. “Təfsirul-Quranil-Azim”, ibn Kəsirin Quran təfsiri, 2010. "əl-Kitəb əl-Arabi" nəşriyyatı, Beyrut.
13. “əl-Fusul əl-Mufidə fi təqviyətil-Aqidə”, Dr. Əhməd ibn Mənsur, 2018.
14. “Şərhu Əqidətut-Tahaviyyə”, ibn Əbil-İzz əd-Diməşqi. 3-cü nəşr, 1997.
15. “Kəmilətul-Kəvari, Qidəmil-Aləm və təsəlsulul-Həvadis beynə ibn Teymiyyə və Fələsifə”, Dər Usəmə, Ummən, 2018.
16. “Tibbun-Nəbəvi”, İbnul-Qeyyim əl-Cövziyyə.
17. “Niqaş məa mulhid”, Səad əş-Şəsri, 2015.
18. “Əl-İmənu bil-Qadai val-Qadər”, dr. Muhəmməd ibn İbrahim əl-Həmd, 2018.
19. “Zahiratu nəqdud-Din fil-Fikril-Ğarbil-Hədis”, doktorluq dissertasiyası (ərəbcə), dr. Sultan ibn Əbdür-Rəhman əl-Umeyri, Xubar şəhəri, 2018.

20. “Əl-Vaciz fil-Məzəhib əl-Fikriyyə”, Əhməd əl-Xaləf, Mədinə Beynəlxalq İslam Universitetinin müəllimi, 2016.
21. “Movsuatur-Ruh - ər-Ruh fid-Diyənət əl-Kitəbiyyəh val-Vad'iyyəh”. Dr. Ali ibn Səid əl-Ubeydi, 2014.
22. “Əcnihətul-Məkr əs-Sələsətu va Xavafiyhə - ət-Təbşir, əl-İstişraq, əl-İsti'mar”, Əbdür-Rəhman əl-Meydəni. 12-ci nəşr, 2014.
23. “Liməzə nəhnu hunə?”, İsmayıl Arafa, 2017.
24. “Cilədul-İlhəd”, Muhəmməd ibn İbrahim əs-Səidi, 2018.
25. “Əl-Ovdətu iləl-İmən”, Heysəm Tal'at, 2016 (“Mərkəzu Bərahin”).
26. “Hivarul-Mulhidin və Şubuhətur-Rububiyyin”, Dr. Raşid ibn Xaləf əl-Qalib, 2020.
27. “Şumuun-Nəhər”, Abdullah əl-Aciri.
28. “Əl-İlhədu fil-Ğarb”, Ramzez Avad.
29. “Əl-İlhəd Fardiyyətun fi əzmə” (“Ateizm, problemli fərziyyə”), Əhməd Bəlqis, 2018.
30. “1+1=3” (“Usulul-Xata fiş-Şubuhəət əl-Musərati Diddil-İsləm va səvabitəhu” (ərəbcə). “İslama və onun əsaslarına qarşı yayılan şübhələrin yanlış əsasları”, Əhməd Seyyid, 2017.
31. “Ağılın bilməməzliyi” (ərəbcə), dr. Əhməd İbrahim, 2011.
32. “Fitriyyətul-İmən”, Castin L. Barret (ərəbcəyə tərcümə), 2017.
33. “Movsuatul-Fəlsəfiyyətul-Muxtasarah”, Conatan Armston (ərəbcəyə tərcüməsi Fuad Kamil), 2013.
34. “Deizm və tənqidi” (tarixi və teoloji yanaşma), doktorluq dissertasiyası, Marmara Universiteti

Sosial Elmlər İnstitutu, ilahiyyat fakültəsi, Emre Dorman. İstanbul , 2009.
35. “Din Karşıtı Çağdaş Akımlar ve Deizm”, Hamdi Gündoğar.
36. “The Influence and Legacy of Deism in Eighteenth Century America”, Tiffani E. Piland. Florida, 2011.
37. Oxford English Dictionary – Islamophobia. Oxford University Press.
38. “Dirasət fil-Ədyən əl-Yəhudiyyəh vən-Nəsraniyyəh”, “Ədvaus-Sələf” nəşriyyatı, 2006.
39. “Kommunizm və Din”, Y. Yarovslavski. Latın əlifbası ilə (azərbaycan dilinə tərcümə), 1938.
40. “Məcmuul-Fətəva”, Şeyxulislam ibn Teymiyyə.
41. “Hristiyan Batı Efsanesi, Batıda Din, Bilim ve Felsefe tartışmaları”. Müəllif: Piter Pikker (Türk dilinə tərcümə edən: Zeynep Ovalioğlu).
42. Məqalə: “Zərdüştlük, Tenqriçilik, (Tanrıçılıq) Şamanizm”. Müəllif: Bəxtiyar Tuncay.
43. Məqalə: www.milli.az saytı, “Vicdan nə deməkdir?”, 16.05.2017.
44. Mucəm-əl-Məani, ərəbcə elektron lüğət.
45. Məqalə: “Qədim Babil dini”. Müəllif: Aydın Əlizadə. www.alizadeh.narod.ru saytı.
46. Məqalə: “Deizm xilas yolu ola bilərmi?” Müəllif: Dilavər Məmmədov, 06.07.2020.
47. Məqalə: “Fitrətin Allahın varlığına dəlilləri”, Zeyd Övladzəyən, Yaqeen Center. www.yaqeen.com saytı.
48. Məqalə: “Naqd ərkən Məzhəb ər-Rububi”, Riyad Sidqi, “Deizmin əsaslarının tənqidi” məqaləsi (ərəbcə), www.yaqeen.net saytı, 29.06.2019. Saytın elmi rəhbəri: şeyx Saleh əs-Sindi.

49. Məqalə: “Teizm və deizm açısından vahye olan ihtiyaç”, Ersan Özten.
50. Məqalə: “İslamofobiya – Qərbin İslam düşmənçiliyinin təzahürü”. Müəllif: Sahib Əsədov, www.tovhid.info saytı.
51. Məqalə: “Hədislər ağıla ziddir - şübhəsinə cavab". Müəllif: Sahib Əsədov, www.tovhid.info saytı.
52. Məqalə: “Humanizm nədir? Allahsızlıq çağırışı, yoxsa, “insanpərvərlik?” Müəllif: Sahib Əsədov, www.senxatirlat.com saytı.
53. Məqalə: “Vaxtilə Avropa qəfəslərində insanların nümayiş olunduğu “insan zooparkları”. Müəllif: Taha Əbdül-Nasir Ramazan, www.alarabiya.net saytı. Məqalənin ərəbcə adı: حدائق الحيوان البشرية.. يوم عرض البشر في أقفاص بأوروبا
54. Məqalə: “DNA survey finds all humans are 99.9 pc the same”. Müəllif: Rocer Hayfild, “The Telegraph” qəzeti, 20.12.2002.
55. Məqalə: “İrqlərin müxtəlifliyi nə üçün təkamülə dəlil deyil?” www.biologiya.az saytı.

## Mündəricat

Müqəddimə.......................................................……………1
Deizm nədir?...............................................................6
Deist olmaqda bir məna varmı?...................................11
Deistlərin şübhələri hansılardır?..................................12
Deist-ateist yaxınlığı və uzaqlığı................................. 13
Deizmin bütpərəstliklə əlaqəsi.....................................18
Deistlərə sözümüz var................................................19
Əgər Allahın məxluqatı yaratmağa ehtiyacı yox idisə, onda onları niyə yaradıb?...........................................22
İnsanın fitrətində dini hislərin mövcudluğu……………..24
Kainata İlahi qayğı barədə...........................................26
Deistin sorğuladığı qəzavü-qədər anlayışı……………...31
Elmin hüdudları hara qədərdir və elm dinə ziddirmi?...38
Deistlə dindarın söhbəti və deistin şübhələrinə cavab..41
Əgər Allah heç nəyə möhtac deyilsə, nə üçün Özünə ibadəti əmr edib?.......................................................46
Həqiqətən bizim ibadətə ehtiyacımız varmı?................55
Deizm təfəkküründə əxlaq...........................................57
Əxlaqi dəyərlər öz-özünə yarana bilərmi?....................61
“Allah bizim vicdanımızdır” deyən deistlərə xitab..……66
Deistlər axirətin və ruhun varlığına inanırmı?...............77
Deistin İslam qorxusu - İslamofobiya............................82
İslam haqdırsa, niyə müsəlmanlar ixtilaf edir?..............85
Din hər şeyi haram edir?.............................................95
Din insanları idarə etmək üçünmü uydurulub?...........101
Xurafatlar barədə......................................................116
İslam dini Şumerlərdən götürülüb?.............................122
Peyğəmbərlərə niyə inanmalıyıq?.............................134

Dünyada bu qədər din var ikən, niyə məhz İslamı seçməliyik?....................................................................146
Deistlərin bəzi iddialarına cavablar!...........................161
1 - Biz kimik, haradan gəlmişik, hara gedirik? Nə üçün buradayıq?....................................................................161
2 - 5000 din arasından hansını seçməliyik?...............161
3 - Üç səmavi kitabın təhrifinə niyə izn verilmişdir?....160
4 - Nə üçün daha peyğəmbər göndərilmir?................165
5 – Dinsiz də yaxşı insan olmaq olurmu?...................169
6 - Təkamül yalandırsa, onda insanlar necə fərqli irqlərə bölünüblər?....................................................................174
Deizm xilas yoludurmu? Bəlkə bir daha düşünəsən?.180
Son söz........................................................................183
İstifadə olunmuş ədəbiyyat.........................................186
Mündəricat………………………………..……………….190

**Qeyd:** Hörmətli oxucular! Şəkk yoxdur ki, əlinizdəki kitab insan əməyinin bəhrəsidir. Ona görə də kitabda səhvlərin olması qaçınılmazdır. Xahiş edirik ki, kitab haqqında hər hansısa mülahizə, rəy və təkliflərinizi bu elektron ünvana göndərəsiniz:
sahibfarmanoglu@gmail.com

Kitab həm deistlərin, həm də müsəlmanların oxuması üçün nəzərdə tutulmuşdur.

**Kitabın adı:** "Hədəfsiz Deizm"
**Redaktədən sonrakı tarix:** 23.09.2020
**Kitabın səhifələrinin sayı:** 192
**Kağız ölçüsü:** A5 (14.8 cm ×21.0 cm)
**Müəllif:** Sahib Əsədov
**Redaktor:** Xumar Ərşadlı